# Şafeilər Üçün NAMAZ ELMİHALI

Dəlilli və Açıqlamalı

Hazırlayan
Ramil Əliməmmədov

Təshih
Kənan Abdullayev

Burhan

# ƏHLİ SÜNNƏ VƏ-L CƏMAAT ƏQİDƏSİ

# VƏ

## Dəlilli və Açıqlamalı

# ŞAFİİ MƏZHƏBİNƏ GÖRƏ NAMAZ ELMİHALI

# MÜNDƏRİCAT

## ƏHLİ SÜNNƏ VƏ-L CƏMAAT ƏQİDƏSİ

*Ön söz*..........................................................................................5
*Din nədir ?*....................................................................................6
*Neçə cür din vardır ?*.......................................................................6
*Din neçə şey üzərinə bina olub ?*.........................................................6
*İman nədir ?*..................................................................................6
*İman neçə cürdür ?*..........................................................................7
*"Əməntu" nə deməkdir ?*.....................................................................7
*"Billəhi" nə deməkdir ?*......................................................................7
*Allahın varlığının neçə dəlili vardır ?*....................................................8
*Allahu Təalanı tanımaq üçün nələri bilmək lazımdır ?*...............................8
*Sifəti zatiyyə neçədir ?*......................................................................8
*Sifəti sübutiyyə neçədir ?*...................................................................9
*"Və Mələikətihi" nə deməkdir ?*............................................................9
*Mələklərin böyükləri hansılardır ?*........................................................10
*Dörd böyük Mələkdən başqa hansı Mələklər vardır ?*.................................10
*"Və Kutubihi" nə deməkdir ?*...............................................................11
*Sühuflar hansı Peyğəmbərlərə nazil olmuşdur ?*.......................................11
*Kitablar hansı Peyğəmbərlərə nazil olmuşdur ?*.......................................11
*Qurani Kərimin üzərimizdəki haqları nələrdir ?*.......................................12
*"Və Rusulihi" nə deməkdir ?*................................................................12
*Peyğəmbərlərdə olması lazım olan sifətlər hansılardır ?*............................12
*Allahu Təala neçə Peyğəmbər göndərmişdir ?*..........................................13
*Qurani Kərimdə adları çəkilən Peyğəmbərlər hansılardır ?*..........................13
*Hz. Muhamməd (s.a.v)-in o biri Peyğəmbərlərdən fəziləti nədədir ?*.............13
*Peyğəmbərlərdən sonra insanların ən fəzilətliləri kimlərdir ?*......................13
*"Və-l Yəvmil Əxiri" nə deməkdir ?*.........................................................13

*Axirət gününün varlığının əqli dəlili nədir ?.........................................................15*

*Qiyamətin kiçik alamətləri.........................................................................15*

*Qiyamətin böyük alamətləri.......................................................................16*

*"Və Bil Qadəri- Xayrihi və Şərrihi Minəllahi Təala" nə deməkdir ?..........................16*

*Şəri Şeytan yarata bilərmi ?.....................................................................17*

*Allahu Təala şəri yaratmasaydı daha yaxşı olmazmıydı ?.....................................17*

*İmanın ərkanlarına inannayan bir insanın Dindəki hökmü nədir ?...........................17*

*İman neçə cürdür ?...............................................................................17*

*İslam nədir ?.......................................................................................18*

*İslam Dini neçə şey üzərinə bina olub ?.......................................................18*

*İslamın şərti olan İbadətləri nə üçün etmək lazımdır ?........................................18*

*İhsan nədir ?......................................................................................18*

*Böyük günahlar nəyə deyilir və hanaılardır ?..................................................19*

*Hansı əməllər insanı kafir edir (Dindən çıxarır) ?.............................................19*

*Allahın heç bağışlamayacağı günah hansıdır ?.................................................20*

*Mükəlləf.............................................................................................21*

*Əfali mükəlləfin (Mükəlləfin feilləri)...............................................................21*

***TƏMİZLİK***

*Xəlada Təmizlik Qaydaları.........................................................................24*

*Dəstəmazın fərzləri.................................................................................25*

*Dəstəmazın sünnətləri..............................................................................26*

*Misvak................................................................................................28*

***FƏRZİ VƏ SÜNNƏSİYLƏ DƏSTƏMAZ ALMANIN QAYDASI***......................................29

*Dəstəmazı pozan şeylər............................................................................38*

*Qüsl...................................................................................................39*

*Qüslun fərzləri......................................................................................40*

*Qüslun sünnətləri...................................................................................40*

***FƏRZİ VƏ SÜNNƏSİYLƏ QÜSL ALMANIN QAYDASI***............................................41

*Sünnət olan qüsllar*.....................................................................................*41*

*Qadınlara Məxsus Hallar*...............................................................................*43*

*NAMAZ*

*Fərz namazlar və vaxtları*..............................................................................*45*

*Fərzlərə tabe olan (rəvatib) sünnətlər toplam olaraq 17 – dir*...............................*46*

*(Fərzlərə tabe olmayan) Müəkkəd nafilə sünnətlər 3 – dür*...................................*48*

*Şafii Məzhəbinə görə Namazların tam rükət sayları*............................................*49*

*Namazın səhih olmasının şərtləri*...................................................................*50*

*Namazın sünnətləri*.......................................................................................*51*

*FƏRZİ VƏ SÜNNƏSİYLƏ NAMAZ QILMANIN QAYDASI*...........................................*54*

*Namazı Pozan Şeylər*.....................................................................................*74*

*Namaz qılmağın məkruh olduğu vaxtlar*............................................................*75*

*Diqqət*.........................................................................................................*76*

# *ÖN SÖZ*

**Bismilləhirrahmənirrahim. Bizlərə İslam şəriətini öyrənməyi fərz qılan Allaha həmd olsun. Hz.Muhamməda (s.a.v), təmiz əhli beytinə və əshabına salət və salam olsun. Mən bu “Namaz Elmihalı” kitabında Qazı Əbu Şuca`nın “Ğayətul İxtisar” kitabını, Dr.Mustafa Buğanın dəlilləndirərək hazırladığı və elm öyrənməmdə mənim üzərimdə böyük əməyi keçən Xocam Tural Alişanovun tərcümə etdiyi “ət-Təhzib fi-Ədilləti Mətni əl-Ğayət və ət-Təqrib” kitabından dəstəmaz və namazla əlaqəli gündəlik həyatda istifadə edilən şeyləri cəm etdim. Dəstəmaz alma, qüsl alma və namaz qılma mövzularını fərzləri və sünnələri olmaq şərtiylə bir araya gətirdim ki, Şafii Məzhəbində olanlar rahat bir şəkildə bunları öyrənə bilsinlər. Və dəstəmaz, qüsl və namaz mövzularını müxtəlif fiqh kitablarından şərh və dəlil ilə bir arada cəm etdim.**

**Əlavə olaraq “Namaz Elmihalı”-nın əvvəlinə “Əhli Sünnə və-l Cəmaat” etiqadına görə kiçik bir risalə əlavə etdim.**

**Əlinizdə olan bu kiçik əsərlə övladlarınıza hər Müsəlmanın bilməsi zəruri olan məlumatları verərək qismən də olsa, məsuliyyətinizi azalta bilərsiniz.**

**Allahu Təaladan bu kitabı faydalı qılmasını və bu kitab ilə Onun rizasına qovuşmağı diləyirəm.**

**RAMİL ƏLİMƏMMƏDOV**

# *ƏHLİ SÜNNƏ VƏ-L CƏMAAT ƏQİDƏSİ*

## *DİN NƏDİR ?*

**Din:** insanların yaradılmasındakı məqsədə çatmaları üçün təqib etmələri lazım olan ilahi yoldur.

İnsanın yaradılmasındakı məqsəd Allahu Təalaya ibadət etməkdir. İbadət etməkdə məqsəd isə Allah Təalanı bilməkdir.

Dinin həqiqi din olması üçün onda üç xüsusiyyətin olması lazımdır. Allahdan gəlməsi, Peyğəmbərin gətirməsi və sonradan təhrif edilməməsi (**yəni dəyişdirilməməsi**). Bu xüsusiyyətləri özündə əks etdirən din isə İslam dinidir.

## *NEÇƏ CÜR DİN VARDIR ?*

**Üç cür din vardır:**

**Haqq din:** Allahdan gələn, Peyğəmbər vasitəsilə göndərilən, insanlar tərəfindən dəyişdirilməyən dindir. Bu yalnız **İslam** dinidir.

**Mühərrəf din (dəyişdirilmiş din):** Allah tərəfindən Peyğəmbər vasitəsilə göndərilib sonradan insanlar tərəfindən dəyişdirilən dindir. **(xristianlıq və yahudilik)**.

**Batil din:** Allah tərəfindən Peyğəmbər vasitəsiylə göndərilməyib sonradan insanların uydurduğu dindir. **(bütpərəstlik və ataşpərəstlik)**

## DİN NEÇƏ ŞEY ÜZƏRİNƏ BİNA OLUB ?

**Din üç şey üzərinə bina olub:** İman, İslam, İhsan

## *İMAN NƏDİR ?*

**İman:** Hz.Muhammməd (s.a.v)-in Allahu Təaladan gətirmiş olduğu bütün xəbərlərə “**haqdır**” deyib inanmağa deyilir.

## *İMAN NEÇƏ CÜRDÜR ?*

**İman iki cürdür:** İmani icmali, İmani təfsili.

**İmani icmali:** kəlməyi şəhadəti deməklə dinimizdə inanılması zəruri olan şeylərə toplu halda inanmaqdır.

**Kəliməyi şəhadət:** "Əşhədu ən lə iləhə illəllah və əşhədu ənnə Muhammədə-r rasulullah (s.a.v)"

**Mənası:** "Şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur və yenə şəhadət edirəmki Muhəmməd (s.a.v) Onun Rasuludur."

**İmani təfsili:** İnanılması lazım olan iman əsaslarına təfərrüatlı şəkildə inanmaqdır. Bu da kəlmeyi imanı deyib imanın altı şərtini ayrı ayrı bilməklə olur.

İman kəlməsinə **"Əməntu"** da deyilir.

**İmanın kəliməsi:** "Əməntu billəhi və məlaikətihi və kutubihi və rusulihi və-l yəvmi-l əxiri və bil qadəri- xayrihi və şərrihi minəllahi təala."

**Mənası:** "İnandım Allaha, mələklərinə, Kitablarına, Peyğəmbərlərinə, Qiyamət gününə, qədərə- xeyrin və şərrin Allahu Təala tərəfindən olduğuna."

## *"ƏMƏNTU" NƏ DEMƏKDİR ?*

**Əməntu:** "Dilimlə deyib, qəlbimlə təsdiq edərək" iman etdim deməkdir.

İman **"Əməntu"** dan ibarətdir. Yalnız burada özəlliklə üzərində durmağımızı gərəkdirən nöqtə budur: Peyğəmbər (s.a.v)-in gerçək bir imanın tərifində belə buyurduğu rəvayət edilmişdir:

"**İman qəlb ilə təsdiq, dil ilə iqrar və onu günlük feili həyata tökməkdir**". İmanın əməl ilə təqviyə edilməsi (**yəni qüvvətləndirilməsi**) lazımdır.

## *"BİLLƏHİ" NƏ DEMƏKDİR ?*

**Billəhi:** Allaha deməkdir.

**Allaha iman bu xüsusdan ibarətdir:**

1) Allahın varlığını qəbul etmək,
2) Allahın birliyini qəbul etmək,
3) Allah sevgisi.

## ALLAHIN VARLIĞININ NEÇƏ DƏLİLİ VARDIR ?

**Üç dəlil vardır:**

**Nəqli dəlillər:** Nəqli dəlillər, Quranda və hədisdə sözlə verilən dəlillərdir.

**İdrakı dəlillər:** İdraki dəlillər, Allah Təalanın varlığını isbat üçün göz ilə görülən şeylərdir. Yer, göy, ulduzlar kimi.

**Əqli dəlillər:** Əqli dəlillər, Allah Təalanın varlığını əqlən sübut etməkdir.

## ALLAHU TƏALANI TANIMAQ ÜÇÜN NƏLƏRİ BİLMƏK LAZIMDIR ?

Allah Təalanın sifətlərini bilmək lazımdır.

**Allah Təalanın sifətləri ikidir:**

1) Sifəti Zatiyyə **(zatı sifətlər)** yəni, özündən ayrıması mümkün olmayan sifətlər.
2) Sifəti Sübutiyyə **(sübuti sifətlər)** yəni, alimlərin Qurandan və hədislərdən "**Allahda bu sifətlər vardır**" deyib sübut etdikləri sifətlərdir.

## *SİFƏTİ ZATİYYƏ NEÇƏDİR ?*

**Bu sifətlər altıdır:**

1) **Vücud:** Allah vardır, yoxluğunu düşünmək mümkün deyil,
2) **Qidəm:** Varlığının başlanğıcı yoxdur, heç bir şey olmayanda O, var idi. Bu səbəblədə Allahu Təala çox öncədən yox idi sonradan olmuş kimi bir şübhəyə düşməmək lazımdır,
3) **Bəqa:** Varlığının sonu yoxdur, heç bir şey olmasa da Onun varlığı olacaqdır. Allahdan başqa hər varlığın bir sonu olacaqdır,
4) **Vəhdaniyyət:** Allah birdir, yəni Allahu Təalanın hər baxımdan bir olmasıdır. Hər

yönü ilə taysız olması deməkdir.

5) **Muxalifətun lil həvadis:** Allah yaratdığı heç bir varlığa oxşamaz. Allah həm zati həmdə sifətləri etibariylə heç bir varlığa bənzəməz. Məkana, zamana, cəhətə möhtac deyildir,
6) **Qiyam bi nəfsihi:** Allahın varlığı öz əlindədir. Amma Ondan başqa heç bir şeyin varlığı özündən deyildir. O, heç kəsə möhtac deyildir. Hamı və hər şey ona möhtacdır.

## *SİFƏTİ SÜBUTİYYƏ NEÇƏDİR ?*

**Sifəti sübutiyyə yeddidir:**

1) **Həyat:** Allah diridir. Allahu Təala özünə məxsus bir həyat sahibidir. Digər varlıqlarada həyat verən Odur,
2) **Elm:** Allah hər şeyi biləndir. Onun bilmədiyi heç bir elm yoxdur. Gizlində və aşkarda, quruda, dənizdə, görünəndə, görünməzdə, keçmişdə və gələcəkdə olan hər şeyi, ürəkdən keçənləri belə biləndir,
3) **Səmii:** Allah hər şeyi eşidəndir, amma bizim kimi qulaqla yox, eşitmək onun xüsusiyyətidir, qulağa möhtac deyildir. Allah hər sesi eyni anda eşidər,
4) **Bəsar:** Allah hər şeyi görəndir, amma bizim kimi göz ilə yox, görmək onun xüsusiyyətidir. Gözə ehtiyacı yoxdur. Görməsi üçün uzaq-yaxın, aydınlıq-qaranlıq kimi hallar nəticəni dəyişdirməz. Hər yerdəki hər şeyi eyni anda görər,
5) **Kəlam:** Allah istədiyi qulları ilə danışandır, amma bizim kimi ağızla yox, danışmaq onun xüsusiyyətidir. Onun Peyğəmbərlərə göndərdiyi kitablar kəlam sifətinin əsəridir,
6) **İradə:** Allah istəyəndir və istədiyini yerinə yetirə biləndir. Allahın iradəsinin önünə keçəcək bir qüvvət ola bilməz. Mütləq iradə sahibidir,
7) **Qütrət:** Allah sonsuz qüdrət sahibidir, hər şeyə gücü çatandır. O heç bir şeydən aciz deyildir. Onun qüdrətinin önünə keçəcək bir qüvvət ola biləz. İstədiyini var, istədiyini yox edəcək gücə sahibdir,

## *“VƏ MƏLƏİKƏTİHİ” NƏ DEMƏKDİR ?*

**Və mələikətihi:** Və inandım Onun mələklərinə.

Mələklər Allahın yaratdığı varlıqlardır. Nurdan xəlq ediliblər. Daim Allaha ibadət edər, bir ləhzədə (**an**) olsa ona asi (**qarşı**) olmazlar.

Yeməzlər, içməzlər. Qidaları Allahı zikr etməkdir. Erkək və dişiləri, ailə və övladları yoxdur. Saylarını yalnız Allah bilir. Hər biri müəyyən iş ilə vəzifələndiriliblər. Bəziləri daim zikrdə, bəziləri kainatdakı qayda qanunu tənzinləməkdədir. Hər bir insana müvəkkil edilmiş yaxşılığı aşılayan (**tövsiyə edən**), pis şeylərdən qoruyan, çətin vaxtlarda möminlərə yardım edən mələklərdə vardır.

## *MƏLƏKLƏRİN BÖYÜKLƏRİ HANSILARDIR ?*

**Mələklərin böyükləri dörddür:**

**Hz.Cəbrail** mələklərin ən böyüyüdür. O, Allahdan peyğəmbərlərə vəhy gətirən mələkdir. Bütün səmavi kitabları o cümlədən, Quranı Peyğəmbərimizə gətirən odur.

**Hz.Mikail** adlı mələk təbiət işlərini görməklə vəzifələndirilib.

**Hz.İsrafil** adlı mələk **Sur** çalmaqla qiyaməti qoparacaq mələkdir. O, bu sura ikinci dəfə üflədikdə ölmüş insanlar yenidən diriləcəkdir.

**Hz.Əzrail** (**mələkül mövt/ölüm mələyi**) adlı mələk ömrü sona çatan insanların ruhlarını bədənlərindən alan mələkdir.

## *DÖRD BÖYÜK MƏLƏKLƏRDƏN BAŞQA HANSI MƏLƏKLƏR VARDIR ?*

**Dörd böyük mələkdən başqa mələklərdə vardır:**

**Kiramən katibin** yəni, yazıçı mələklər. Bu iki mələklərdən biri insanın sağında digəri isə solunda olur. Sağındakı insanın elədiyi yaxşı əməlləri, solundakı isə pis əməlləri yazır. Bu yazılan dəfətərə "**əməl dəftəri**" deyilir.

**Münkər və Nəkir** mələkləri, ölmüş insanları sorğu suala çəkən mələklərdir.

**Rizvan** adlı mələk cənnət mələklərinin rəhbəridir.

**Malik** adlı mələk Cəhənnəmdə əzab mələklərinin rəhbəridir.

**Hər insan doğulduğunda ona müvəkkil olan bir mələkdə vardır.** Bu mələk vəzifələndirildiyi bu adama yaxşı ilə yaman əməl arasında yaxşını seçməyi təklif edən mələkdir. Eyni vaxtda o adama şeytan günahı da təklif edər. Ona görədə hər adama qəlbən gələn təklifin mələkdənmi yoxsa, şeytandanmı olduğunu bilməsi lazımdır.

**Həmələtul ərş**: Ərşi saxlayan mələklər.

**Hafaza mələkləri**: Lazım olduğunda insanları qəza və bəladan mühafizə edən mələklərdir.

## *"VƏ KUTUBİHİ" NƏ DEMƏKDİR ?*

**Və kutubihi:** Və (**inandım**) onun kitablarına.

Allah Təala qullarının dünyada və axirətdə xoşbəxt olmaları üçün peyğəmbərlər vasitəsilə **104** kitab göndərmişdir. Bunlardan **100**-ü sühuf (**səhifə**), **4**-ü isə kitabdır.

## *SÜHUFLAR HANSI PEYĞƏMBƏRLƏRƏ NAZİL OLMUŞDUR ?*

10 sühuf **Hz.Adəm** (ə.s)-a

50 sühuf **Hz.Şit** (ə.s)-a

30 sühuf **Hz.İdris** (ə.s)-a

10 sühuf **Hz.İbrahim** (ə.s)-a

## *KİTABLAR HANSI PEYĞƏMBƏRLƏRƏ NAZİL OLMUŞDUR ?*

**Tövrat:** Hz.Musa (ə.s)-a. Tövratda Peyğəmbərlərin həyatlarından, İsrail oğullarının Misirdən çıxmağından, ibadətlərindən, qurban və bayram mərasimlərindən və İsrail oğullarının Tur dağından Kənan yurduna gəlmələrindən bəhsedilir.

**Zəbur:** Hz.Davud (ə.s)-a. Zəbur Tövratdan ayrı bir hökүm gətirməmişdir, içində əxlaqi nəsihətlər və ilahilər vardır.

**İncil:** Hz.İsa (ə.s)-a. İncildə Tövrat kimi əhkam (**hökүm bildirən**) kitab olub ibadətlərdən bəhs edir.

**Qurani Kərim:** Hz.Muhamməd (s.a.v)-ə. Ondan bizə qədər heç kimsənin etiraz etməyəcəyi, şübhəyə düşməyəcəyi bir dəqiqliklə çatdırılmışdır. Allahu Təaladan gəldiyi kimi mühafizə edilmiş olan tək ilahi kitab Qurani Kərimdir. Allahu Təala tərəfindən bütün insanlığa göndərilmiş və qiyamətə qədər Onun hökmünün keçəcəyi Allah tərəfindən bildirilmişdir. Qurani Kərim Hz.Muhamməd (s.a.v)-ə nazil olduğu kimi heç bir təhrifə məruz qalmadan bu günə qədər gəlib çıxmışdır. Onun

hökmləri qiyamətədək davam edəcəkdir. Bu xüsusda Allahu Təala Qurani Kərimdə bunu qaranti etdiyini bu şəkildə bildirmişdir: "Əlbətdə ki, zikri (**Qurani Kərimi**) biz endirdik, (**qiyamətə qədər**) Onu biz qoruyacağıq."

Qurani Kərimdən başqa bütün kitablar öz hökmlərini itirmişlər. Çünki, bu kitablara insanlar müdaxilə edərək dəyişiblər. Yəni kilsə papazları, sinoqoq və havra xaxamlarının zövq və səltənətlərinə müxalif olan ayət və hökümləri dəyişdirmişlər.

## *QURANİ KƏRİMİN ÜZƏRİMİZDƏKİ HAQLARI NƏDİR ?*

Ədəbini gözləyib əmr etdiklərini yerinə yetirməli, qadağan etdiklərindən də çəkinməliyik.

## *"VƏ RUSULİHİ" NƏ DEMƏKDİR ?*

**Və rusulihi:** Və inandım Onun Peyğəmbərlərinə.

Hz.Adəmdən Peyğəmbərimiz (s.a.v) ə qədər gələn bütün peyğəmbərlərə inanmaq imanın rükunlarından biridir.

Peyğəmbərlər, Allahın insanların içindən seçdiyi ən yaxşı qullarıdır. Onlar dünya və axirət səadətini insanlara öyrədən ilahi müəllimlərdir.

Peyğəmbərlər olmasa, insanlar Allaha inansalar da, Ona qulluq borclarının necəliyini bilməzlər. Onlar Allaha necə ibadət ediləcəyini, Axirət həyatını, orada kimlərə cəza, kimlərə mükafat veriləcəyini özlərindən bilə bilməzlər. Peyğəmbərlər Allahın əmr və qadağalarını, dini hökmləri açıqlamış, özləri də söylədiklərini yerinə yetirərək insanlara nümunə olmuşlar. Bütün çətinliklərə baxmayaraq, onlar öz vəzifələrini yerinə yetirmişlər. İnanmayanlara Peyğəmbərliklərini sübut etmək üçün heç kəsin edə bilməyəcəyi fövqəladə hadisələr, möcüzələr göstərmişlər.

## *PEYĞƏMBƏRLƏRDƏ OLMASI LAZIM OLAN SİFƏTLƏR HANSILARDIR ?*

1) **Sidq:** Peyğəmbərlər son dərəcə düzgün insanlardır. Qəti yalan danışmazlar. Oldu dedikləri olmuş, olacaq dedikləri vaxtı gəldikdə mütləq olacaqdır.
2) **Əmanət:** Peyğəmbərlər hər cəhətdən etibarlı insanlardır, əmanətə xəyanət etməzlər.

3) **Fətanət:** Peyğəmbərlər ağıllı və ayıq adamlar olub, yüksək zəkaya malikdirlər.
4) **İsmət:** Peyğəmbərlər həya sahibi olub, gizli və yaxud açıq şəkildə günah işləməzlər.
5) **Təbliğ:** Peyğəmbərlər Allahdan aldıqları dini hökmləri olduğu kimi heç bir dəyişiklik etmədən insanlara bildirmişlər.

## *ALLAHU TƏALA NEÇƏ PEYĞƏMBƏR GÖNDƏRMİŞDİR ?*

Peyğəmbərlərin sayı, bəzi rəvayətlərdə yüz iyirmi dörd mindir.

## *QURANİ KƏRİMDƏ ADLARI ÇƏKİLƏN PEYĞƏMBƏRLƏR HANSILARDIR ?*

**Qurani-Kərimdə adları çəkilən Peyğəmbərlər 28-dir:**

**1.**Adəm, **2.**İdris, **3.**Nuh, **4.**Hud, **5.**Saleh, **6.**Lut, **7.**İbrahim, **8.**İsmail, **9.**İshaq, **10.**Yaqub, **11.**Yusuf, **12.**Şuayb, **13.**Harun, **14.**Musa, **15.**Davud, **16.**Süleyman, **17.**Eyyub, **18.**Zülkifl, **19.**Yunus, **20.**Əlyasa **21.**Zəkəriyyə **22.**İlyas **23.**Yəhya **24.**Loğman, **25.**Zülqərneyn, **26.**Üzeyr, **27.**İsa, **28.**Muhamməd (s.a.v).

Bu peyğəmbərlərdən **Üzeyr, Loğman, Zülqərneynin** Peyğəmbər yoxsa övliya olması barədə ixtilaf vardır.

## *HZ.MUHAMMƏD (S.A.V)-İN O BİRİ PEYĞƏMBƏRLƏRDƏN FƏZİLƏTİ NƏDƏDİR ?*

Hz.Muhamməd (s.a.v) Allahu Təalanın sevgili qulu, aləmlərin var olmasının səbəbkarı, Peyğəmbərlərin ən sonuncusu, bir millətə bir qövmə yox, bütün insan və cinlərə göndərilən, şəriətinin hökmü müəyyən bir vaxta qədər yox, qiyamət gününə qədər davam edən xüsusiyyətləri ilə başqa Peyğəmbərlərdən fərqlənir.

## *PEYĞƏMBƏRLƏRDƏN SONRA İNSANLARIN ƏN FƏZİLƏTLİLƏRİ KİMLƏRDİR ?*

Peyğəmbərlərdən sonra Hz.Əbu Bəkir, Hz.Ömər, Hz.Osman, Hz.Əli, sonra əhli beyti və bütün səhabələr insanların ən fəzilətliləridir. Bunlardan sonra dörd məzhəb imamları, müctəhid alimər, mürşidi kamillər, övliya qullar və bütün möminlər imanın nuruna görə bir birindən fəzilətlidirlər. (**Allah cümləsindən razı olsun.**)

## *"VƏ-L YƏVMİL ƏXİRİ" NƏ DEMƏKDİR ?*

Və (**inandım**) axirət gününə. Hz.Muhamməd (s.a.v)-in şəriətinə tabe olunmayacaq, fitnə-fəsad çıxarılacaq, nahaq qan töküləcək, pozğunluq adiləşəcək, alimlərin sözü dinlənilməyəcək, Quranın hökmlərinə əməl edilməyəcək bir zamanda, Quran insanlar arasından götürülüb, ağ vərəqlər qalacaq və bir nəfərdə olsa "**ALLAH**" deyəcək insan olmadığı zaman Allahu Təala İsrafil (ə.s)-ın Surunun səsi ilə, yerləri, göyləri bir birinə vuraraq, dəhşətli hadisə ilə hər şeyi məhv edəcək ki, buna Qiyamət deyilir. İstədiyi vaxt yenidən Hz.İsrafil (ə.s)-a Sur adlı alətlə səs çıxartmağı əmr edəcək, yer yenidən var olub üzərinə yapışqan yağış yağdırılacaq. Bütün ölmüş insanlar yenidən diriləcək və "**Məhşər**" adlı yerdə toplanacaq. Hər insanın dünyada olduğu müddətdə etdiyi əməllər **Kiramən-katibin** mələkləri tərəfindən yazılı dəftərlər halında əlinə veriləcək. Əməlləri mizanda hesaba çəkiləcək. Bəzi insanlar Allahın rəhməti ilə **Cənnətə**, bəzi insanlar isə Allahın ədaləti ilə **Cəhənnəmə** girəcəklər. Cəhənnəm kafirlərin əbədi olaraq qalacağı, heç vaxt çıxa bilməyəcəyi, əzab diyarıdır. Cənnət isə inananların əbədi qalacağı, heç vaxt çıxa bilməyəcəyi, xoşbəxt yaşayacağı istirahət yurdudur.

Bundan başqa Qiyamət gününə qədər ölmüş insanların müvəqqəti qalacağı aləmin adı **Bərzəxtdir**. Başqa adla desək, **Qəbir Həyatıdır**. Bu aləmdə **Münkər** və **Nənkirin** sual-cavabı haqdır. Qəbir əzabı haqdır. Qəbir həyatı hər kəs üçün olacaqdır. İstər qəbirə qoyulsun, istər cəsədi yandırılsın, istərsədə dənizə qarışıb itsin fərq etməz, hər kəs qəbir həytını mənəvi aləmində görəcəkdir. Bu xüsusda Peyğəmbərimiz (s.a.v) bir hədisi şərifdə belə buyurur: "**Qəbir, ya cənnət baxçalarından bir baxça və ya cəhənnəm çuxurlarından bir çuxurdur.**" (Tirmizi, c. 7, səh. 174, № 2460)

Dəlilər və uşaq yaşda ölənlər üçün sual yoxdur. Çünki bunlar məsuliyyətli və sorumlu deyildirlər. Sorğusuz-sualsız cənnətə girəcəklər. Birdə Peyğəmbərlərin qəbir sorğusu yoxdur. Çünki ilahi əmrləri insanlara onlar bildirmişlər.

Qəbir həyatı, axirət həyatının başlanğıcı deməkdir. Cənnətlik olan adam qəbrində ikən cənnət həyatını, cəhhənnəmə gedəcək olanlarda cəhənnəm əzabının acısını az-çox qəbirdə dadmağa başlayarlar.

Qəbir həyatının dünya həyatı ilə ölçülməməsi lazımdır. Ölü necə qəbrində qalır, necə suallara cavab verir, cənnətin dadını və cəhənnəmin əzabını necə hiss edir kimi suallardan uzaq durmalıyıq.

Qiyamət günündə Sirat körpüsü haqdır. Kövsər hovuzu haqdır. Ümmətinə Peyğəmbərimiz (s.ə.v)-in şəfaəti haqdır.

Qiyamət gününə inanmaq imanın bir şərtidir. Qurani Kərimdə bu mövzuda yüzlərlə Ayət vardır. **Axirəti inkar edən kafir olur.**

## *AXİRƏT GÜNÜNÜN VARLIĞININ ƏQLİ DƏLİLİ NƏDİR ?*

Diri insanların yatmaq istəmələri, yatdıqdan sonra oyanmaları, təbiətin qışda ölməsi, yazda isə dirilməsi, sümük kimi ağacların dirilib yaşıllaşması, qupquru çöllərin yağışdan sonra göyərməsi, gündüzün ölüb gecə olması, səhərin yenidən dirilməsi və s. Bunun kimi bir çox hadisələr düşünən insanlar üçün **Axirət** gününün haqlığına dəlildir.

## *QİYAMƏTİN KİÇİK ƏLAMƏTLƏRİ*

Peyğəmbərimiz (s.a.v)-in hədislərindən çıxarılan hökümlərə görə bunlar qiyamətin kiçik əlamətlərini bildirir.

***1)*** Kişilər arvadlarına uyub, ana-atalarına üsyan edərlər,
***2)*** Güvənilən kimsələr çox azalar,
***3)*** Çalğı və oyun alətləri çox istifadə edilər,
***4)*** Böyük və yüksək binalar tikilər,
***5)*** Varlılara iltifat və etibar ediləcək, siminclik artacaq, zəkat vermək ağır bir borc olaraq görüləcək,
***6)*** Hər kəs qazana bilmədiyindən və keçinə bilmədiyindən şikayətçi olacaq,
***7)*** İnsanlarda sevgi və şəfqət azalacaq,
***8)*** Zina və livata çoxalacaq,
***9)*** Haram işləməyi asanlaşdıran imkanlar artacaq, gənclər günah içləməyə çox meyl edəcək, qadınlar işi azaldacaq,
***10)*** İbadətlər ayıb sayılacaq, ibadət edənlər xor görüləcək,
***11)*** Adam öldürmək və fitnə çoxalacaq,
***12)*** Bidətlər çoxalacaq,
***13)*** Hər küncdə zalım və zorbalar çoxalacaq,
***14)*** Günahlar yaxşı, ibadətlər pis göstəriləcək,
***15)*** Doğru danışanlar başdan qovulmağa çalışılacaq,
***16)*** Faizə normal alış-veriş deyiləcək, rüşvətdə hədiyə adı veriləcək,
***17)*** İnsanlar alimləri buraxıb cahillərə uyacaq,
***18)*** İmanı qəlbdə tutmaq, od közlərini ələ almaq kimi çətin olacaq,
***19)*** Sonradan gələn nəsillər öncəki keçmişlərinə söyəcəklər,
***20)*** Allahın kitabı Qurani Kərim ilə hököm etmək ayıb sayılacaq,
***21)*** Uca Allah apaçıq inkar ediləcək, hər kəs buna seyirçi olacaq,

***22)***Cahillik çox, elm isə az olacaq,
***23)***Tapşırıq əhli olmayanlara veriləcək,
***24)***İçki çox içiləcək, Uca Allaha küfr ediləcək,
***25)***Dini və elmi vəzifələr layiq omayanlara veriləcək,
***26)***Alimlər günah işləyənlərdən, ibadət edənlərdə cahillərdən olacaq.

## *QİYAMƏTİN BÖYÜK ƏLAMƏTLƏRİ*

1) **Hz.Mehdinin** ortaya çıxmasıdır,
2) Axır zamanda **Dəccalın** çıxmasıdır,
3) **İsa (ə.s)**-ın Şamın doğusunda ağ bir minarə üzərində enişidir,
4) **Yəcüc və Məcücün** çıxmasıdır,
5) **Dabbətul Ardın** çıxmasıidr,
6) Günəşin qərbdən doğmasıdır,
7) Yer üzünü dolduracaq bir dumanın çıxmasıdır,
8) **Adəndən** çıxan və insanları **Şama** göndərən bir atəşin çıxmasıdır. Gündüz durduqları yerdə durar, gecə də gecələdikləri yerdə gecələr,
9) Qurani Kərim və faydalı elmlərin sinə və göyüslərdən silinməsi və bütün yer üzündə olan insanların küfrə qayıtmalarıdır,
10) Habeşilərin əli ilə Kəbənin yıxılmasıdır,
11) Surun üfürülməsidir.

## *"VƏ BİL QADƏRİ- XAYRİHİ VƏ ŞƏRRİHİ MİNƏLLAHİ TƏALA" NƏ DEMƏKDİR ?*

Və (**inandım**) qədərə- xeyrin və şərin Allahu Təalanın yaratması ilə olduğuna. Bilmək lazımdır ki, Allah Təala xeyri bəyənib yaradıb. Xeyir əməllərin insanlar tərəfindən edilməsində razılığı var. Şəri isə bəyənmədən, insanların şəri istəmələri ilə, bu əməllərin insanlar tərəfindən edilməsinə razılığı olmadan yaradıb. İnsanı isə əməllərində azad xəlq edib. Səhv yola düşməməsi, şərli işlər işləməməsi üçün Peyğəmbərlər, kitablar və alimlər göndərib. Xeyri seçən insanlara imanlı və saleh qul olmaları üçün yardım edir. Şəri seçən qullara pis əməllərindəki israrına görə, onların istəyi ilə şəri yaradaraq, o kəsləri əməllərində azad edib. Bu əməlləri Peyğəmbərləri və kitabları vasitəsilə pisləyib, çəkinmələrini şiddətlə tövsiyə edib.

## *ŞƏRİ ŞEYTAN YARADA BİLƏRMİ ?*

Yaradıcı və xaliq yalnız Allahu Təaladır. ”**Şəri şeytan yaradıb**” desək, şeytan şərin tanrısı, Allah isə xeyrin tanrısı olan kimi məna çıxar. Şeytan isə şəri yaradan yox, şəri seçən və qullar arasında təlqin (təbliğ) edəndir. Yaradan ancaq Allahu Təaladır.

## *ALLAHU TƏALA ŞƏRİ YARATMASAYDI DAHA YAXŞI OLMAZMIYDI ?*

Allah şəri qulun istəyi ilə yaradıb. Qul isə əməllərində azaddır. Bu azadlığ onun əlindən alınsa, onda insan seçmə hüququnu itirdiyindən mələk, ya da heyvan kimi olardı. Adəm övladı şeytan və nəfsin aldatmalarına qulaq verməyib, Allahı və peyğəmbərləri dinləyib saleh əməllər etdikcə, nəinki şər əməllərdən, hətta bu fikirlərdən uzaqlaşar. Allahın sevimli qulu olaraq, Cənnətdə əbədi sakin olacaq kamil iman qazanar. Şeytan və nəfs olmasaydı, insanın məqamı sabit qalar, mələklərdəki kimi tərəqqi olmazdı.

Mələklər üçünsə zövq alacaqları əbədi cənnət həyatı yoxdur. Cənnət saleh əməllər görən mömin insanların evidir.

## *YUXARIDA QEYD OLUNAN İMANIN ƏRKANINA İNANMAYAN BİR İNSANIN DİNDƏKİ HÖKMÜ NƏDİR ?*

İmanın bu altı hökmünə inanmayan insan dindən çıxmış olar yəni imansız olar.

## *İMAN NEÇƏ NÖVDÜR ?*

**İman beş növdür:**

1) **İmani mətbu:** Bu iman Mələklərin imanıdır. Sonradan qazanılmayıb, əzəldən yaradılışlarının bir hissəsidir.
2) **İmani məsum:** Bu iman Peyğəmbərlərin imanıdır. Belə iman şeytandan mühafizə olunmuşdur.
3) **İmani məqbul:** Bu iman mömin qulların imanıdır. Möminlər iman edər, Allah isə qəbul edər.
4) **İmani məvquf:** Bu iman mübtədilərin imanıdır. Mübtədilər Peyğəmbərin (s.a.v) sünnətindən (**yolundan çıxmış bidətçi kimsələrdir**). Onların imanında tərəqqi olmayıb durdurulmuş imandır.
5) **İmani mərdud:** Rədd olunmuş iman. Bu iman münafiqlərin imanıdır. Onlar dildə inanıb qəlbdə inanmayan kimsələrdir.

## *İSLAM NƏDİR ?*

Kəlimə mənası təslim olmaq, itaət etmək, bağlanmaq, boyun əymək, salamatda olmaq kimi mənalara gəlir.

Termidə isə Hz.Muhamməd (s.a.v)-in Allahu Təaladan əməl etmək üçün gətirdiyi şeylərə **İslam** deyilir.

## *İSLAM DİNİ NEÇƏ ŞEY ÜZƏRİNƏ BİNA OLUB ?*

**İslam dini beş şey üzərinə bina olub:**

1) **Kəlmeyi Şəhadət**,
2) Hər gün beş vaxt **Namaz** qılmaq,
3) Ramazan **Orucunu** tutmaq,
4) Malın **Zəkatını** vermək,
5) Gücü yetənin **Hacc** ziyarətinə getəsi.

Göründüyü kimi, bunlar **İslamın** şərtlərinə inandıqdan sonra əməl edilməsi vacib olan qaydalardır.

## *İSLAMIN ŞƏRTİ OLAN BU İBADƏTLƏRİ NƏ ÜÇÜN ETMƏK LAZIMDIR ?*

Bizi yoxdan var edən və bizə saysız hesabsız nemətlər verən Allaha təşəkkür etmək üçün, imanımızın kamil qalması və ona ibadət etdikcə **CƏMALINA** yaxınlaşmaq üçün İslamın şərtlərini yerinə yetirərək Allaha ibadət etmək lazımdır. Hər bir mükəlləf müsəlman dini əmrləri yerinə yetirməli və onun qadağan etdiyi şeylərdən çəkinməlidir. İbadət, qulluq deməkdir. Allahu Təalaya hörmət və təzimdən ibarətdir.

## *İHSAN NƏDİR ?*

**İhsan:** Allahu Təalaya elə ibadət etməkdir ki, sanki sən onugörürsən. Hərçənd sən onu görmürsən, amma o səni görür.

## *BÖYÜK GÜNAHLAR NƏYƏ DEYİLİR VƏ HANSILARDIR ?*

**Tövbə etmədən bağışlanmayan günahlar böyük günahlardır, bəziləri bunlardır:**

**1.**Allaha (c.c) şərik qoşmaq, **2.**Nahaq yerə adam öldürmək, **3.**Ata-anaya asi olmaq, **4.**Faiz verib almaq, **5.**Yetim malını yemək, **6.**Xalqa əziyyət etmək, **7.**Qeybət etmək, **8.**Elm oxumağı özünə vacib bilməmək, **9.**Günahlarına görə Allahdan qorxmamaq, **10.**Allahın mərhəmətindən ümid kəsmək, **11.**Sözünün üstündə durmamaq, **12.**Möminlərə xainlik etmək, **13.**Kafirlərlə dostluq etmək, **14.**Namazı tərk etmək, **15.**Orucu tərk etmək, **16.**Zəkatı tərk etmək, **17.**Hacci tərk etmək, **18.**Yalan şahidlik etmək, **19.**Doğrunu bilib gizlətmək, **20.**Quranı unutmaq, **21.**Yalandan and içmək, **22.**Xalqa səcdə etmək, **23.**Cümə namazını tərk etmək, **24.**Oğurluq etmək, **25.**Zalımın dövlətlini təsdiq etmək, **26.**Zina etmək (**pozğun yola getmək**), **27.**Livatə etmək (**eş cinsəllik**), **28.**Qadına heyz vaxtında yaxın olmaq, **29.**Pak qadınlara iftira atmaq, **29.**Çalğı çalmaq və dinləmək, **30.**Xamr istifadə etmək (**alkoqollu içki, narkotik maddə və s.**), **31.**İçki və s. bunun kimi şeyləri istehsal etmək, daşımaq, satmaq, **32.**Qumar oynamaq, **33.**Dünyanı sevmək, **34.**Haram yemək, **35.**İnsanları təhqir etmək və alçaltmaq, **36.**Alimlərə, övliyalara hörmət etməmək, **37**.Fala baxmaq, **38.**sehr etmək, **39.**Bir müsəlman üçün bir və ya iki kafirin qabağından qaçmaq.

**Bu günahlar tövbə edilməsə, bağışlanmır. Bu əməlləri edən kafir olmur, amma asi olur. Tövbəsiz ölənə Allah istəsə, Axirətdə əzab edər istəsə, bağışlayar.**

## *HANSI ƏMƏLLƏR İNSANI KAFİR EDİR (DİNDƏN ÇIXARIR) ?*

1) İmanın və İslamın şərtlərini inkar edən kafir olur,
2) Allahın halal dediyinə haram, haram deddiyinə halal desə, kafir olur. Məsələn: **Alkoqollu içkilər halaldır, zina halaldır və halal heyvan üçün haram desə kafir olur**,
3) Oğrudan oğruya halaldır desə kafir olur,
4) Bir müsəlman o biri müsəlmana kafir desə kafir olur."**Mən səndən də kafirəm**" desə kafir olur,
5) Nahaq iş edən adama "**Allahdan qorx**" deyilsə o da "**qorxmuram**" desə, kafir olur,
6) Bir adam haram qazansa və ya yesə, "**bu iş olmaz**" deyilsə, o da "**bu mənə halaldır**" desə, kafir olur,
7) Bir adam eləmədiyi bir iş üçün "**Allah bilir ki, eləmişəm**" desə, kafir olur,

8) Bir adam “**mən bilmirəm müsəlmanam yoxsa kafirəm**” desə, kafir olur,
9) Bir adam “**mənim üçün fərqi yoxdur, müsəlmanla kafir birdir**” desə, kafir olur,
10) Biri dinin əleyhinə bir söz desə, başqası da buna qulaq asıb gülsə, hər ikisi kafir olur,
11) Bir adam haram işlərkən, məsələn: **İçki içsə, zina etsə, oğurluq etsə, haram yesə və bu işə başlarkən “Bismillah” desə, kafir olur**,
12) Örtülü qadının hicabını pis bir şey kimi açdırsa, kafir olur,
13) İçki içən, pak qadınlara böhtan atan, günah edən adamlara nəsihət edən adamı lağa qoyan kafir olur,
14) Bir adam “**namazdan, orucdan mənə pul yaxşıdır**” desə, kafir olur,
15) Bir adam alimə və ya seyidə alçaldıcı bir söz desə, kafir olur,
16) Bir qeyri-müsəlman müsəlmana desə ki, “**mən müsəlman olmaq istəyirəm**” o da desə ki, “**mən bilmirəm, get molladan soruş**” kafir olur,
17) Bir adam “**mən halal-haram bilmirəm**” desə, kafir olur,
18) Bir adam desə ki, “**indi hamı kafirdir, artıq din yoxdur**” kafir olur,

Belə sözlər, əməllər çoxdur. Biz müxtəsər yazdıq ki, özümüzü bu kimi əməllərdən qoruyaq,

## *ALLAHIN HEÇ BAĞIŞLAMAYACAĞI GÜNAH HANSIDIR ?*

Allah Təalanın heç bağışlamayacağı günah şirk və qul haqqıdır.

**Şirk:** Əziz və Cəlil olan Allaha şərik qoşmaqdır.

**Qul haqqı:** Bir kimsə dinin əmrlərini yerinə yetirməsə, qadağanlarından çəkinməsə, Allah Təala istəsə, o qula əzab edər, istəsə əfv edər. Lakin başqa qulu aldadan, haqqını kəsən, təhqir edən, valideyninin, qonşusunun, dostunun, xalqın, dövlətin haqqına girən bir kimsəni Allah əfv etməz, taki əks tərəf əfv etmədikcə. Buna “**qul haqqı**” deyilir.

## *Mükəlləf*

Mükəlləf, məsul deməkdir. (Yəni, bir işdən məsul olan şəxs üçün istifadə olunan kəliməyə "mükəlləf" deyilir.) Ağıllı, buluğ çağına çatan Allahın əmr və qadağalarıyla məsul müsəlmanlara "mükəlləf" deyilir. Mükəlləf, Allahın ona əmr etdiyini etməklə, qadağan etdiyindən də çəkinməklə vəzifəlidir.[1]

**Mükəlləf olmanın şərtləri üçdür:**

1) **Müsəlman olmaq,**
2) **Ağıllı olmaq:** Ağıl xəstələri, dəlilər mükəlləf deyil. Çünki, bunlar yaxşı ilə pisi bir-birindən ayıra bilməzlər,
3) **Buluğ (yetkinlik) çağına gəlmək:** Yetkinlik, hər bir adamın öz cinsiyyətini və şəxsiyyətini bilməsi deməkdir. O çağ kişilərdə 12-15, qadınlarda 9-15 yaş arasıdır.
   On beş yaşa gəldikdə, yetkinlik çağına girməyən qadın və kişilər İslamın əmrləriylə vəzifəli olar və mükəlləf hökmünə girər.

## *Əfali Mükəlləfin (Mükəlləfin Feilləri)*

Mükəlləfin feilləri beşdir: Fərz, sünnət, mübah, məkruh, haram.

**Fərz:** Allahın mükəlləfdən mütləq bir şəkildə etməsini istədiyi hökümlərdir. Məsələn, "Namaz qılın, Oruc tutun, ana-ataya itaət edin." kimi əmrlər. Fərzin tərki haramdır. Fərz olan bir əməl işləndiyində savab verilir amma üzürsüz yerə tərk edildiyində Allahın əzabı vardır. Fərzi inkar edən bir kimsə dindən çıxar (kafir olar).

**Fərz iki yerə ayrılır:**

1) **Fərzi Ayn:** Mükəlləf olan şəxslərdən hər birinin etməsi lazım olan əmrlərdir. Namaz qılmaq və Oruc tutmaq kimi. Bu ibadətlər hər bir mükəlləf üçün bizzat fərzdir. Bəzi mükəlləflərin etməsiylə digərlərinin üzərindən o hökm qalxmaz.
2) **Fərzi Kifayə:** Mükəlləf şəxslərdən bəzilərinin etməsiylə digərlərinin üzərindən düşən və hərkəsin etməsi məcburi olmayan fərzlərdir. Məsələn, cənazə namazını bir və ya bir neçə nəfər qılarsa kifayət edir. Qılanlar mükafatını alar. Qılmayanlar isə, hər-hansı bir mükafat almaz və ya cəza da görməzlər. Amma bir ölünün cənazə namazı qılınmazsa, toplumun hamısı Allah nəzərində günahkardır.[2]

**Sünnət:** Peyğəmbərimiz Hz. Muhammədin (s.a.v) söz, feil və ya təqrirləridir (yəni təsdiq yoluyla meydana gələn şeylər). Məsələn, beş vaxt namaz ilə bərabər qılınan sünnətlər, təravih namazı, azan, qamət kimi. Sünnətlərin işlənməsində savab vardır.

---

[1] İbn Qasımın Şərhinin Mətni (Dəlilləriylə Şafii Elmihalı)

[2] İbn Qasımın Şərhinin Mətni (Dəlilləriylə Şafii Elmihalı)

Sünnətləri tərk etməyi adət halına gətirənlər Peyğəmbərimizin (s.a.v) şəfaətindən məhrum qalarlar[3].

Sünnət Qurani Kərimdən sonra ikinci qaynaqdır. Sünnət hədisi şərifdə yol və cığır kimi istifadə edilmişdir[4]. Sünnət eyni zamanda bidət və dəlalət əleyhinə də istifadə edilir. Sünnətin təməl qaynağı vəhydir[5].

**Sünnət, Müəkkəd və Ğayri Müəkkəd deyə iki qismə ayrılır:**

1) **Sünnəti Müəkkəd:** Allah Rasulu (s.a.v) bəzən tərk etsə də özəlliklə üstündə durduğu əməllərdir. Bunun kimi sünnətləri tərk edən cəzanı haqq etmir amma danlanmağa layiq olur. Məsələn, namazınların içində işlənən bəzi sünnətlər və fərz ibadətlərlə birlikdə edilən bəzi sünnətlər kimi.
2) **Sünnəti Ğayri Müəkkəd:** Peyğəmbərimizin (s.a.v) tez-tez etməyib, çox vaxt tərk etdiyi əməllərdir. Bu sünnətə müstəhəb və ya məndub da deyilə bilər. Məsələn, ikindi və işa namazından əvvəl qılınan dörd rükətlik sünnətlər, təravih namazının səkkizdən artıq qılınan sünnətləri və zöhr namazının ilk iki sünnəti kimi.[6]

**Mübah:** Sevilən və xoşa gəlinən şeylərdir. Edilməsi dində əmr edilmədiyi halda şəriətdə qəbul edilən şeylərdir[7]. Başqa bir təriflə desək, edilməsində savab, tərk edilməsində isə günah olmayan şeylərdir[8]. Yemək, içmək, oturmaq, qalxmaq kimi. Bu əməllərin edilməsində savab olmadığı kimi, tərk edilməsində də günah yoxdur. Dahada açıqlayacaq olsaq, bu şəkildə izah etmək olar: Müsəlmanların edib-etməmələri üçün hər hansısa bir əmr və qadağa olmayan, sərbəst buraxılan feillərə mübah deyilir. Caiz (icazəli) və halal da bu mənadadır. Əşyada əsas olan halal olmasıdır. Haqqında qadağan edici bir hökm olmayan yeyəcək, içəcək və geyim kimi.[9]

**Məkruh:** Haram qədər dəqiq olmayan qadağalardır[10]. Başqa bir ifadəyləysə, istənilməyən (xoş görülməyən) və uyğun olmayan şeylərdir[11]. Daha da açıqlayacaq olsaq bu şəkildə deyə bilərik: Edilməsi edilməməsindən gözəl olan şeydir. Yəni Allah

---

[3] Hədisi Şərif: "Sünnətimi tərk edən məndən deyildir." (Buxari, Nigah, 1), İbn Qasımın Şərhinin Mətni (Dəlilləriylə Şafii Elmihalı).

[4] Hədisi şərif: "Hər kim İslamda gözəl bir sünnət (yol) açarsa, onun və ondan sonra onunla əməl edən kimsələrin savabı qədər o gözəl yolu açana gedər. Hər kim də pis bir sünnət (yol) açarsa onun və ondan sonra bununla əməl edənlərin günahı qədər o pis yolu açana gedər." (Müslim), Molla Fəxrəddin Şəkər: Şafii Məzhəbinə Görə İslam Elmihalı.

[5] Allahu Təala Qurani Kərimində belə buyurur: "O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir." (Nəcm, 3-4), Molla Fəxrəddin Şəkər: Şafii Məzhəbinə Görə İslam Elmihalı

[6] Molla Fəxrəddin Şəkər: Şafii Məzhəbinə Görə İslam Elmihalı

[7] Molla Fəxrəddin Şəkər: Şafii Məzhəbinə Görə İslam Elmihalı

[8] Ömər Abdulcəbbar: Təqribul Fiqhiş-Şafii (Şafii Elmihalı)

[9] Molla Fəxrəddin Şəkər: Şafii Məzhəbinə Görə İslam Elmihalı

[10] İbn Qasımın Şərhinin Mətni (Dəlilləriylə Şafii Elmihalı)

[11] Ömər Abdulcəbbar: Təqribul Fiqhiş-Şafii (Şafii Elmihalı)

Rasulu (s.a.v) tərəfindən edilməsi üçün qadağan edici dəqiq bir dəlil olmayan feil və davranışlara məkruh deyilir.[12]

**Haram:** Mükəlləfdən edilməməsi istənilən və qəti bir dəlil ilə sabit olan şəriət hökümləridir. Məsələn, "Adam öldürməyin, içki içməyin, fəsadlıq çıxarmayın" kimi[13]. Başqa bir ifadəylə, Allahu Təalanın qadağan etdiyi şeylərdir[14].

[12] Molla Fəxrəddin Şəkər: Şafii Məzhəbinə Görə İslam Elmihalı

[13] İbn Qasımın Şərhinin Mətni (Dəlilləriylə Şafii Elmihalı)

[14] Ömər Abdulcəbbar: Təqribul Fiqhiş-Şafii (Şafii Elmihalı)

# TƏMİZLİK

## *Xəlada Təmizlik Qaydaları*

*Böyük və kiçik tualet ehtiyacından sonra təmizlənmək vacibdir. Gözəl olan, öncə daşlarla və arxasından sudan istifadə edərək təmizlənməkdir. Yalnız su ilə təmizlənmək caiz olduğu kimi, "nəcis olan yeri təmizləyə bilən" yalnız üç daş ilə də istinca edərək təmizlənmək caizdir. İkisindən birisini ixtisar etmək istəsə, suyu işlətmək daha gözəldir.*[15]

***Böyük və kiçik tualet ehtiyacını görən kimsə aşağıda ki əməllərdən qaçınar:***

*Səhra kimi (qapalı olmayan yerlərdə) Qibləyə yönəlməkdən və ya ona arxasını dönməkdən,*[16]

*Durğun suda böyük və kiçik tualet ehtiyacını görməkdən,*[17]

*Meyvə verən ağacların altına ...,*

---

[15] Buxari (149) və Müslim (271), Ənəs bin Malik (r.a)-dan rəvayət edir. Ənəs (r.a) dedi ki: "Peyğəmbər (s.a.v), ayaqyoluna çıxdığında mən və bir uşaq (onun üçün) bir qab su və (üzərinə dəmir çəkilmiş) əsa aparardıq. (Hz. Peyğəmbər (s.a.v) su ilə yuyunardı." Buxari (155) və başqası İbn Məsud (r.a)-dan rəvayət edir. İbn Məsud (r.a) dedi mi: "Peyğəmbər (s.a.v), təbii ehtiyacını dəf etmək üçün bir yerə gəldi və mənə üç daş gətirməyi əmr etdi." Əbu Davud (40) və başqası, Aişə (r.a)-dan rəvayət edirlər. Aişə (r.a) dedi ki: Peyğəmbər (s.a.v) belə buyurdu: "Sizlərdən biri ayaqyoluna çıxdıqda təmizlənmək üçün özü ilə üç daş götürsün! Bu daşlar ona kifayət edər."

Əbu Davud (44), Tirmizi (3099) və İbn Macə (357), Əbu Hureyrə (r.a)-dən rəvayət edirlər. Əbu Hureyrə (r.a), Peyğəmbər (s.a.v)-dən rəvayət etdiyinə görə belə buyurdu: "Bu ayə Quba əhli üçün nazil olmuşdur; "Orada paklanmağı sevən kişilər vardır. Allah pakları sevər. (Tövbə/108)" Əbu Hureyrə (r.a) dedi ki: "Onlar su ilə təmizlənirdilər və bu ayə onlara görə nazil oldu."

[16] Buxari (386) və Müslim (264), Əbu Eyyub əl-Ənsari (r.a)-dan, o da Peyğəmbər (s.a.v)-dən rəvayət edir: "Ayaq yoluna çıxdıqda nə önünüzü, nə də arxanızı qibləyə çevirməyin! Ya şərqə, ya da qərbə tərəf durun!" Bu hədis, səhra və ya qapalı olmayan məkanlara məxsusdur və bunun dəlili budur. Buxari (148), Müslim (226) və başqası İbn Ömər (r.a)-dan belə rəvayət edir: "Bəzi ehtiyacıma görə (bacım) Həfsə (r.a)-nın evinin damına çıxmışdım. Hz. Peyğəmbəri (s.a.v) arxasi qibləyə, önü Şama doğru olduğu halda təbii ehtiyacını dəf etdiyini gördüm." Yuxarıda keçən iki hədis bir-birinə zidd kimi görünsə də, aralarında zidlik yoxdur. Birinci hədis ayaqyolu ehtiyacını görmək üçün nəzərdə tutulmayan və onun kimi qapalı olmayan məkanlara aid olduğu halda, ikinci hədis ayaqyolu üçün nəzərdə tutulan və onun kimi qapalı olan məkanlara aiddir.

[17] Müslim (281) və başqası, Cabir (r.a)-dan rəvayət edir: "Peyğəmbər (s.a.v) durğun (axmayan) suda kiçik tualet ehtiyacını görməyi qadağan etdi." Bu hədisdə sadəcə kiçik tualet ehtiyacından söz edilsədə, böyük tualet ehtiyacı daha çirkin olduğu üçün onunda qadağan olması daha münasibdir. Bu qadağan məkruhluq ifadə edər. İmam Nəvəvidən, "Haramı ifadə etdiyi" nəql olunmuşdur.(Müslimin şərhi: 3/187)

*Yollarda və kölgəlik olan yerlərdə...,*[18]
*Yerdəki dəlik və yarıqlara...,*[19]
*Tualet ehtiyacını görərkən danışmaqdan,*[20]
*Günəşə və ya aya yönəlməkdən və ya arxasını dönməkdən.*[21]

## *Dəstəmazın fərzləri*

***Dəstəmazın fərzləri 6 - dır:***

*Üzü yuyarkən dəstəmaz almağa niyyət etmək,*
*Üzü yumaq,*
*Dirsəklərlə bərabər hər iki əli yumaq,*
*Başın bir qismini məsh etmək,*
*Topuqlarla bərabər ayaqları yumaq,*
*Fərzləri bu sıralamaya uyğun yerinə gətirmək. Yəni, Tərtibə uymaq*[22].

---

[18] Müslim (269) və başqası, Əbu-Hureyrə (r.a)-dan belə rəvayət edir. Peyğəmbər (s.a.v), "Çox lənət gətirən iki şeydən qorxun" buyurdu. Onlar: "Ey Allahın Elçisi, çox lənət gətirən bu iki şey nədir ?" deyə soruşdular. Peyğəmbər (s.a.v), onlara belə cavab verdi.: "İnsanların yoluna və kölgələndiyi yerdə ayaqyoluna çıxmaq."

[19] Əbu-Davud (29) və başqası, Abdullah bin Sərcəs (r.a)-dan rəvayət etdiyinə görə belə dedi; "Peyğəmbər (s.a.v), yerdəki, dəliklərə yüngül işə çıxmağı qadağan etdi."

[20] Müslim (370) və başqası İbn Ömər (r.a)-dan belə rəvayət edir: "Biri yoldan keçərkən, Peyğəmbər (s.a.v)-i yüngül işə çıxarkən gördü və bu arada Peyğəmbər (s.a.v)-ə salam verdi. Ancaq Peyğəmbər (s.a.v) onun salamına qarşılıq vermədi." Əbu Davud (15) və başqası Əbu Səid (r.a)-ın Peyğəmbər (s.a.v)-dən belə eşitdiyini rəvayət edirlər: "İki adam ayaqyolu ehtiyacını görmək üçün övrət yerlərini açıb danışaraq çıxmasın. Həqiqətən Allah, bu əmələ qəzəb edər."

[21] İmam Nəvəvi, *əl-Məcmu (1/103)* adlı kitabında deyir ki: "Bu mövzu ilə əlaqədar olan hədis zəifdir, hətta batildir. Məşhur və səhih olan budur ki, günəş və aya yönəlmək məkruh, arxasını dönmək isə məkruh deyildir." Xatib, *əl-İqna* (1/46) adlı kitabında "Mötəməd (sağlam) olan görüş budur" deyir.

[22] Dəstəmazın məşru olması və fərzlərinin bəyanı xüsusunda dəlil, bu ayəti kərimədir: "Ey iman edənlər, namaza qalxmaq istədiyiniz zaman üzlərinizi, dirsəklərlə bərabər əllərinizi yuyun, başınızı məsh edin və ayaqlarınızı da topuqlara qədər yuyun." (Maidə/6) Müslim (246) dəstəmazın necə alınacağına dair Əbu Hureyrə (r.a)-dan bunu rəvayət edir. "Əbu Hureyrə (r.a) dəstəmaz alarkən üzünü yudu və suyu üzün hər bir yerinə tam şəkildə çatdırdı. Sonra sağ əlini bazusu da daxil yudu. Sonra sol əlini bazusu da daxil yudu. Sonra başına məsh çəkdi. Sonra sağ ayağını baldırıda daxil yudu. Sonra sol ayağını baldırı da daxil yudu və belə dedi: Allah Rasulunu (s.a.v) belə dəstəmaz aldığını gördüm."

Başın bir qismini məsh etməyin yetərli olduğuna dair dəlil, İmam Müslimin (274) Muğira bin Şöbə (r.a)-dan rəvayət etdiyi hədisdir. "... Peyğəmbər (s.a.v), dəstəmaz alarkən alnına (kəkilinə) və əmmaməsinin üzərinə məsh etdi." Peyğəmbər (s.a.v)-in alnına (kəkilinə) məsh

## *Dəstəmazın sünnətləri*

***Dəstəmazın sünnətləri 10 – dur:***

1. *Dəstəmaza başlayarkən "Bismilləh" deməkˆ[23],*
2. *(Ağzı açıq olan bir qabdan əli ilə su alacaqsa) Batırmadan əvvəl əllərini yumaq,*
3. *(Ağıza su verərək) Mazmaza, və (Buruna su verərək) İstinşaq etmək,*
4. *Başın tamamını məsh etmək[24],*
5. *Qulaqların içini və çölünü yeni bir su ilə məsh etmək[25],*

---

etməklə qane olması, məshin fərz olan miqdarın başın bir hissəsinin olduğuna dəlildir. Başın hər hansı bir hissəsinə məsh etməklə fərz yerinə gəlmiş olar.

Dəstəmazın əvvəlində və həmçinin niyyətin tələb olunduğu hər yerdə niyyətin olduğuna dəlil, Buxari (1) və Müslimin (1907) Ömər bin Xəttab (r.a)-dan rəvayət etdikləri bu hədisdir. Ömər (r.a) dedi ki: Peyğəmbər (s.a.v)-in belə buyurduğunu eşitdim: "Əməllər ancaq niyyətlərə görədir." Yəni, Şər`ən əməllər, ancaq niyyət edildiyi zaman sayılır.

Dəstəmazda tərtibin fərz olduğuna dair dəlil, yuxarıda Əbu Hureyrə (r.a)-dan rəvayət olunan hədis və başqa səhih hədislərlə sabit olan Peyğəmbər (s.a.v)-in dəstəmaz alma şəklidir. Imam Nəvəvi, əl-Məcmu (1/484) adlı kitabında belə deyir: "Şafii alimləri, Peyğəmbər (s.a.v)-in dəstəmazının necəliyi haqqında Səhabə camaatından gələn səhih hədislər ilə dəlil gətirmişdir. Bu səhabələrin tamamı Peyğəmbər (s.a.v)-in tərtiblə dastəmaz aldığını ifadə etmişdilər.

Səhabələrin çoxluğu və Peyğəmbər (s.a.v)-in dəstəmaz alarkən çox görmələri və bir dəfə, iki dəfə və ya üç dəfə yuyulacağına dair dəstəmazın necəliyində ixtilafların çox olması ilə bərabər, Peyğəmbər (s.a.v)-in tərtibsiz dəstəmaz aldığı sabit olmamışdır. Peyğəmbər (s.a.v)-in bu şəkildə dəstəmaz alması, Qurani Kərimdə əmr olunan dəstəmazın açıqlamasıdır. Əgər tərtibin tərk edilməsi caiz olsaydı, caiz olduğunun bilinməsi üçün Peyğəmbər (s.a.v) bəzi hallarda tərtibə riayət etməyi tərk edərdi. Necə ki, dəstəmaz əzalarını bəzi vaxtlarda bir, bəzi vaxtlarda iki, bəzi vaxtlarda da üç dəfə yuyardı.

[23] Nəsai (1/61) Ənəs (r.a)-dan bunu rəvayət edir: Ənəs (r.a) dedi ki: "Peyğəmbər (s.a.v)-in bəzi Səhabələri dəstəmaz almaq üçün su axtardılar, amma tapmadılar. Allah rasulu (s.a.v), "Sizdən birinizdə su varmı? "deyə soruşdu. Bu arada biraz su gətirildi. Peyğəmbər (s.a.v), içində suyun olduğu qaba əlini qoydu və belə dedi: "Allahın adı ilə dəstəmaz alın." Bu arada Peyğəmbər (s.a.v)-in barmaqlarının arasından suyun fışqırdığını gördüm. Hətta yetmiş kişiyə yaxın adam o sudan dəstəmaz aldı.

[24] Yuxarıda keçən dəstəmazın dörd sünnətinin dəlili, Buxari (183) və Müslimin (235) Abdullah bin Zeyd (r.a)-dan rəvayət etdiyi bu hədisdir. "Ondan Peyğəmbər (s.a.v)-in necə dəstəmaz aldığı soruşuldu. Oda bir qab su istədi və orada olanlara Peyğəmbər (s.a.v)-in dəstəmazını, dəstəmaz alaraq göstərdi. Öncə qabdan su tökərək əllərini üç dəfə yudu. Sonra əlini suya salaraq, ovucu ilə üç dəfə ağzına və burnuna su alıb təmizlədi. Sonra əlini suya salaraq üç dəfə üzünü yudu. Sonra əllərini dirsəklərə qədər iki dəfə yudu. Sonra əlini suya salaraq başına məsh etdi. əllərini bir dəfə önə və arxaya gəzdirdi. Sonra topuqlara qədər ayaqlarını yudu."

[25] Tirmizi (36) İbn Abbas (r.a)-dan bunu rəvayət edir. "Peyğəmbər (s.a.v), başını və qulaqlarının içini və çölünü məsh etdi. Nəsainin (1/74) rəvayətində isə belə keçir: "Başına və qulaqlarına

6. *Sıx olan saqqalını xilallamaq*[26]*,*
7. *Əl və ayaq barmaqlarının arasını ovmaq*[27]*,*
8. *Sağ organları sol organlardan öncə yumaq*[28]*,*
9. *Dəstəmaz orqanlarını üç dəfə yumaq*[29]
10. *Orqanları ard-arda (ara vermədən) yumaq*[30]

**FAYDA:** Dəstəmazdan sonra bu duanın oxunması müstəhəbdir;

**أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ: اللَّهُمَّ اجْعَلْنِي مِنْ التَّوَّابِينَ، وَاجْعَلْنِي سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا أَنْتَ أَسْتَغْفِرُك وَأَتُوبُ إِلَيْك مِنْ الْمُتَطَهِّرِينَ،**

***Əşhədu əlləə iləəhə illəllàhu vəhdəhù ləə şərìkə ləhù, və əşhədu ənnə Muhammədən abduhù və rasùlù. Allàhumməc-alnì minə't-təvvàbìn, vəc'alnì minə'l-mutətahhirìn. Subhànəkə-llahummə və bi'həmdikə, əşhədu əl'ləə iləəhə illəə əntə əstəğfirukə və ətùbu iləykə.***

*"Şahidlik edirəm ki, Allahdan başqa İlah yoxdur-təkdir, ortağı yoxdur. Və yenə şahidlik edirəm ki, Muhamməd (s.a.v), Onun qulu və elçisidir. Allahım! Məni çox tövbə edənlərdən və məni təmizlənənlərdən et. Səni hər cür nöqsanlıqdan tənzih edir və Sənə*

---

məsh etdi. Qulaqlarının içini şəhadət barmağı ilə, çölünüdə baş barmaqları ilə ..." Hakimin (1/151), Peyğəmbər (s.a.v)-in dəstəmazı xüsusunda Abdullah bin Zeyddən belə rəvayət edir: "Peyğəmbər (s.a.v) dəstəmaz alarkən qulaqlarını, başına məsh etdiyi suyun xaricində, yeni bir su ilə məsh etdi." Hafiz Zəhəbi "Bu hədis səhihdir" deyir.

[26] Əbu Davud (145), Ənəs (r.a)-dan rəvayət edir: "Peyğəmbər (s.a.v) dəstəmaz aldığı zaman bir ovuc su götürər, çənəsinin altına salaraq saqqalının arasını yuyar və belə buyurardı: "İzzət və Cəlal Sahibi Rəbbim mənə belə əmr etdi!"

[27] Əbu Davud, Laqit bin Sabra (r.a)-dan rəvayət edir. Laqit (r.a) dedi ki: "Mən, Ey Allahın Rasulu, mənə dəstəmaz haqqında xəbər ver" dedim. O da (s.a.v), "gözəl dəstəmaz al, barmaqlarının arasını hilalla və oruclu deyilsənsə, burnuna yaxşıca su çəkib təmizlə" buyurdu."

[28] Buxari (140) İbn Abbas (r.a)-dan rəvayət edir: "İbn Abbas (r.a) dəstəmaz aldı. (Belə ki,) ... Sonra bir ovuc su aldı və onunla sağ əlini (qolunu) yudu. Sonra bir ovuc su aldı və onunla sol əlini (qolunu) yudu. Sonra da (əlini su ilə isladaraq) başını məsh etdi. Sonra sudan bir ovuc da aldı və az-az axıdaraq sağ ayağını yudu. Sonra bir ovuc da su aldı və sol ayağını yudu. Sonra belə dedi: Hz. Peyğəmbəri (s.a.v) bax belə dəstəmaz alarkən gördüm."

[29] Müslim (230), Osman (r.a)-dan rəvayət edir: "Osman (r.h) Sizə Allah rasulunun necə dəstəmaz aldığını göstərim mi ? dedikdən sonra, dəstəmaz organlarını üç dəfə yuyaraq dəstəmaz aldı."

[30] Yəni, adətən yuyulan organın suyu qurumadan digər organı yumaq. Bunun dəlili, yuxarıda keçən hədislərdə məlum olan ardıcıllığ (a riayət olunması və arada fasilənin olmamasıdır).

*həmd edirəm. Allahım! Şahidlik edirəm ki, Səndən başqa İlah yoxdur. Səndən günahlarımın bağışlanmasını diləyir və sənə tövbə edirəm."*

Bu duanın tamamı Müslim (234), Tirmizi (55) və Nəsainin "gündüz və gecə əməlləri" haqqında rəvayət etdikləri hədislərdə keçir.

## *Misvak*

*Hər halda (hər zaman, hər yerdə) misvak işlətmək müstəhəbdir[31]. Ancaq oruclu kimsə üçün, zəvaldan (günəş səmanın tam ortasına gəlib, qərbə doğru meyil etdikdən) sonra müstəhəb deyildir[32].*

*Misvak, üç yerdə daha çox müstəhəbdir:*

*Uzun zaman danışmamaq və başqa səbəblərdən dolayı ağız qoxusunun dəyişdiyi zaman[33].*
*Yuxudan qalxdığı zaman[34].*
*Namaza duracağı zaman[35]*

---

[31] Nəsai (1/10) və başqası, Hz Aişə (r.anha)-dan bu hədisi rəvayət edirlər: Peyğəmbər (s.a.v) buyurdu: "Misvak, ağız üçün təmizlik, Rəbb üçün razı etmə vəsiləsidir."

Misvak, dişlərin ovalandığı alətə deyilir. Dişləri təmizləyə bilən hər sərt şeyi işlətməklə sünnət yerinə gəlmiş olar. Ancaq "misvak" deyə bilinən Ərak ağacının çubuğu daha gözəldir.

[32] Buna dair dəlil, Buxari (1795) və Müslimin (1151) Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyi bu hədisdir. Peyğəmbər (s.a.v) buyurdu: "And olsun ki, oruclu kimsənin ağız qoxusu, Allah qatında misk qoxusundan daha gözəldir." Misvak istifadə etmək ağız qoxusunu kəsdiyi üçün, zəvaldan sonra oruclu kimsənin misvak istifadə etməsi müstəhəb görülməmişdir. Əksinə məkruh görülmüşdür.

[33] Çünki, ağız qoxusu uzun zaman sükut etmək və ya yemək-içməyi tərk etmək və pis qoxulu şeyləri yemək kimi başqa səbəblərdən dolayı meydana gəlir ki, misvak istifadə etməklə o qoxu yox olar.

[34] Buxari (242) və Müslim (255) və başqası Huzeyfə (r.a)-dan rəvayət edirlər: Huzeyfə (r.a) buyurdu ki: "Peyğəmbər (s.a.v) gecə qalxdığında (mübarək) ağzını misvak ilə fırçalayıb təmizləyərdi."

[35] Həmçinin dəstəmaz alacağı zaman da misvak istifadə edərdi. Bunun dəlili, Buxari (847) və Müslimin (252) və başqasının Əbu Hureyrə (r.a)-dan rəvayət etdikləri bu hədisdir. Peyğəmbər (s.a.v) buyurdu: "Əgər ümmətimə çətinlik yaratmasaydım, hər namaz anında onlara misvak işlətməyi əmr edərdim." İmam Əhməd bin Hənbəlin (6/325) bir rəvayətində,"Hər dəstəmazla bərabər misvakdan istifadə etməyi əmr edərdim," şəklində keçir. Bu hədis, misvak istifadə etməyin müəkkəd bir müstəhəb olduğunu ifadə edir.

## *FƏRZİ VƏ SÜNNƏSİYLƏ DƏSTƏMAZ ALMANIN QAYDASI*

### *Əllərin yuyulması*

Dəstəmaz almağa bəsmələ[36] ilə başlanır. Bəsmələnin ardından “niyyət etdim dəstəmaz almağa” deyərək niyyət edilir və əllər biləklərə qədər 3 dəfə yuyulur[37]. Əllər yuyularkən bir əlin barmaqları digər əlin barmaqları arasına keçirilərək xilalanır[38].





[36]Hədisi şərif: "Allahın adını anaraq dəstəmaz alın. (Nəsai, Təharət, l, 61; İbn Huzeyme, 144)"

[37]Hədisi şərif: "Sizdən biri yuxudan qalxdığı zaman əlini üç dəfə yumadan əvvəl su qabına salmasın. Çünki əlinin harda gecələdiyini bilmir. (Buxari, Vudu, 162; Müslim, Təharət, 641)"

[38]Hədisi şərif: "Dəstəmazı tam al, barmaqlarının arasını xilala və oruclu deyilsənsə, burnunu bol su ilə təmizlə." (Əbu Davud, 142. Tirmizi, 788 və başqa mühəddislər)

## *Dişləri misvaklamaq*

Əllər yuyulduqdan sonra dişlər xaricindən və içindən eninə [39] doğru misvaklanır [40]. Amma oruclu olan kimsənin zəvaldan (günortadan) sonra dişlərini misvaklaması məkruhdur[41].



[39] Hədisi şərif: "Dişlərinizi misvaklayacağınız zaman eninə misvaklayın. (İbn Həcər, Təlxisul Xabir, I, 65.)"

[40] Hədisi şərif: "Ümmətimə çətinlik yaratmayacağını bilsəm onlara hər dəstəmazda dişlərini təmizləmələrini (misvaklamalarını) əmr edərdim." (Buxari, 847. Müslim, 252. (Əbu Hüreyrədən))

[41] Hədisi şərif: Oruclunun ağız qoxusu Allah qatında müşk qoxusundan daha gözəldir. (Buxari, Savm, 1904. Müslim, Siyam, 2700)"

## *Ağıza və buruna su vermək*

Sonra isə, ağıza və burna sağ əl ilə ayrı-ayrı 3 dəfə su verilir. Ağız çalxalanır burundan isə su geri çəkilir[42].





[42]Hədisi şərif: "Sizdən hər kim ki, dəstəmaz qabını yaxınlaşdırıb ağzını çalxalayar. Burnuna su çəkərək sümkürərsə, ağız və burun boşluğu ilə etdiyi xətalar su ilə birlikdə tökülər." (Müslim, Salatul Müsafirin, 1927)

## *Üzün yuyulması*

Dəstəmazın fərzinə niyyət[43] edərək 3 dəfə üz yuyulur[44]. Niyyətin forması isə, bu şəkildədir: "Niyyət etdim dəstəmaz almağa, qılacağım namazları özümə mübah qılmaqdan ötrü, Allah rizası üçün." Üz iki qulaq yumşağı ilə saçın bittiyi yerdən çənə altına qədər yuyulur[45]. Əgər saqqal varsa, tüklərin arası xilalanır[46].



[43]Hədisi şərif: "Əməllər ancaq niyyətlərə görədir." (Buxari, Bədül Vahiy, 1; Müslim, İmarə, 4094)

[44]Uca Allah məalən belə buyurur: "Üzlərinizi yuyun." (Maidə, 6)
[45]Üz, Saç bitimindən alt çənənin dibinə və iki qulaq arasına qədər olan qisimdir. (Xətibi Şirbini: Muğnil Muhtac)

[46] Hədisi şərif: "Hz.Peyğəmbərin (s.a.v) saqqallarının arasına barmağlarını soxduğu söylənilmişdir." (Tirmizi, Təharət, 31)

Hədisi şərif: "Rəbbim belə etməyi əmr etdi." (Əbu Davud, Təharət, 145)

## *Qolların yuyulması*

Sonra isə, barmaq uclarından dirsəklərə qədər, öncə sağ sonra sol qol 3 dəfə yuyulur[47].









[47]Uca Allah məalən belə buyurur: "Dirsəklərə qədər əllərinizi yuyun." (Maidə,6)

Hədisi şərif: "O (s.a.v), dəstəmaz alarkən üzünü gözəlcə yudu. Sonra sağ qolunu bazuya çatana qədər, ardından sol qolunu bazuya çatana qədər yudu..." (Müslim, Təharət, 578)

## *Başı məsh etmək*

Davamında əl islatılaraq baş 3 dəfə məsh edilir[48]. Fərzi və sünnəsiylə başın məsh edilməsi bu şəkildədir: İki əl başın ön qisminə qoyular. Bir əlin barmağları digər əlinin barmağlarıyla birləşdirilir. Sonra iki əl boyuna doğru aparılır, sonra da əllər məshə başladığı yerə geri qayıtar[49].





---

[48]Uca Allah məalən belə buyurur: "Başlarınızı məsh edin." (Maidə, 6)

Müslimin rəvayətinə görə Hz.Peyğəmbər (s.a.v) alnına və sarığına məsh etmişdir. (Müslim, Təharət, 632)

[49]Abdullah bin Zeyddən qeyd edilən bir rəvayət belədir: Hz.Peyğəmbərin (s.a.v) necə dəstəmaz aldığı ona soruşuldu. O da bir qab içində su istədi və Peyğəmbərin dəstəmaz formasını onlara göstərdi... sonra əlini suya qoyaraq başını məsh etdi. Əllərini bir dəfə önə və arxaya gəzdirdi... (Buxari, 183. Müslim, 23)

## *Qulaqları məsh etmək*

Sonra isə, yeni su ilə əllər isladılır və eyni anda qulaqların içi işarət barmağı, arxası isə baş barmağın içi ilə 3 dəfə məsh edilir[50]. Bu məshlərin hər birində yeni sudan istifadə edilir.



[50]Hədisi şərif: "Peyğəmbər (s.a.v) başını və qulaqlarının içini və xaricini məsh etdi." (Tirmizi, 36)

Hədisi şərif: "Peyğəmbər (s.a.v) başını və qulaqlarını məsh etdi." (Nəsai, 1/74)

Hədisi şərif: "Peyğəmbər (s.a.v) dəstəmaz alarkən qulaqlarının məshini, başının məshinin suyundan başqa yeni bir su ilə məsh etdi." (Hakim, 1/51)

### *Ayaqların yuyulması*

Son olaraq öncə sağ sonra sol ayağ topuqlarla bərabər yuyulur[51] və ayaq barmaqlarının arası xilalanır.





[51]Uca Allah məalən belə buyurur: "Və topuqlara qədər ayaqlarınızı yuyun." (Maidə,6)

"Ayaqların topuqlarla bərabər yuyulması mövzusu, icmada görüşünə dəyər veriləcək kimsələrin icması ilə sabitdir." (Xətibi Şirbini: Muğnil Muhtac)

## NOT !

- Dəstəmazda yuyulması və məsh edilməsi fərz olan əzalarda tərtibə (sıraya) uymaq fərzdir.[52]
- Dəstəmazın sünnətlərindən biridə Hz.Peyğəmbərə (s.a.v) tabe olmaq üçün fərz olan və ya sünnət olan yuma və məsh etməni üç dəfə etməkdir.[53]
- Dəstəmazın sünnətlərindən biri, birlikdə yuyulması sünnət olmayan iki əl və iki ayağ kimi əzalardan sağı soldan öncə yumaqdır.[54]
- Dəstəmazın sünnətlərindən biri də yuyulacaq yerləri, fərz olan sərhəddindən çoxunu yumaqdır.[55]
- Dəstəmazın sünnətlərindən biri də dəstəmaz hərəkətlərini ard-arda (yəni ara vermədən) həyata keçirməkdir.[56]

---

[52]Əbu Hüreyrədən rəvayət olunur: "Özü dəstəmaz alarkən üzünü yudu və tam yudu. Sonra sağ əlini dirsəklərlə bərabər yudu. Sonra sol əlini dirsəklərlə bərabər yudu. Daha sonra başını məsh etdi. Sonra sağ ayağını topuqlarla bərabər yudu. Sonra da sol ayağını topuqlarla bərabər yudu və Rasulullahın belə dəstəmaz aldığını gördüm, dedi." (Müslim, 246)

[53]Bunu Müslim və başqa hədisçilər rəvayət etmişdir. (Buxari, Vudu, 159. Müslim, Təharət, 537)

Hədisi şərif: "Osman (r.a) sizə Rasulullahın (s.a.v) dəstəmaz alma formasını göstərimmi? dedikdən sonra, dəstəmaz əzalarını üç dəfə yuyaraq dəstəmaz aldı." (Müslim, 230)

[54]Hədisi şərif: "Dəstəmaz aldığınızda sağınızdan başlayın." (İbn Macə, Təharət, 402)

[55] Hədisi şərif: "Ümmətim qiyamət günündə məşhər meydanına alın, qol və ayaqlarında dəstəmaz izlərindən meydana gələn ağlıq ilə gələcək. Kim bu ağlığı artıra bilərsə artırsın." (Buxari, Vudu, 3. Müslim, Təharət, 579)

[56]Yuyulan əzaların suyu qurumadan digər əzanı yumaq. Bunun dəlili, geridə keçən hədislərin bir-birini dəstəkləməsi, tamamlaması və uyğun gəlməsidir. (Mustafa Buğa: Dəlilləriylə Şafii Elmihalı)

## *Dəstəmazı pozan şeylər*

*Dəstəmazı pozan şeylər 6 – dır:*

1. *Ön və arxa yollardan çıxan şeylər[57],*
2. *Oturaq yerin (arxanın) yaxşıca yerləşmədiyi halda yatmaq,*
3. *Xəstəlik və ya sərxoşluq səbəbi ilə ağlını itirmək[58],*
4. *Arada bir mane olmadan kişinin (dərisinin) naməhrəm qadının (dərisinə) toxunması[59],*
5. *Əlin içi ilə insanın tənasül orqanına toxunması[60],*
6. *İmami Şafinin cədid (yeni) görüşünə görə, əlin içi ilə anal halqasına toxunmaq[61].*

---

[57] Bunun dəlili, bu ayəti kərimədir: "… Sizdən biri ayaqyolundan gəlmişsə…" (Maidə/6)

Ayrıca hədisdə də, Buxari (135) və Müslim (225) Əbu Hureyrə (r.a )- dan belə rəvayət edir. Peyğəmbər (s.a.v) buyurdu: "Hədəs halı (dəstəmazın pozulması halı) baş verdiyi zaman, namazı dəstəmaz almadıqca qəbul olmaz. Həzrəmövt`dən olan bir adam belə dedi: Ey Əbu Hureyrə, hədəs nə deməkdir. Cavab Verdi ki, səsli və ya səssiz yel çıxartmaqdır." Ön və ya arxadan çıxan hər şey "təmiz olsa belə" Əbu Hureyrə (r.a)-ın zikir etdiyi şeyə qiyas edilir.

[58] Əbu Davud (203) və başqası, Hz. Əli (r.a)-dan belə rəvayət edir. Allah Rasulu (s.a.v) belə buyurdu: "Gözlər arxanın ipidir. Kim yatarsa dəstəmaz alsın." Yəni, insan oyanıq ikən bir şeyin çıxmasına diqqət edər və onu hiss edər. Yatdığı zaman isə bir şeyin çıxma şübhəsi yaranır.

[59] Çünki, Qurani Kərimdə dəstəmazın pozulması ilə əlaqəli olan ayətdə belə keçir: "…Və ya qadınlara toxunmusunuzsa..." (Maidə: 6)

[60] Beşlər (5 hədis kitabı), Busra bintu Safvan (r.a)-dan rəvayət etdiyinə görə, Peyğəmbər (s.a.v) belə buyurdu: "Övrət (tənasül) yerinə toxunan kimsə, dəstəmaz almadıqca namaz qılmasın." Nəsai`nin (1/100) rəvayətində, "Övrət (tənasül) yerinə toxunmaqdan ötrü dəstəmaz alınır" şəklində keçir. Özünün və ya başqasının övrət yerinə toxunması fərq etməz. İbn Macə`nin (481) Ümmü Həbibə (r.a)-dan rəvayətində belə keçir: "Övrət (tənasül) yerinə toxunan dəstəmaz alsın." Bu ifadə kişilərə şamil olduğu kimi qadınlara da şamildir. Eyni zamanda arxa mənfəzə (anal halqasına) da şamildir.

[61] İmami Şafi`nin yeni görüşü, Misirə getdikdən sona orada əsərində yazaraq təsnif etdiyi və ya fətva verdiyi görüşlərdir. Məzhəb içində daim bu görüşlə əməl olunur. Ancaq məzhəb alimlərinin, İmami Şafinin əvvəlki görüşlərindən tərcih etdiyi məsələlər istisna.

## *Qüsl*

*Qüslu vacib edən hallar 6 – dır:*

*Bunların üçündə kişilər və qadınlar ortaqdır.*

1. *Cinsi münasibət*[62]
2. *Məni`nin (bel suyunun) çıxması*[63]
3. *Ölüm*[64]

***Qüslu vacib edən digər üç səbəb isə sadəcə qadınlara məxsusdur:***

1. *Heyz (aybaşı)*[65]

---

[62] Buxari (287) və Müslim (348), Əbu Hureyrə (r.a)-dan, o da Peyğəmbər (s.a.v)-dən belə rəvayət edir: "(Kişi) qadının dörd əzası (əlləri və ayaqları) arasında oturar, sonar da onunla cinsi əlaqəyə girərsə, (hər ikisinə) qüsl etmək vacib olar." Müslim`in rəvayətində, "Hər nə qədər məni (bel suyu) çıxmasa belə" şəklində keçir. Bu hədis, məni çıxmasa belə yalnız cinsi münasibətdə qüslun lazım olduğu dəlildir. Necə ki, Müslimin rəvayəti bunu açıq bir şəkildə ifadə edir.

[63] Buxari (278) və Müslim (313), Ümmü Sələmə (r.a)-dan rəvayət etdiyinə görə belə dedi: "Ümmü Süleym (r.a), Peyğəmbər (s.a.v)-in yanına gəldi və belə dedi: Ey Allahın Rəsulu, şübhəsiz Allah haqqı söyləməkdən həya etməz. Qadın ihtilam olduğunda ona qüsl etmək vacib olur? Hz. Peyğəmbər (s.a.v) buyurdu: "Bəli, su gördüyü zaman." Yəni: Məninin çıxdığını gördüyü zaman qüsl lazım gəlir. Əbu Davud (239) və başqası, Hz. Aişə (r.a)-dan rəvayət etdiklərinə görə belə dedi: "Peyğəmbər (s.a.v)-dən, yuxuda ehtilam olduğunu xatırlamayıb paltarında yaşlılıq görən biri haqda soruşuldu. "Qüsl alsın" deyə cavab verdi. Sonra ihtilam olduğunu xatırlayıb paltarında yaşlılıq görməyən kimsə haqda soruşuldu. "Ona qüsl yoxdur" deyə cavab verdi. Ümmü Süleym (r.a), "Qadın da bu səbəbdən qüsl almalıdır?" deyə soruşduqda belə buyurdu: "Bəli! Çünki qadınlar kişilərin bənzəridir." Yəni, yaradılış və təbiətdə onların bənzəridir.

[64] Buxari (1195) və Müslim (939), Ümmü Atiyyə əl-Ənsari (r.a)-dan belə rəvayət edir: "Peyğəmbər (s.a.v)-in qızı vəfat etdiyi zaman, bizə gələrək "onu üç dəfə yuyun...!" dedi. Buxari (1208) və Müslim (1206), İbnu Abbas (r.a)-dan bunu rəvayət edir: "Bir kişi dəvəsinin üzərindən yıxıldı və boynu sınaraq öldü. Biz də Peyğəmbər (s.a.v) ilə bərabər idik. O ehramda idi. Bu arada Peyğəmbər (s.a.v) belə buyurdu: "Onu su və sidirlə yuyun və iki paltarda (parçada) kəfənləyin..."

[65] Bu mövzuda dəlil, bu ayəti-kərimədir: "Heyz zamanı qadınlardan kənar olun, (heyzdən) təmizlənməyənə qədər onlarla yaxınlıq etməyin, təmizləndikdən (qüsl aldıqdan) sonra isə Allahın sizə əmr etdiyi yerdən onlara yaxınlaşın." (Bəqərə/222)

2. *Nifas (zahılıq)*[66]
3. *Doğum*[67]

## ***Qüslun fərzləri***

*Qüslun fərzləri 3 – dür:*

1. *Niyyət etmək*[68]*,*
2. *Bədəninin üzərində nəcasət varsa, onu təmizləmək*[69]*,*
3. *Bədənində ki bütün tükləri dərisi ilə bərabər yumaq*[70]*.*

## ***Qüslun sünnətləri***

*Qüslun sünnətləri 5 – dir:*

---

Buxari (314), Hz. Aişə (r.a)-dan belə rəvayət edir: Allah rəsulu (s.a.v), Əbu Hubeyşin qızı Fatimə (r.a)-a belə dedi: "Heyz gəldiyində namaz qılmağı tərk et. Getdiyində (sona çatdığında) isə qüsl et və namaz qıl."

[66] Bu Xüsusda dəlil, doğum etmək halını, heyz halına qiyas etməkdir. Çünki bu halda çıxan qan, toplanmış heyz qanıdır.

[67] Çünki doğulan uşaq mənidən meydana gəlmiş və əksər hallarda onunla bərabər qan da çıxar.

[68] Bunun dəlili; "Əməllər ancaq niyyətlərə görədir" hədisidir.

[69] Bunun dəlili, Buxarinin (246), Peyğəmbər (s.a.v)-in mübarək bədənini yuması xüsusunda Hz. Məymunə (r.a)-dan etdiyi bu rəvayətdir: "(sonra) ayıb yerini yuyar və ona (oralara) bulaşanı (nəcasət və kiri) yuyardı." Ancaq İmam Nəvəvi, kitablarında qüsl suyunun kiri də təmizləməyə kifayət etdiyi, beləliklə iki dəfə yuyunmağa gərək olmadığını ifadə etmişdir. Mötəməd (güvənilən) olanda budur. Bu etibarla qüsl etmədən əvvəl kiri yuyub təmizləmək sünnətdir. (əl-İqna)

[70] Buxari (245) və Müslim (316), Hz. Aişə (r.a)-dan belə rəvayət edir: "Peyğəmbər (s.a.v) cünubluqdan qüsl etdiyi zaman (əvvəlcə) iki əlini yumaqdan başlayar, sonra namaz üçün dəstəmaz aldığı kimi dəstəmaz alar, sonra barmaqlarını suya salıb onlar ilə saçlarının köklərini isladar, sonra iki əliylə başına üç ovuc su tökər, sonra da bütün vücuduna su tökərdi." Əbu Davud (249) və başqası Hz. Əli (r.a)-ın Peyğəmbər (s.a.v)-dən belə eşitdiyini rəvayət edir: "Kim bir tük yeri miqdarı su ilə islatmayıb cənabətli buraxarsa, Allah ona atəşdə (cəhənnəmdə) belə-belə edər." Hz. Əli (r.a) buyurdu: "Bu səbəbdən saçlarıma düşmən kəsildim." Buna görə Hz. Əli (r.a) saçlarını qırxardı.

1. *Qüsla “bismilləh” deyərək başlamaq[71],*
2. *Qüsldan əvvəl dəstəmaz almaq[72],*
3. *Əlləri, bədənin üzərində gəzdirmək (ovmaq)[73],*
4. *(Orqanları) Ard-arda yumaq[74],*
5. *Sağ tərəfi sol tərəfdən əvvəl yumaq[75].*

### *Fərzi və sünnəsi ilə qüsl almanın qaydası*

Qüsl, niyyətlə bədənin tamamını su ilə yumaqdır. Qüsl almaq istəyən kimsə qüsldan əvvəl yüngül işə gedər. Sonra qüsl alınacaq yerə gəlib, "Bismilləh" ilə üç dəfə əllər biləklərə qədər yuyular. Sonra "Niyyət etdim ön və arxadan cənabətin hökmünü qaldırmağa" deyərək övrət yerlərini yuyar. Bundan sonra tam bir dəstəmaz alınar. Davamında "Niyyət etdim cənabət qüslunu almağa, qılacağım namazları özümə mübah qılmaqdan ötrü Allah rizası üçün" deməklə bərabər öncə baş sonra bədənin sağ hissəsi, sonra sol hissəsi, sağ və sol qıçlar hər yer islanacaq şəkildə üç dəfə yuyulur. (Qadınlar adət qüslunu alərkən "Niyyət etdim heyzin hökmünü qaldırmağa" deyərək niyyət edər.)

### *Sünnət olan qüsullar*

*Sünnət olan qüsllar 17 – dir:*

1. *Cümə namazı üçün qüsl almaq[76],*

---

[71] Çünki, hədisi şərifdə belə keçir: “Rəhman və Rəhim olan Allahın adı ilə başlanılmayan hər iş, bərəkət tərəfdən kəsik və nöqsandır.” (Kəşf-ul Xafə: 1964)

[72] Az əvvəl yuxarıda keçən H.z Aişə (r.a)-dan rəvayət olunan hədisə əsasən... .

[73] Bunu vacib görən Malikilərə müxalifət etməkdən qurtulmaq üçün.

[74] Yenə Malikilərə müxalifət etməkdən qurtulmaq üçün. Çünki bu da onlara görə vacibdir.

[75] Çünki, Buxari (166) və Müslim-in (268), Hz. Aişə Anamızdan rəvayət etdiyinə görə: “Peyğəmbər (s.a.v) ayaqqabısını geyinərkən, saçını darayarkən, yuyunarkən (xülasə), bütün (əksər) işlərində sağ tərəfdən başlamağı xoşlayardı.”

[76] Buxari (837) və Müslim (844) və başqası, İbn Ömər (r.a)-dan rəvayət etdiyinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: “Sizdən biriniz cüməyə gəldiyi zaman qüsl alsın.” Müslimə aid rəvayətdə isə, “sizdən biriniz cüməyə gəlmək istədiyi zaman” şəklində keçir. Hədisdə ki ifadə, cümə günü qüsl almağı vacib kimi göstərsə də Tirmizinin (492), “Kim cümə günü dəstəmaz alarsa sünnətə uymuş olar və yaxşı etmiş olar. Kim də qüsl alarsa, daha fəzilətlisini (yaxşısını) etmiş olar” şəklində ki rəvayəti, qüslun vacib olma ehtimalını uzaqlaşdırır.

2. *İki bayram namazı üçün qüsl almaq[77],*
3. *Yağış duası namazı üçün qüsl almaq,*
4. *Günəş tutulması namazı üçün qüsl almaq,*
5. *Ay tutulması namazı üçün qüsl almaq[78],*
6. *Ölünü yuyan kimsənin qüsl alması[79],*
7. *Yeni müsəlman olan adamın qüsl alması[80],*
8. *Dəlinin ağlı başına gəldiyi zaman qüsl alması,*
9. *Huşunu itirən kimsənin özünə gəldiyi zaman qüsl alması[81],*
10. *Ehrama girəcəyi zaman qüsl almaq[82],*

---

[77] İmam Malik, əl-Muvatta adlı kitabında belə rəvayət edir: "Abdullah bin Ömər (r.a) Ramazan bayramı günü namazgaha getmədən əvvəl qüsl alardı." Qurban bayramı günü qüsl alma da, buna qiyas edilmişdir.

[78] Yağış duası, ay tutulması və günəş tutulması üçün qüsl almağın müstəhəb olduğuna dair nəqli dəlilə rastlaşmadım. Umulur ki, alimlər bunları cümə və bayram günlərinə qiyas ediblər. Çünki burada da camaatın məşru olması və insanları toplanması yönündən cümə və bayram günü mənasındadır.

[79] Əbu Hureyrə (r.a), Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: "Kim bir ölünü yuyarsa, qüsl alsın. Və kim də cənazəni daşıyarsa, dəstəmaz alsın." Bu hədisi beşlər (5 hədis kitabı) rəvayət edir. İmam Tirmizi (993) bu hədisin Həsən hədis olduğunu deyir. Hədisin vaciblik ifadə etməyinə mane olan, Hakimin (1/386) bu rəvayətidir: "Ölünüzü yuduğunuz zaman, üzərinizə qüsl almaq vacib deyildir."

[80] Əbu Davud (355) və Tirmizi (605), Qays bin Asimin belə dediyini rəvayət edir: "Mən müsəlman olmaq məqsədi ilə Peyğəmbər (s.a.v)-in yanına gəldim. Mənə, su və sidr ilə qüsl almağımı əmr etdi." "Sidr," məlum ağacdan ovulan yarpaqdır.

Tirmizi, bu hədisi rəvayət etdikdən sonra, "Elm əhlinin qatında əməlin bunun üzərinə olduğunu və müsəlman olan kişinin qüsl alması və paltarını da yuması müstəhəb olduğunu" deyir. Nəticə olaraq, müsəlman olduqdan sonra qüsl almaq vacib deyildir. Çünki Peyğəmbər (s.a.v)-in, hər müsəlman olanın qüsl almasına dair bir əmri yoxdur.

[81] Bu mövzuda dəlil, Buxari (655) və Müslimin (418), Hz. Aişə (r.anha)-dan rəvayət etdiyi hədisdir: "Hz.Peyğəmbər (s.a.v)-in halı ağırlaşmışdı. O buyurdu: "Camaat namazı qılındımı ?" Cavab verdik ki: Xeyr, onlar səni gözləyirlər, ya Rəsulallah! Buyurdu ki: "Mənim üçün ləyəndə su hazırlayın!" (Hz. Aişə) dedi: biz onun dediyini etdik. O (ləyəndə oturub) yuyundu. Çətinliklə özünü ayağa qaldırmağa çalışdı. Lakin huşunu itirdi. Sonra özünə gəldi və buyurdu: "Camaat namaz qıldımı ?" Biz dedik: xeyr, onlar səni gözləyirlər, ya Rasulallah! Buyurdu ki: "Mənim üçün ləyəndə su hazırlayın!" (Hz. Aişə) dedi: O (ləyəndə) oturub yuyundu. Ayağa qalxmağa çalışdı. Lakin yenə yenə huşunu itirdi... " göründüyü kimi Peyğəmbər (s.a.v) huşunu itirib, sonra özünə gəldikdən sonra qüsl almışdır. Dəli kimsənin də qüsl alması buna qiyas edilmişdir. Hətta dəlinin qüsl alması daha uyğundur.

[82] Tirmizi (830), Zeyd bin Sabit (r.a)-dan bunu rəvayət edir: "Mən, Peyğəmbər (s.a.v)-i, ehram üçün soyunub qüsl aldığını gördüm."

11. *Məkkəyə girmək üçün qüsl almaq*[83]*,*
12. *Ərafatda vəqfə etmək üçün qüsl almaq*[84]*,*
13. *Müzdəlifədə gecələmək üçün qüsl almaq*[85]*,*
14. *Üç cəmrəyə (şeytana) daş atmaq üçün qüsl almaq*[86]*,*
15. *Təvaf etmək üçün qüsl almaq,*
16. *Safa və Mərvə arasında səy (gedib-gəlmək) etmək üçün qüsl almaq,*
17. *Mədinə-i Münəvvərəyə girmək üçün qüsl almaq.*

## *Qadınlara Məxsus Hallar*

*Qadının tənasül organından üç cür qan çıxar: Heyz, nifas və istihazə qanı.*

1. *Heyz (aybaşı halı), qadın sağlam olduğu halda və doğum səbəbi də*[87] *olmadan tənasül orqanından çıxan qandır. Bu qan, rəngi qara, hərarətli və yandırıcıdır.*[88]
2. *Nifas (zahılıq halı), doğumdan sonra çıxan qandır.*

---

[83] Buxari (1478) və Müslim (1259), İbn Ömər (r.a)-dan belə rəvayət edir: "İbn Ömər (r.a), Məkkəyə gəldiyi hər dəfəsində səhərə kimi Tuva (Məkkə yaxınlığında) adlanan yerdə gecələyər və qüsl alar. Sonra günorta Məkkəyə daxil olardı və Peyğəmbər (s.a.v)-in belə etdiyini söyləyərdi."

[84] İmam Malik, əl-Muvatta adlı əsərində (1/322) İbn Ömər (r.a)-dan belə rəvayət edir: "İbn Ömər (r.a), ehrama girmədən əvvəl qüsl alardı. Həmçinin Məkkəyə girmək Ərafat`da vəqfə etmək üçün qüsl alardı."

[85] Səhih olan budur ki, müzdəlifədə gecələmək üçün qüsl almaq müstəhəb deyildir. (Bax: Nihayə)

[86] Mötəməd (güvənilən) budur ki, Təvaf üçün qüsl almaq sünnət deyildir.

[87] Buxari (290) və Müslim (1211), Hz. Aişə (r.a)-dan rəvayət etdiyinə görə belə buyuru: "Biz həcc etmək niyyətilə yola çıxdıq. Sərəfə (deyilən yerə) çatdıqda məndə heyz/aybaşı halı baş verdi. Mən ağlamağa başladım. (Elə bu zaman) Hz. Peyğəmbər (s.a.v) yanıma daxil oldu və buyurdu: "Sənə nə oldu, (yoxsa) heyzlimi oldun?" Mən: Bəli, -dedim. (Hz. Peyğəmbər) buyurdu: "Heç şübhəsiz bu, Allahın Adəm qızlarına yazdığı bir əmrdir (xüsusiyyətdir). Hacılar nə edərlərsə, sən də et, sadəcə təvaf etmə." Başqa bir rəvayətdə: "Təmizlənincəyə qədər" şəklindədir.

[88] Əbu Davud (286) və başqası, Fatimə bintu Əbu Hubeyş (r.a)-dan bunu rəvayət edir: "O, istihazə olurdu. Peyğəmbər (s.a.v) ona belə buyurdu: "Əyər bilinən qara rəngli heyz qanıdırsa, onda namaz qılma! Yox əyər başqa qandırsa, onda dəstəmaz al və namaz qıl! Bu damardan gələn qandır!"

3. *İstihazə (üzr qanı), heyz və nifas günləri xaricində çıxan qandır.*[89]

*Heyzin ən az müddəti bir gün bir gecə, ən çox müddəti isə on beş gündür. Əksəriyyətlə görülən müddət isə altı və ya yeddi gündür.*

*Nifasın ən az müddəti bir ləhzə (an), ən çox müddəti isə altımış gündür. Əksəriyyətlə görülən müddət isə qırx gündür.*

*İki heyz arasındaki ən az təmizlik müddəti on beş gündür. ən çox müddəti üçün isə bir hədd yoxdur.*

*Qadınların ən erkən gördüyü heyz yaşı doqquz ildir.*[90]*(Yəni ən tez, qəməri aylar ilə 9 yaşa çatanda görə bilər. Bundan öncə görə bilməz.)*

*Hamiləliyin ən az müddəti altı aydır. Ən çox müddəti isə dört ildir. Əksəriyyətlə görülən müddət isə doqquz aydır.*[91]

---

[89] Buxari (226) və Müslim (333), Hz. Aişə (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Əbu Hubeyşin qızı Fatimə Peyğəmbər (s.a.v)-in yanına gəlib dedi: Ey Allahın Rəsulu, mən özündən istihazə qanı axan bir qadınam. Heç cür təmiz (pak) olmuram. Namazı tərk edim? Peyğəmbər (s.a.v) buyurdu: "Xeyr! Bu bir damardır (damardan axan qandır), heyz (adət/aybaşı qanı) deyildir. Heyz (aybaşı) görməyə başlayanda, namazı tərk et, (aybaşı) günləri isə, özündən qanı yuyub təmizlə (qüsl et) sonra da namaz qıl."

[90] Heyz, nifas və təmizlik xüsusunda verilən müddətlər, araşdırma və müşahidə nəticəsində əldə edilən müddətlərdir.

Əbu Davud (311) və başqası Ummu Sələmə (r.a)-dan rəvayət etdiyinə görə belə dedi: "Peyğəmbər (s.a.v)-in zamanında nifas olmuş qadınlar qırx gün (namaz qılmayıb) gözləyərdilər." Bu hədis, nifasın müddətinin əksər hallarda qırx gün olduğana göstərir. Qırx gündən çox olmasına zid deyildir.

[91] Hamiləliyin ən az müddətinə, Əhqaf surəsinin 15-ci ayəti: "... Onun bətndə daşınma və süddən kəsilmə müddəti (toplam olaraq) otuz ay çəkir" və Loğman surəsi 14-cü ayəti: "... Onun süddən kəsilməsi isə iki il ərzində olur" dəlil olaraq göstərilir. Hamiləlik və süddən kəsilmənin tamamı 30 ay, yalnız süddən kəsilməsi isə iki il (24 ay) olunca, yalnız hamiləlik müddəti altı ay olur.
Hamiləliyin ən uzun müddəti və əksər hallarda müddətinə dair dəlil isə müşahidə və araşdırmadır.

# NAMAZ

## Fərz namazlar və vaxtları

*Fərz namazlar 5 – dir:*[92]

1. *Günorta (zöhr) namazı: Bu namazın vaxtı, günəşin zəvalı (ən yüksək nöqtədən qərbə tərəf meyl etməsi) ilə başlayar.*[93] *Son vaxtı isə, günəşin zəvaldan sonra (tam təpədə ikən cisimlərin yerə düşən kölgəsi xaric) hər cismin kölgəsi özünün bir mislinə çatdığı zamanadək davam edər.*
2. *İkindi (əsr) namazı: Bu namazın ilk vaxtı, hər şeyin kölgəsi, öz mislini keçdikdən sonra başlayar. Son vaxtı isə, günəşin batışına qədər davam edər.*[94] *Ancaq, hər şeyin kölgəsi iki öz mislini keçdiyi andan namazı gecikdirməmək tərcih edilir.*

---

[92] Namazın məşru olması xüsusunda dəlil, bir çox ayət və hədislərdir: Ayət: "Şübhəsin namaz möminlərə bəlli vaxtlarda vacib edilmişdir." (Nisa; 103) Hədis: Buxari (8), Müslim (16) və başqası, İbn Ömər (r.a)-dan Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: " İslam beş əsas üzərinə bina edilmişdir: Allahdan başqa heç bir ilah olmadığına və Muhammədin (s.a.v) Onun elçisi olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat vermək, həcc etmək və Ramazan orucunu tutmaq." İsra gecəsi ilə əlaqəli hədisdə belə gəlmişdir: "Beləliklə Allah ümmətimə əlli (vaxt) namaz fərz qıldı... Mən də Rəbbimə müraciət etdim. Allahu Təala buyurdu: "(Son olaraq) beşdir (say baxımından beş namazdır), (savab etibari ilə isə) o, əllidir. Mənim yanımda (dərgahımda) söz dəyişməz." (Buxari: 342 və Müslim: 163)

[93] Beş fərz namazların vaxtlarını göstərən hədis, Müslim (614) və başqasının, Əbu Musa əl-Əşari (r.a)-dan, onunda Peyğəmbər (s.a.v)-dən rəvayət etdiyi bu hədisdir: "Peyğəmbər (s.a.v)-in yanına bir kişi gəlib namazın vaxtları haqda soruşduqda, Peyğəmbər (s.a.v) ona heç bir şey demədi. Mütəaqibən sübh namazını dan yeri ağardıqda, insanların bir-birlərini tam şəkildə görüb tanımadıqları vaxtda qıldırdı. Sonra ona yenə əmr etdi və Zöhr namazını günəş zeniti keçdikdən sonra, insanların ən yaxşı biləni gün yarı oldu dediyi vaxtda qıldırdı. Sonra ona yenə əmr etdi və Əsr namazını günəş hündürdə olduğda ikən qıldırdı. Sonra ona yenə əmr etdi və Məğrib namazını gün batdıqdan sonra qıldırdı. Sonra ona yenə əmr etdi və İşa namazını şəfəq itdikdən sonra qıldırdı. Sonra ikinci gün sabah namazını o qədər gecikdirdi ki, namazı insanın günəş çıxdı və ya çıxmağına az qaldı dediyi vaxtda qurtardı. Sonra Zöhr namazını dünən Əsr namazını qıldığı vaxta yaxın bir vaxta kimi gecikdirərək qıldırdı. Sonra Əsr namazını o qədər gecikdirdiki, namazı insanın günəş qızardı dediyi vaxtda qurtardı. Sonra Məğrib namazını şəfəqin sökülməsinə az qalmış vaxta qədər gecikdirərək qıldırdı. Sonra İşa namazını gecənin ilk üçdə-birinə qədər gecikdirib qıldırdı. Sabah sual verən kişini çağırtdırıb ona belə buyurdu: "Namaz vaxtları, bu iki vaxtın arasındadır."

[94] Buxari (554) və Müslim (608), Əbu Hureyrə (r.a)-dan rəvayət etdiklərinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: "Kim günəş doğmadan öncə sübh namazının bir rükətinə yetişərsə, sübh namazına yetişmiş olar. Və kim də günəş batmadan öncə ikindi namazının bir rükətinə yetişərsə, ikindi namazına yetişmiş olar."

3. *Axşam (məğrib) namazı: Bu namazın vaxtı təkdir. Bu da günəşin batışı ilə başlayar və əzan oxuyub, dəstəmaz alıb, övrət yerini örtüb, qamət oxuyaraq beş rükət namaz qılacaq qədər davam edər.[95]*
4. *Gecə (işa) namazı: Bu namazın ilk vaxtı, qırmızı şəfəqin yox olması ilə başlayar. Son vaxtı isə, ikinci fəcrin doğuşuna qədər davam edər.[96] Ancaq gecənin üçdə bir bölümündən gecikdirməmək tərcih edilir.*
5. *Sübh (fəcr) namazı: Bu namazın ilk vaxtı ikinci fəcrin doğuşu ilə başlayar. Son vaxtı isə günəşin doğuşuna qədər davam edər. Ancaq günün saralması anından gecikdirməmək tərcih olunur.*

***Fərzlərə tabe olan (rəvatib) sünnətlər toplam olaraq 17 – dir:***

1. *Sübh namazından əvvəl iki rükət[97],*
2. *Günorta namazından əvvəl dörd, sonra da iki rükət[98],*

---

95 Mətindəki ifadə İmam Şafinin (cədid) yeni görüşüdür. Bu görüşün dəlili, Əbu Davud (393), Tirmizi (149) və başqasının İbni Abbas (r.a)-dan rəvayət etdiyi "Cəbrail" hədisidir. Həmin hədisdə, "Cəbrail (a.s), Peyğəmbər (s.a.v)-ə məğrib namazını iki gündə oruclunun iftar etdiyi vaxta qıldırmışdır." Yəni, hər iki gündə günəş batdıqdan sonra bir vaxtda qıldırmışdır.

İmami Şafinin (qədim) əvvəlki görüşü isə, məğrib namazının vaxtı: qırmızı şəfəqin yox olmasına qədər davam etdiyi yönündədir. Məzhəb imamları da bu görüşü tərcih etmişdir. Çünki dəlilləri daha güclüdür. Məsələn: Mədinə də gerçəkləşmiş, geridə keçən Müslim (614) hədisi kimi. Bu hədis, Məkkədə gerçəkləşən, Cəbrail hədisi üzərinə tərcih edilmişdir. Çünki etibar, sonda sabit olan şeyədir. Və bu hədisdə, "Cəbrail (a.s) məğrib namazını qırmızı şəfəqin yox oluncaya qədər təxir etdi" deyilir. Ayrıca Peyğəmbər (s.a.v)-in belə buyurduğu da sabit olmuşdur: "Məğrib namazının vaxtı, qırmızı yox olmadığı müddətcə davam edər." (Müslim: 612)

96 Çünki, Müslim (681) və başqası, Əbu Qətadə (r.a)-dan Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: "Yatmaq səhlənkarlıq deyildir, səhlənkarlıq namazı o biri namazın vaxtı girənədək qılmamaqdır." Bu hədis buna dəlalət edir ki, həqiqətən bir namazın vaxtı, ancaq başqa namazın vaxtının girməsi ilə çıxar. Ancaq sübh namazı bu ümumilikdən xaricdə qalmışdır.

97 Buxari (1116) və Müslim (724), Hz. Aişə (r.a)-dan rəvayət etdiklərinə görə belə buyur: "Peyğəmbər (s.a.v), nafilə namazlardan heç birinə sübh namazının iki rükət sünnəsi qədər ciddi şəkildə diqqət etmirdi. (Yəni, nafilələr arasında ən ciddi şəkildə diqqət etdiyi namaz sübh namazının iki rükət sünnəsi idi.)

98 Buxari (1127), Hz. Aişə (r.a)-dan rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v), günorta namazından əvvəl qılınan dörd rükəti və sübh namazından əvvəlki iki rükəti heç vaxt tərk etməzdi." Müslimin (730) rəvayətində isə belədir: "Peyğəmbər (s.a.v) günorta namazından əvvəl evində dörd rükət qılar, sonra çıxıb insanlara namaz qıldırar, sonra evinə girər və iki rükətdə qılardı."

Beşlər (beş hədis kitabı) Ümmu Həbibə (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v)-in belə dediyini eşitdim: "Kim günorta namazından əvvəl dörd və sonra da

3. *İkindi namazından əvvəl dörd rükət[99],*
4. *Məğrib namazından sonra iki rükət[100],*
5. *İşa namazından sonra üç rükət. Bu üç rükətdən biri vitir olaraq qılınır[101].*

---

dörd rükət qılarsa, Allah onu atəşə haram qılar." Bu hədisə görə, günorta namazından sonraki iki rükətə, iki rükətdə əlavə edilir və dörd rükət olaraq qılınır.

Cümə namazı da, izah olunan xüsuslarda günorta namazı kimidir. Çünki, cümə namazı günorta namazının yerinə keçir. Müslimin (881) Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: "Sizdən biriniz cümə namazını qıldığı zaman, ondan sonra dörd rükət qılsın."

Tirmizinin (523) rəvayət etdiyinə görə: "İbni Məsud (r.a) cümə namazından əvvəl dörd və sonra da dörd rükət qılardı." Bundan zahirə anlaşılan: İbni Məsudun (r.a) bilgisi, Peyğəmbər (s.a.v)-in feilində qaynaqlanır.

[99] Tirmizi (430), İbni Ömər (r.a)-dan rəvayət etdiyinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: "İkindi namazında əvvəl dörd rükət qılana Allah rəhmət etsin." Bunları iki-iki olaraq qılar. Çünki, Tirmizi (429) və başqasının Hz. Əli (r.a)-dan rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v) ikindidən əvvəl dörd rükət qılardı və bir salam ilə aralarını ayırardı.

[100] Buxari (1126) və Müslim (799), İbni Ömər (r.a)-dan rəvayət etdiyinə görə belə dedi: "Peyğəmbər (s.a.v)-dən on rükət namaz öyrənmişəm: Günorta namazından əvvəl iki rükət, ondan sonra da iki rükət, məğrib namazından sonra evində iki rükət, işa namazından sonra evində iki rükət, sübh namazından öncə iki rükət. Bu elə bir vaxt idi ki, o vaxt Peyğəmbər (s.a.v)-in yanına daxil olmaq olmazdı.

Bu hədisdə keçən on rükət sünnət, digərlərinə nəzərən daha müəkkəddir. Ancaq bu hədisdə keçməyən digər rükətlərində sünnət olduğuna, zikr olunan dəlillər dəlalət edir.

Məğrib namazında əvvəl xəfif iki rükət qılmaq müstəhəbdir. Çünki, Buxari (599) və Müslim (837), Ənəs (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: "Biz Mədinədə idik. Müəzzin məğrib namazı üçün əzan oxuduğu zaman səhabədən bir çox kimsə tələsərək dirəklərə doğru durub iki rükət namaz qılardılar. Hətta bəzən qərib bir kimsə məscidə girərdi, bu iki rükəti qılanların çoxluğundan ötrü fərz namazı qılınmış zənn edərdi."

Həmçinin işa namazından əvvəl də xəfif iki rükət namaz qılmaq da müstəhəbdir. Buxari (601) və Müslim (838), Abdullah ibni Müfəzzəl (r.a)-dan rəvayət etdiyinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: "Hər iki əzan arasında bir namaz var, hər iki əzan arasında bir namaz var. Sonra üçüncüsündə "istəyən üçün" dedi." Hədisdə keçən "İki əzandan" məqsəd, əzan və qamətdir.

[101] Buna, yuxarı da keçən İbni Ömər (r.a)-dan rəvayət olunan hədis dəlalət etdiyi kim, Müslimdə də (752), Peyğəmbər (s.a.v)-in belə buyurduğu rəvayət edilir: "Vitr, gecənin sonunadək bir rükətdir." Bir rükət, vitr namazının ən azıdır. Normal da üç, ən çoxuda on bir rükətdir.

Buxari (1071), Müslim (736) və başqası, Hz. Aişə (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v), işa namazını qıldıqdan sonra, sübh namazına qədər olan arada on bir rükət qılardı. Hər iki rükət arasında salam verir, bir rükətidə tək olaraq qılardı.

### ***(Fərzlərə tabe olmayan) müəkkəd nafilə sünnətlər[102] 3 – dür:***

1. *Təhəccüd namazı[103],*
2. *Duha namazı[104],*
3. *Təravih namazı[105].*

---

Müəzzin, sübh namazının əzanını oxuyub onun yanına gəlincə və namaz vaxtının girdiyi anlaşılınca, qalxıb xəfif iki rükət namaz qılardı və müəzzin qamət üçün yanına gəlincəyə qədər sağ yanı üzərində uzanardı."

Əbu Davud (1422) və başqası, Əbu Əyyub (r.a)-dan rəvayət etdiklərinə görə, Peyğəmbər (s.a.v) belə buyurdu: "Vitr haqdır. Elə isə onu istəyən beş, istəyən üç, istəyən də bir rükət qılsın." Hədisdə keçən "vitr haqdır" ifadəsi, "vitr məşru və mətlub (istənilən) bir namazdır" deməkdir.

[102] Yəni, camaatla qılınması istənilən nafilələr və fərzlərə tabe olan rəvatib nafilə namazlardan sonra, bir də müəkkəd üç "nafilə namaz" vardır. Nafilə, sünnət və ya müstəhəb namaz deməkdir.

[103] Müslim (1163) və başqası, Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v)-ə, "Fərz namazdan sonra hansı namaz daha fəzilətlidir?" deyə sual olundu. O da (s.a.v), "Gecənin ortasındaki namaz" deyə cavab verdi." Bu namaza, "gecə namazı" və ya "təhəccüd" deyilir, təbii ki, yuxudan sonra qılınarsa. Allahu Təala Qurani Kərim`də belə buyurdu: "Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə (təhəccüd) namazı qıl." (İsra/79)

[104] Buxari (1880) və Müslim (721), Əbu Hureyrə (r.a)-dan bunu rəvayət edirlər: "Xəlilim (dostum Cəbrail) mənə üç şeyi vəsiyyət etdi: "Hər aydan üç gün oruc tutmağı, duha namazının iki rükətini və yatmamışdan öncə vitr namazını qılmağı."

Duha namazı, hədisdə ifadə edildiyinə görə, ən azı iki rükət. Ən çoxu da səkkiz rükətdir. Çünki, Buxari (350) və Müslim (336), Ümmü Həni hədisində bunu rəvayət edir: "Ümmü Həni Məkkənin fəthi ilində Peyğəmbərin (s.a.v) yanına gəldi. O , Məkkənin yuxarı yerində dayanıb qüsul alırdı və Fatimə onu, görünməsin deyə örtürdü. O paltarını götürüb ona büründükdən sonra səkkiz rükət duha namazını qıldı."

Fəzilətli olan bu namazı iki-iki qılmaqdır. Çünki, Əbu Davudun (1290), Ummu Hənidən etdiyi rəvayətdə belə gəlmişdir: "Peyğəmbər (s.a.v), fətih günü duha namazını səkkiz rükət qıldı və hər iki rükətdən bir salam verdi."

Duha namazının vaxtı, günəşin yüksəlməsindən zəvala kimi davam edər. Ancaq fəzilətli olan günün ¼-i keçdikdən sonra qılmaqdır. Müslim (748) və başqası, Zeyd bin Ərqam (r.a)-dan rəvayət etdiklərinə belə buyurdu: "Peyğəmbər (s.a.v), Quba əhlinin yanına çıxdı. Bu arada onlar duha namazını qılırdılar. Bunun üzərinə Peyğəmbər (s.a.v), "Əvvabinlərin (Allaha dönənlərin) namazı, istidən dəvə balasının ayaqları yandığı vaxtdır" buyurdu.

[105] Təravih namazı, Ramazan ayının hər gecəsində qılınan iyirmi rükətlik namazdır. Hər iki rükətdən sonra salam verilir. Vaxtı isə, işa namazı ilə sübh namazının arasındadır. Ancaq vitr namazından əvvəl qılınır.

Buxari (37), Müslim (759) və başqası, Əbu Hureyrə (r.a)-dan rəvayət etdiklərinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: "Kim Ramazanı İnanaraq və xalis niyyət ilə ehya edərsə, keçmiş günahları bağışlanar."

## *Diqqət !*

| ŞAFİİ MƏZHƏBİNƏ GÖRƏ NAMAZLARIN TAM RÜKƏT SAYLARI | | | | | | |
|---|---|---|---|---|---|---|
| Vaxtın ismi | Fərzdən öncəki sünnətlər | | Fərzlərin sayı | Fərzdən sonrakı sünnətlər | | Toplam |
| | Ğayri Müəkkəd | Müəkkəd | | Ğayri Müəkkəd | Müəkkəd | |
| Sübh Namazı | x | 2 | 2 | x | x | 4 |
| Zöhr Namazı | 2 | 2 | 4 | 2 | 2 | 12 |
| Əsr Namazı | 4 (2+2) | x | 4 | x | x | 8 |
| Məğrib Namazı | 2 | x | 3 | x | 2 | 7 |
| İşa Namazı | 2 | x | 4 | x | 2 | 8 |
| Cümə Namazı | 2 | 2 | 2 | 2 | 2 | 10 |
| Vitr Namazı | Vitr Namazının ən azı 1 rükət, ən çoxu və fəzilətlisi 11 rükət, ən idealı 3 rükətdir. Hər zaman Vitr Namazında son bir rükət tək qılınır, yəni 2 rükət qılıb salam verilir və bir rükət də qılınır. | | | | | 11 |
| QAYNAQ: Muğnil Muhtac, İhyau Ulumiddin, Fiqhul Mənhəci, İanətud Dalibin, Kifəyətul Əxyar, Hədiyyətul Habib, Ümdətus Salik, Ənvərul Məsalik. | | | | | | |

---

Buxari (882) və Müslim (761), Hz. Aişə (r.a)-dan rəvayət etdiklərinə görə: "Peyğəmbər (s.a.v) bir gecə məscid də namaz qıldı. Bir dəstə insan da onun namazı ilə namaz qıldılar. Sonra ikinci gecə də qıldı və qılan insanlar çoxaldı. Sonra üçüncü və ya dördüncü gecədə insanlar toplandı. Ancaq Peyğəmbər (s.a.v) onların yanına çıxmadı. Sabah olunca, "sizin etdiyinizi (yığışmağınızı) gördüm. Mənim sizin yanınıza çıxmağıma mane olan, (təravih namazının) sizə fərz olar deyə qorxmağım oldu" dedi."

Buxari (1906), Abdurrahmən bin Abdulqari (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Ramazanda Ömər bin Xəttab ilə məscidə çıxdım; gördük ki, insanlar fərqli qruplara ayrılmış: kimi tək başına namaz qılır, kimi də bir gurupla... Bu arada Ömər (r.a) dedi ki; bunlar bir qarinin (imamın) arxasında toplanıb namaz qılsalar daha uyğun olacağını düşünürəm. Sonra buna əzm etdi və onları Ubey bin Ka`b-ın arxasında topladı. Sonra digər bir axşam bərabər çıxdıqda və insanların bir imamın arxasında namaz qıldıqlarını gördükdə, Ömər (r.a), "(təravihin camaatla qılınması) nə gözəl bidətdir bu...!

Beyhaqi (2/996) və başqası səhih bir isnadla bunu rəvayət edirlər: "Səhabə, Ömər (r.a)-ın dönəmində Ramazanda iyirmi üç rükət namaz qılırdılar.

İmam Malik də əl`Muvatta adlı kitabında (1/115) bunu rəvayət edir: "İnsanlar, Ömər (r.a)-ın zamanında, Ramazanda iyirmi rükət namaz qılardılar."

Beyhaqi, "keçən iki hədis bir-birini tamamlayır" demişdir. Belə ki, iyirmi rükət "təravih namazı", üç rükət də "vitr namazı" olmaqla iyirmi üç rükət edər.

## *Namazın səhih olmasının şərtləri*

### *Namaza girmədən öncəki şərtlər 5 – dir:*

1. *Bədəni hədəsdən[106] və nacasətdən[107] təmizləmək,*
2. *Təmiz bir paltar ilə ayıb yerini örtmək (sətri-övrət)[108],*
3. *Təmiz bir yerdə namaza durmaq[109],*
4. *Namaz vaxtının girdiyini bilmək[110],*
5. *Qibləyə yönəlmək[111].*

---

[106] Yəni, dəstəmazı olmayanın dəstəmaz, cünub olanın da qüsl alması. Çünki Allahu Təala Qurani Kərimdə belə buyurur: "Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və dirsəklərlə birlikdə əllərinizi yuyun. Başınızı məsh edin, ayaqlarınızı isə hər iki topuğa qədər yuyun. Əyər cünub olmusunuzsa, qüsl edin." (Maidə/6)

[107] Buna Peyğəmbər (s.a.v)-in, nəcasətləri yumaqla əlaqəli əmri dələlət edir. Məsələn: Fatimə bintu Əbi-Hubeyşə (r.a) dediyi bu söz kimi: "Heyz başlayınca namazı tərk et. Heyzin sayılı günləri keçincə də özündən qanı yu (təmizlə) və namaz qıl."

Həmçinin Hz. Əli (r.a)-ın, məzinin yuyulması ilə əlaqəli hədisi buna dəlildir. Ayrıca, Allahu Təlanın, "((Ey Rasulum!) Libasını təmizlə: (Müddəssir/4))" sözü ilə əmr olunan paltarın təmizliyinə qiyas edilərək, nəcasətdən təmizlənməyin vacib olduğu demək mümkündür.

[108] Çünki, Qurani Kərimdə belə buyurulur: " Ey Adəm oxulları! Hər dəfə məscidə gedərkən zinətlərinizi götürün (gözəl geyinin)." (Əraf/31) İbni Abbas (r.a), ayətdə keçən "zinətlərinizi götürün" ifadəsindən məqsəd, namazda təmiz paltarın geyinilməsidir. (Muğni-l Muhtac: 1/184)

Tirmizi (377), Hz. Aişə (r.a)-dan, Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: "Baliğ olan qadının namazı, baş örtüsüsüz qəbul olunmaz." Başı örtmək vacib olunca, başqa yerlərin örtülməsi daha da vacib olar. Buna Buxarinin (365), H.z Aişə (r.a)-dan etdiyi bu rəvayət dəlalət edir: "Peyğəmbər (s.a.v) sübh namazını qıldırar, bir çox mömінə xanımlar da örtüklərinə bürünərək onunla namaz qılardılar. Sonra da öz evlərinə qayıdardılar və heç kəs onları tanımazdı."

Paltarın təmiz olmasının şərt olduğuna dəlil, "((Ey Rəsulum!) Libasını təmizlə: (Müddəssir/4))" ayətidir.

Əbu Davud (365), Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə: "Xavlə bintu Yasər, Peyğəmbər (s.a.v)-in yanına gələrək; "Ey Allah Rasulu! Mənim yalnız bir paltarım var və mən o paltarda heyz görürəm, nə edim? dedi. Allah Rasulu: "Təmizləndiyin zaman onu yu, sonra həmin paltarda namazını qıl" dedi. Bu arada Xavlə: "Əgər paltardan qan çıxmasa nə edim? dedi. Allah Rasulu: "Qanı yumaq sənə kifayət edər, onun əsərinin qalması sənə zərər verməz" dedi.

[109] Namazın qılınacağı yerin təmiz olması şərtinə, məsciddə bövl edən ərabi`nin bövl etdiyi yerə, Peyğəmbər (s.a.v)-in "Su tökün!" şəklindəki əmrini ifadə edən hədis dəlalət edir. Ayrıca namaz qılanın paltarının təmiz olması şərtinə də qiyas edilir.

[110] Çünki, Qurani Kərimdə belə buyurulur: "Çünki namaz möminlərə bəlli vaxtlarda fərz edilmişdir." (Nisa/103) Yəni, bəlli bir vaxtla məhdudlaşdırılmış şəkildə fərz qılınmışdır. Elə isə vaxtın girdiyini bilmək vacibdir.

[111] Allahu Təala Qurani Kərimdə belə buyurur: "Biz sənin üzünün göyə tərəf çevrildiyini gördük və Biz səni razı qalacağın qibləyə tərəf döndərəcəyik. Sən üzünü (namazda) Məscidu`l-Harama tərəf çevir!" (Bəqərə/104)

***İki halda qiblənin tərki caizdir:***

1. *Şiddətli qorxu anında[112],*
2. *Səfərdə minik üzərində nafilə namazı qılarkən[113].*

## *Namazın sünnətləri*

*Namazın sünnətləri, namaza girmədən əvvəl sünnətlər və namaza girdikdən sonra sünnətlər deyə ikiyə ayrılır:*

***Namaza girmədən öncə sünnətlər 2 – dir:***

1. *Əzan,*
2. *İqamə[114].*

---

Buxari (5897) və Müslim (397), namazını pis qılan haqqında olan hədisdə, Peyğəmbər (s.a.v)-dən bunu rəvayət edirlər: "Namaza duracağın zaman tam (gözəl) bir şəkildə dəstəmaz al, sonra qibləyə yönəl və təkbir al."
Ayətdə ki, "Məscidu`l-Haram" və hədisdə ki "qiblə"-dən murad, Kəbədir.
Buxari (390) və Müslim (525), Bərra bin Azib (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v) on altı və ya on yeddi ay Beytülməqdisə tərəf (yönələrək) namaz qıldı. Peyğəmbər (s.a.v) (qibləsinin) Kəbəyə yönəldilməsini (qəlbən) istəyirdi. Nəhayət Allahu Təala Bu ayəni nazil etdi: "(Ya Rəsulum!) Biz sənin üzünün göyə tərəf çevrildiyini görürük... ." Bu ayə nazil olan kimi, Peyğəmbər (s.a.v) üzünü Kəbəyə tərəf çevirdi."

[112] Bu qorxunun "mübah bir səbəb olduqda" savaşdan və başqa şeydən qaynaqlanmasının fərqi yoxdur. Çünki Qurani Kərimdə belə buyurulur: "Əgər (nədənsə) qorxsanız, (namazınızı) piyada və ya minik üzərində (qılın)." (Bəqərə/239)
Yəni, qorxu və ya bunun kimi bir səbəbdən dolayı tam bir namaz qılmaq imkanınız olmazsa, sizə rahat gələn şəkildə "piyada və ya minəklərinizin üzərinə minərək" namazınızı qılın. İbni Ömər (r.a), "Qibləyə yönələrək və ya yönəlmiyərək" şəklində demişdir. Bununla əlaqəli, Nafi (r.a) belə dedi: "Mən, Abdullah bin Ömərin, bunu Rəsulullahdan eşidib zikir etdiyi görüşündəyəm. (Buxari/4261)

[113] Buxari (391), Cabir (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v), miniyi haraya dönürsə dönsün, onun üstündə (nafilə) namaz qılardı. (Bir rəvayətdə, "şərqə tərəf" şəklində keçir. Fərz namaz qılmaq istədikdə isə (miniyindən) enər və qibləyə yönələrdi." İbni Ömər (r.a)-dan edilən bir rəvayətdə də (1045): "Peyğəmbər (s.a.v) səfərdə... nafilə namaz qılardı" şəklindədir.

[114] Əzan və İqamə fərz olan namazlar üçün sünnətdir. Bunların məşru olduğuna dəlil, Buxari (602) və Müslimin (674), Malik bin Hüveyris (r.a)-dan rəvayət etdikləri bu hədis dəlalət edir: Peyğəmbər (s.a.v) buyurdu ki; "Namaz vaxtı girdikdə aranızdan biri sizin üçün əzan oxusun! Ən böyüyünüz də imamlıq etsin!"

Əbu Davudun (499), Abdullah bin Zeyd (r.a)-dan rəvayət etdiyi hədisdə də bu ifadə edilir: "Namaza qalxdığın zaman "Allahu əkbər, Allahu əkbər" deyərsən... ." Hədisdə keçən əmr vaciblik ifadə etməz. Çünki bunun vacib olmadığına dair başqa dəlillər var.

Əzanın sözləri bunlardı:

**اَللّٰهُ اَكْبَرُ اَللّٰهُ اَكْبَرُ، اَللّٰهُ اَكْبَرُ اَللّٰهُ اَكْبَرُ، اَشْهَدُ اَنْ لٓا اِلٰهَ اِلاّ اللّٰهُ، اَشْهَدُ اَنّ مُحَمّدًا رَسُولُ اللّٰهِ، حَىّ عَلَى الصّلَاةِ، حَىّ عَلَى الصّلَاةِ، حَىّ عَلَى الْفَلَاحِ، حَىّ عَلَى الْفَلَاحِ، اَللّٰهُ اَكْبَرُ اللّٰهُ اَكْبَرُ، لٓا اِلٰهَ اِلاّ اللّٰهُ**

---

***“Allahu əkbər - Allahu əkbər, Allahu əkbər-Allahu əkbər, Əşhədu ən lə iləhə illəllah - Əşhədu ən lə iləhə illəllah, Əşhədu ənnə Muhamməhədər-Rasulullah - Əşhədu ənnə Muhamməhədər-Rasulullah, Hayyə aləs-saləh – Hayyə aləs-saləh, Hayyə aləl-fələh – Hayyə aləl-fələh, Allahu əkbər – Allahu əkbər, Lə iləhə illəllah.”***

Ancaq sübh əzanında ikinci “***Hayyə aləl-fələh”***- dən sonra, **“اَلصَّلَاةُ خَيْرٌ مِنَ النَّوْمِ” (Əssalətu xayrun minənnəvm** (Namaz yuxudan daha xeyirlidir)**)** sözüdə əlavə edilir.

İqamənin sözləri belədir:

**اَللّٰهُ اَكْبَرُ اَللّٰهُ اَكْبَرُ، اَشْهَدُ اَنْ لَآ اِلٰهَ اِلاّ اللّٰهُ، اَشْهَدُ اَنّ مُحَمّدًا رَسُولُ اللّٰهِ، حَيّ عَلَى الصّلَاةِ، حَيّ عَلَى الْفَلَاحِ، قَدْ قَامَتِ الصّلَاةُ قَدْ قَامَتِ الصّلَاةُ، اَللّٰهُ اَكْبَرُ اللّٰهُ اَكْبَرُ، لَآ اِلٰهَ اِلاّ اللّٰهُ**

***“Allahu əkbər - Allahu əkbər, Əşhədu ən lə iləhə illəllah, Əşhədu ənnə Muhammədər-Rasulullah, Hayyə aləs-saləh, Hayyə aləl-fələh, Qad-qamətis-saləh, Qad-qamətis-saləh, Allahu əkbər – Allahu əkbər, Lə iləhə illəllah.”***

Əzan və İqamənin bu sözləri, Buxari, Müslimdə və başqalarının rəvayət etdikləri səhih hədislərlə sabit olmuşdur.

Əzanı eşidən kimsənin, müəzzinin dediyinin eynisini deməsi sünnətdir. Əzan bitdiyi zaman isə Peyğəmbər (s.a.v)-ə salət gətirər və varid olan duanı oxuyar.

Müslim (384) və başqası, Abdullah bin Amr (r.a)-dan Peyğəmbər (s.a.v)-dən bunu eşitdiyini rəvayət edirlər: “Müəzzinin səsini eşitdiyiniz zaman, onun dediyini deyin, sonra mənə salavat gətirin. Kim mənə bir salavat desə Allah Təala ona on salavat (rəhmət) deyər. Sonra Allahdan mənim üçün vəsilə istəyin. Çünki O, Cənnətdə elə bir yer, dərəcədir ki, ona yalnız Allahın bəndələrindən olan bir kimsə layiqdir. Allahdan O kəsin mən olmasını diləyirəm. Kim mənim üçün Allahdan vəsilə diləsə, ona mənim şəfaətim vacib olar.”

Buxari (589) və başqası, Cabir (r.a)-dan Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: “Kim əzan eşitdikdə bu duanı oxuyarsa, qiyamət günü şəfaətim ona vacib olar.”

Həmin dua budur:

**اَللّٰهُمّ رَبّ هٰذِهِ الدّعْوَةِ التّامّةِ وَالصّلَاةِ الْقَائِمَةِ اٰتِ مُحَمّدًا الْوَسِيلَةَ وَالْفَضِيلَةَ وَابْعَثْهُ مَقَامًا مَحْمُودًا الّذِى وَعَدْتَهُ**

***“Allahummə Rabbə həzihid-dəvətit-təamməh vəs-salətil-qaiməh, əti Muhəmmədənil-vəsilətə vəl-fadilətə. Vəb`ashu məqamən məhmudənilləzi vəadtəh.”***

***“Ey bu tam dəvətin (dəyişikliyə uğramayan Tövhid dəvətinin) və qılınacaq namazın Rəbbi olan Allahım! Muhamməd`ə (s.a.v) vəsiləni və fəziləti ver. Onu vəd etdiyin məqami-Mahmuda çatdır.” Çünki Qurani Kərimdə belə buyurulur: “Ola bilsin ki, Rəbbin səni məqami-Mahmud`a yüksəltsin.” (İsra/79)***

(Əzan oxunduqdan sonra) Peyğəmbər (s.a.v)-ə salat gətirmək və həmçinin müəzzinə, dua etmək sünnətdir. Ancaq əzandan daha aşağı səslə və ayrı şəkildə oxuyacaq ki, bunların əzanın sözlərində olduğu düşünülməsin.

Əzanı eşidən kimsə, “**حَيّ عَلَى الصّلَاةِ، حَيّ عَلَى الْفَلَاحِ،**” (***Hayyə aləs-saləh, Hayyə aləl-fələh)*** deyiləcək əsnada müəzzinin dediyini deyil, “ **لَا حَوْلَ وَلَا قُوّةَ اِلاّ بِاللّٰهِ**” **(Lə havlə və lə quvvətə illə billəh), deyəcək.** (Buxari: 588, Müslim: 385.)

Ayrıca Müəzzin, sübh namazında **“اَلصَّلَاةُ خَيْرٌ مِنَ النَّوْمِ” (Əssalətu xayrun minənnəvm)** dediyində, onun səsini eşidən kimsə **صَدَقْتَ وَبَرَرْتَ “Sadəqtə və bərartə” (doğru söylədin, Səsin gözəldi)** deməlidir.

***Namaza girdikdən sonra sünnətlər də 2 – dir:***

1. *Birinci təşəhhüd (oturuş və əttəhiyyat)[115],*
2. *Sübh namazında[116] və Ramazan ayının ikinci yarısında vitr namazında[117] oxunan "Qunut".*

---

Əzanda edilən şeylərin eynisini həmçinin İqamə eşidildiyi zaman edilməsi sünnətdir. Ancaq **قدْ قامَتِ الصّلَاةُ قدْ قامَتِ الصّلَاةُ** ***Qad-qamətis-saləh, Qad-qamətis-saləh (namaz başladı)*** sözündən sonra, **أَقَامَهَا اللهُ و أَدَامَهَا** **"Əqaməhəllahu və ədaməhə" (Allah onu ayaqda tutsun və davamlı etsin)** deyilir. (Əbu-Davud: 528)

[115] Bu mövzuda bir çox hədisi şəriflər vardır. Bunlardan bir, Buxarinin (1167) rəvayət etdiyi hədisdir: "Allah Rəsulu (s.a.v) günorta namazının iki rükətini qıldıqdan sonra arada oturmadan (üçüncü rükətə) qalxdı. Namazını bitirəndən sonra iki dəfə səcdə etdi, ondan sonra salam verdi." O halda Peyğəmbər (s.a.v)-in etdiyi səhvdən ötrü sadəcə səcdə etməklə kifayətlənməsi, birinci təşəhhüdün (oturuş və əttəhiyyat) sünnət olduğuna dəlildir.

[116] Hakim, Ebu-Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v) Sübh namazının ikinci rükətində rükudan başını qaldırdığı zaman hər iki əlini qaldırıb bu dua ilə dua edərdi: (Muğni`l Muhtac: 1/166)

**اَللّٰهُمّ اهْدِنِى فِيمَنْ هَدَيْتَ، وَعَافِنِى فِيمَنْ عَافَيْتَ، وَتَوَلّنِى فِيمَنْ تَوَلّيْتَ، وَبَارِكْ لِى فِيمَا اَعْطَيْتَ، وَقِنِى شَرّ مَا قَضَيْتَ، فَاِنّكَ تَقْضِى وَلَا يُقْضٰى عَلَيْكَ، وَاِنّهُ لَا يَذِلّ مَنْ وَالَيْتَ وَلَا يَعِزّ مَنْ عَادَيْتَ، تَبَارَكْتَ رَبّنَا وَتَعَالَيْتَ، فَلَكَ الْحَمْدُ عَلٰى مَا قَضَيْتَ، اَسْتَغْفِرُكَ اللّٰهُمّ وَاَتُوبُ اِلَيْكَ، وَصَلّى اللّٰهُ عَلٰى سَيّدِنَا مُحَمّدٍ وَعَلَى اٰلِهِ وَصَحْبِهِ وَسَلّمَ**

[117] Əbu-Davud, Həsən bin Əli (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v), mənə bəzi kəlimələri öyrətdi. Mən onları vitr namazında oxuyuram." O kəlimələr (yəni, qunut duası) budur: ***"Allâhumməhdinî fî mən hədəytə, və âfini fî mən âfəytə, və təvəllənî fî mən təvəlləytə, və bərik lî fî mə a'taytə, və qinî şərra mə qadəytə, fə innəkə taqdi və lâ yuqdâ aləykə və innəhu lə yəzillu mən vâləytə və lə yə'ızzu mən âdəytə təbəraktə rabbənə və tə'âləytə, fə ləkə'l-hamdu alə mə qadəytə, əstağfirukə'llâhummə və ətûbu iləykə və sallallâhu alə səyyidinə Muhammədin və alə əlihi və sahbihi və sælləm."***

Tirmizi (466), "Keçən bu hədisin həsən olduğunu və vitrdə qunutla əlaqəli Peyğəmbər (s.a.v) – dən bildirilən duadan daha gözəl bir şey bilmədiyini," demişdir.

## *FƏRZİ VƏ SÜNNƏSİYLƏ NAMAZ QILMANIN QAYDASI*

### *Namaza hazırlıq*

Namaz qılmaq istəyən şəxs öncə üzərində və namaz qılacağı yerdə namazın səhih olmasına əngəl olan nəcasət cinsindən bir şeyin olmamasına diqqət etməlidir[118]. Sonra dəstəmaz[119] alıb qibləyə dönər[120]. Qəlbini dünya düşüncələrindən mümkün qədər təmizləyər. Uca Alahın mənəvi hüzurunda olduğunu düşünər[121].

Sonra hansı namazı qılınacaqsa, ona qəlb ilə niyyət edər[122]. Məsələn, "niyyət etdim Sübh namazının iki rükət sünnətini qılmağa Allah rizası üçün." deyərək qılacağı namazın hansı olduğunu və rükətlərini bildirər. (Niyyəti qəlb ilə etmək fərz, dil ilə etmək isə, sünnətdir. Qəlbin niyyətdən qafil olması halında dil ilə edilən niyyət səhih deyil[123].)



*Şəkil 1. Namaza hazırlıq və Niyyət*

---

118 Hədisi şərif: "Heyz başladıqda namaz qılma. Heyzin saylı günləri keçdik də özünü qandan təmizlə və namaz qıl!"
Uca Allah məalən belə buyurur: "və paltarını təmiz saxla." (Müddəssir, 4)

119 Uca Allah məalən belə buyurur: "Ey insanlar! Namaz qılmağa qalxdığınız zaman üzlərinizi, dirsəklərə qədər əllərinizi və başlarınızı məsh edib topuqlara qədər ayaqlarınızı yuyun. Əgər cənabətlisinizsə, yuyunaraq təmizlənin." (Maidə, 6)

120 Hədisi şərif: "...Artıq üzünü Məscidi Haram tərəfinə çevir..." (Bəqərə, 144)

121 Uca Allah məalən belə buyurur: "qafillərdən olma." (Əraf, 205)
Uca Allah məalən belə buyurur: "Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl !" (Taha, 14)
Hz.Peyğəmbər belə buyurmuşdur: "Xatirindən dünya ilə əlaqəli bir şey keçirmədən iki rükət namaz qılanın keçmiş günahları əfv edilər." (Buxari və Müslim (Hz.Osmandan)

122 Hədisi şərif: "Əməllər ancaq niyyətlə dəyərləndirilir." (Buxari, 1. Müslim, 1907)

123 Əhməd Hilmi əl-Koği əd-Diyarbəkiri: Hədiyyətul Həbib

## *Ehram təkbiri*



Şəkil 2. Ehram təkbiri



Niyyətin həmən ardından (yəni, araya fasilə girmədən) iki əlini barmaqları azacıq bir-birindən ayrı [124], ovuc içləri açıq vəziyyətdə qibləyə çevrilərək [125] və baş barmaqları qulaq yumşaqları hizasına qədər qaldıraraq[126] Ehram[127] təkbirini alar. Yəni, "Allahu Əkbər" [128] deyilir. Rükuya gedərkən, rükudan qalxarkən və birinci təşəhhüddən qiyama qalxdıqdan sonra eyni şəkildə əllər qaldırılır[129].

---

[124] Əllərini qaldırarkən ovuclarını qibləyə döndərər. Ər-Ravzada bildirildiyinə görə əllərini qaldırarkən barmaqlarının arasını normal bir şəkildə açar. (Xətibi Şirbini: Muğnil Mubtac)

[125] Əllərini qaldırarkən ovuclarını qibləyə döndərər. Ər-Ravzada bildirildiyinə görə əllərini qaldırarkən barmaqlarının arasını normal bir şəkildə açar. (Xətibi Şirbini: Muğnil Mubtac)

[126] Hədisi şərif: "Hz.Peyğəmbər (s.a.v) təkbir sırasında əllərini iki çiyin hizasına qədər qaldırardı." (Buxari, 705. Müslim, 390)

Nəvəvi Müslimin şərhi adlı əsərində və digər əsərlərində belə demişdir: "İki çiyinlərinin hizasına qədər" ifadəsinin mənası barmaq uclarının iki qulağın ən üst qısmına qədər, baş barmaqlarının qulaq məmələrinə qədər, ovuc içlərinin də çiyinlərinə qədər qaldırılmasıdır."

[127] Hədisi şərif: "Namazın açarı dəstəmazdır. Namazda (namazın xaricindəki şeyləri) haram qılan (və namazı başlatan şey) təkbir, (namaz əsnasında haram olan şeyləri) halal edən şey isə, salam verməkdir." (Əbu Davud, Salat, 618. Tirmizi, Təharət, 3)

Namaza başlamaq üçün alınan təkbirə "təkbirul ihram" yəni, haram qılan təkbir deyilməsinin səbəbi budur ki: Bu təkbirlə birlikdə namazdan əvvəl edilməsi halal olan yemə, içmə, danışma və s. fellər haram olur. (Xətibi Şirbini: Muğnil Mubtac)

İbn Münzir və başqa alimlərin nəql etdiyinə görə: Namaz qılan kimsənin başlama təkbirini alarkən əllərini çiyin hizasına qədər qaldırmasının sünnət olduğu mövzuda icma var. (İcma, 32)

Əllərini qaldırarkən ovuclarını qibləyə döndərər. Ər-Ravzada bildirildiyinə görə əllərini qaldırarkən barmaqlarının arasını normal bir şəkildə açar. (Xətibi Şirbini: Muğnil Mubtac)

[128] Hədisi şərif: "Məni necə namaz qılarkən görsəniz elə namaz qılın." (Buxari, İstizan, 6251)

Sual: Sözlər gözlə görünməz. Elə isə, "Allahu Əkbər" demənin fərz olduğuna dəlil olaraq yuxarıdakı hədis necə gətirilə bilər?

Cavab: Hədisdə qəsd edilən (bizatihi gözlə görmək deyil) bilməkdir. Hədisin mənası "Mənim necə namaz qıldığımı bilirsinizsə, siz də elə qılın" deməkdir.

[129] Əhməd Hilmi əl-Koği əd-Diyarbəkiri: Hədiyyətul Həbib

### *Qiyam*

Ehram təkbirindən sonra, sağ əl ilə sol əlin biləyini və qoldan bir hissəsini bağlayacaq formada[130] və göbəyin yuxarısında və sinənin altında bağlayar[131]. Gözlər isə səcdə yerinə baxar[132]. Ayaqların arası bir bir qarış açıq qalar[133].



*Şəkil 3. Qiyam*

**Qiyamda qadın ilə kişinin fərqi:**

- Kişilər qiraətin səsli oxunduğu namazlarda qiraəti səsli oxuya bilər,
- Qadınlar yad kişilərin olduğu yerdə səsini azaldar.[134]

---

130 Hədisi şərif: Vail bin Hicirdən nəql olunur: "Peyğəmbər (s.a.v) in namaza girərkən əllərini qaldırdığını sonra sağ əlini sol əlinin üzərinə qoyduğunu görmüşdür." (Müslim, 401)

131 Ər-Ravzadada daha doğru olduğu deyilən görüşə görə "bir adam başlama təkbirindən sonra əllərini sinəsinin altına qədər endirər." keçir. (Xətibi Şirbini: Muğnil Muhtac)

132 Namaz qılan adamın bütün namaz boyunca yerə baxması sünnətdir. Çünki, baxışı bir yerdə toplamaq xuşuyu əldə etmək üçün ən uyğun formadır. İnsanın səcdə etdiyi yer bunun üçün ən üstün və ən rahat baxa biləcəyi yerdir. (Xətibi Şirbini: Muğnil Muhtac)

133 Qiyamda ayaqları bir qarış miqdarında bir-birindən ayrı saxlamaq. Ənvar (adlı əsərdə) da yazıldığına görə isə, dörd barmaq miqdarında ayrı saxlamaq sünnətdir. Bu iki ayrı görüşü bir araya gətirmək bu formada mümkündür: Ayaqları barmaq tərəfdən bir qarış, topuq tərəfdən isə dörd barmaq qədər bir-birindən ayrı saxlamaq. (Əhməd Hilmi əl-Koği əd-Diyarbəkiri: Hədiyyətul Həbib)

134 Fitnə və fəsadın qabağı alınması üçün. Beləliklə Qurani Kərimdə belə buyrulur: “Əgər (Allahdan) qorxursanızsa, sözü (yad kişilərə qarşı) yumşaq söyləməyin ki, qəlbində xəstəlik olan kimsə pis ümidə düşməsin, gözəl və münasib sözlər söyləyin.” (Ahzab: 32)

Əllər bağlandıqdan sonra, birinci "İftitah (vəccəhtu...)" duası[135], ardından da Əuzu[136] Bəsmələ[137] ilə Fatihə surəsi oxunur[138].



---

[135] Hədisi Şərif uzun olduğu üçüb burda zikr edə bilmədik. Ətraflı baxa bilərsiniz. (Müslim, Salatul musafirin. Əbu Davud, Tirmizi, Nəsai, İbn Macə)

**İftitah duası**

**Ərəbcəsi:**

**وَجَّهْتُ وَجْهِيَ لِلَّذِي فَطَرَ السَّمَاوَاتِ وَالْأَرْضَ حَنِيفًا مُسْلِمًا أَنَا مِنْ الْمُشْرِكِينَ إِنَّ صَلَاتِي وَنُسُكِي وَمَحْيَايَ وَمَمَاتِي لِلهِ رَبِّ الْعَالَمِينَ لَا شَرِيكَ لَهُ وَ بِذَلِكَ أُمِرْتُ وَ أَنَا مِنْ الْمُسْلِمِينَ**

**Latıncası:** {Vəccəhtu vəchiyə lilləzi fətəras-səməvəti vəl-ərda hanifən muslimən və mə ənə minəl-muşrikin. İnnə saləti və nusuki və məhyəyə və məməti lilləhi rabbil aləminə lə şərikə ləhu və bi zəlikə umirtu və ənə minəl muslimin.}

**Mənası:** {Mən hənif olaraq, üzümü, göyləri və yeri yoxdan yaratan Allaha çevirdim və mən müşriklərdən deyiləm. Şübhəsiz mənim namazım, qurbanım, həyatım və ölümüm hamısı aləmlərin Rəbbi Allah üçündür. Onun ortağı yoxdur. Mənə yalnız bu əmr olundu və mən müsəlmanlardanam.}

[136] Uca Allah məalən belə buyurur: "Quran oxuduğunda qovulmuş şeytandan Allaha sığın." (Nahl, 98)

**Əuzu**

**Ərəbcə:**

أعُوذُ بِاللهِ مِنْ الشَّيْطَانِ الرَّجِيم

**Latınca:** {Əuzu billəhi minə ş-şəydanir-racim.}

**Mənası:** {Qovulmuş şeytandan Allaha sığınıram.}

[137] Hədisi şərif: "Hz.Peyğəmbər (s.a.v) Fatihənin yeddi ayət olduğunu bildirmiş və "Bismilləhir-rahmənir-rahim" i də Fatihənin bir ayəti olaraq saymışdır" (İbn Huzeymə, Salət 493)

[138] Hədisi şərif: "Fatihə oxumayanın namazı yoxdur." (Buxari, Azan 756. Müslim, Salət, 872) Hədisi şərif: "Fatihə oxunmayan namaz kifayət deyil." (İbn Hibban, Salət 1789. İbn Huzəyfə 490)

**Not:** Fatihə oxuyan adam "dad" hərfi yerinə "z" hərfini söyləsə, daha doğru olan görüşə görə oxunuşu səhih olmaz. (İmam Nəvəvi: Minhacut Talibin)

**Fatihə surəsi**

**Ərəbcə:**

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَـٰنِ ٱلرَّحِيمِ ۝ ٱلْحَمْدُ لِلَّهِ رَبِّ ٱلْعَـٰلَمِينَ ۝ ٱلرَّحْمَـٰنِ ٱلرَّحِيمِ ۝ مَـٰلِكِ يَوْمِ ٱلدِّينِ ۝ إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ ۝ ٱهْدِنَا ٱلصِّرَٰطَ ٱلْمُسْتَقِيمَ ۝ صِرَٰطَ ٱلَّذِينَ أَنْعَمْتَ عَلَيْهِمْ غَيْرِ ٱلْمَغْضُوبِ عَلَيْهِمْ وَلَا ٱلضَّآلِّينَ ۝

**Latınca:** {Bismilləhir-rahmənir-rahim ۝ Əlhəmdu lilləhi rabbil aləmin۝ Ərrahmənir-rahim ۝ Məliki yəvmid-din۝ İyyəkə nə'budu və iyyəkə nəstəi'n۝ İhdinəs-siradal mustəqim۝ sıradal-ləzinə əna'mtə aləyhim ğayril məğdubi aləyhim vələddallin ۝}

**Mənası:** {Mərhəmətli və Rəhmli Allahın adı ilə! ۝Həmd olsun aləmlərin Rəbbi Allaha, ۝ Mərhəmətli və Rəhmliyə, ۝Haqq-hesab gününün Hökmdarına! ۝Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik. ۝ Bizi doğru yola yönəlt –۝ nemət bəxş etdiyin şəxslərin yoluna, qəzəbə uğramışların və azmışların yoluna yox!۝}

Fatihəni bitirdikdən sonra "Amin" deyilir[139]. Sonra bir surə və ya qısa bir surə uzunluğunda ən az bir ayət oxunur[140]. Sonra ehram təkbirində olduğu kimi "Allahu Əkbər" deyərək və əlləri qaldıraraq rükuya gedilir[141]. (Bu xüsusda qadınlarda kişilər kimi edər.)



[139] Hədisi şərif: "Rasulullah (s.a.v), Ğayril məğdubi aləyhim vələddallin dedikdən sonra "Amin آمِين" dedi. Taki onun arxasında, birinci safda namaz qılanlar eşitə bildi." (Əbu Davud 934)

[140] İstəyir imamın istəyir tək başına namaz qılan adamın (qiraətin gizli olduğu namazda belə olsa) namazda Fatihədən sonra bir surə oxuması sünnətdir. Ancaq üç rükətli və dörd rükətli namazların üçüncü və dördüncü rükətlərində oxunması sünnət deyil. (Buxari, Azan 772. Müslim, Salət 881)

**Qurandan Başqa Bir Surə**

**Ərəbcə:**

{بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَـٰنِ ٱلرَّحِيمِ ۞ قُلْ هُوَ ٱللَّهُ أَحَدٌ ۞ ٱللَّهُ ٱلصَّمَدُ ۞ لَمْ يَلِدْ وَلَمْ يُولَدْ ۞ وَلَمْ يَكُن لَّهُۥ كُفُوًا أَحَدٌۢ ۞}

**Latınca:** {Bismilləhir-Rahmənir-Rahim۞ Qul huvəllahu əhad۞ Allahussaməd۞ ləm yəlid və ləm yuləvə ləm۞ yəkul-ləhu kufuvən əhad۞}

**Mənası:** {Rəhman və Rəhimli olan Allahın adı ilə۞ De: "O Allah Təkdir!۞ Allah Möhtac deyildir.۞ O, nə doğub, nə doğulub,۞ Onun bənzəri də yoxdur".۞

[141] Hədisi şərif: "Peyğəmbər (s.a.v) təkbir ilə namaza giriş etdi. Təkbir alarkən əllərini çiyinləri hizasına qədər qaldırdı. Rükuya getmək üçün təkbir alərkən eynisini etdi..." (Buxari 705. Müslim 390, İbn Ömərdən)

### *Rüku*

Rükuda [142] barmaqlar açıq olduğu halda[143], əllərinin içi ilə dizlərini tutar[144]. Baş, boyun və kürək eyni bərabərlikdə olmalıdır[145]. Dizlər əyilmədən dik tutulur[146].

Rükuda ən az üç dəfə "Sübhanə rabbiyəl azim " deyilir[147]. Rükuda tumaninə edilir (üzvün yerinə yerləşəcək qədər gözlənməsi)[148].



*Şəkil 4. Rüku*

**Rükuda kişi ilə qadının fərqi:**

- Kişilər Rükuda qarnını budlarından uzaqlaşdırar.[149]
- Qadınlar Rükuda qarnını budlarına yaxınlaşdırar.[150]

---

[142] Uca Allah məalən belə buyurur: "Rüku edin, səcdə edin." (Hacc 77)
[143] "Barmaqlarını orta bir şəkildə açar." (İbn Hibban, Salət, Beyhaqi, Salət, ll, 116.)
[144] "Rükuya gedən adam diz qapaqlarını ovuclarıyla tutar." (Buxari, Azan 828, Əbu Davud, Salət 731)
[145] "Rükunun ən mükəmməli, kürəyini və boynunu dümdüz bir formada bir səhifə kimi tam əyməkdir." (Müslim, Salətül müsafirin, 1811)
[146] "Rüku sırasında ayaqlarını və baldırlarını dimdik saxlayar. Çünki bu rüku etməyə çox yardımçı olar." (Xətibi Şirbini: Muğnil Muhtac)
[147] Hədisi şərif: "...Rükuda "Sübhanə rabbiyəl azim." dedi" (Müslim 772)
**Rükuda oxunan dua**
**Ərəbcə:**
{سُبْحَانَ رَبِّيَ الْعَظِيمِ}
**Latıncası:** {Sübhanə rabbiyəl azim}
**Mənası:** {Böyük olan Rəbbimi hər növ nöqsanlıqlardan tənzih edirəm}
(Buxari 724, Müslim 397) Qaynaqda verdiyimiz "Namazını düzgün qıla bilməyən şəxsi Hz.Peyğəmbərin (s.a.v) xəbərdarlıq etməsi" haqqında olan hədisdir.
[149] Hədisi şərif: "Hz.Peyğəmbər (s.a.v) səcdə edərkən budları arasında boşluq saxlayar və qarnını qismən də olsa, budlarına yükləməzdi." (Əbu Davud 735)
[150] "Hz.Peyğəmbər (s.a.v) namaz qılan iki qadını ziyarət etdi. Bu arada onlara "Səcdə edəcəyiniz zaman yerə doğru yaxınlaşın. Çünki bu xüsusda qadın kişi kimi deyil" dedi." (Beyhaqi 2/223)

## *İ'tidal*

Rükudan sonra "Səmiallahu limən həmidəh"[151] deyərək və əlləri qaldıraraq qalxılır[152]. Qalxdıqda əllərini aşağı salar. Tumaninə edər[153] və tumaninə edərkən "Rabbənə ləkəl həmd..." duasını oxuyar[154]. Sonra "Allahu Əkbər" deyib əlləri qaldırmadan səcdəyə gedər[155]. Təkbir bir rükundan digərinə çatana qədər uzatılır.



*Şəkil 5. Rükudan qalxarkən əllərin qaldırılması*



*Şəkil 6. Rükudan qalxdıqdan sonra/ İ`tidal*

---

[151] "Rükudan qalxarkən "Səmiallahu limən hamidəh deyilir." (Buxari, Azan 690, 747. Müslim, Salət 1061)

[152] "Hz.Peyğəmbər təkbir ilə namaza girdi. Təkbir alarkən əllərini çiyin hizasına qaldırdı. Rükuya gedmək üçün təkbir alarkən eynisini etdi. Bu sırada "Səmiallahu limən həmidəh" dedikdən sonra, yenə eynisini etdi..." (Buxari 705, Müslim 390)

[153] Ər-Ravzada belə deyilmişdir: Rükuda olduğu kimi rükudan qalxdıqdan sonra bir müddət hərəkətsiz qalmaq (tumaninə) fərzdir. (Xətibi Şirbini: Muğnil Muhtac)

[154] Hədisi şərif: "və "Rabbənə və ləkəl hamd" dedi." (Buxari 705, Müslim 390)

[155] "Əbu Hüreyrədən rəvayət nedilir: "O, dostlarına namaz qıldırırdı. Əyildiyi və qalxdığı vaxt "Allahu Əkbər" deyirdi. Namazı bitirib çevrildiyində belə dedi: Mən namaz qılma baxımından sizdən Rasulullaha daha çox bənzəyirəm." (Buxari 752, Müslim 392)

## *Səcdə*



*Şəkil 7. Səcdə*

Səcdəyə[156] gedərkən öncə dizlərini bir-birindən bir qarış aralıqda qoyar[157] sonra əllərini daha sonra isə, alnını və burnunu yerə qoyar[158]. (Səcdədə alın və burnun yerin sərtliyini hiss etməsi şərtdir.[159]) İki əl, barmaqları birləşik halda qibləyə doğru[160] və çiyinlər hizasında qoyulur[161]. Səcdədə tumaninə edilir. Səcdədə ən az üç dəfə "Sübhanə rabbiyəl ala" deyilir[162].

**Səcdədə kişi ilə qadının fərqi:**

- Kişi səcədə edərkən dirsəklərini yanlarından uzaqlaşdırar.[163]
- Kişi səcdələrdə qarnını budlarından uzaqlaşdırar.[164]
- Qadın səcdə edərkən dirsəklərini yanlarına yaxınlaşdırar.[165]
- Qadın səcdələrdə qarnını budlarına yaxınlaşdırar.[166]

---

[156] Uca Allah məalən belə buyurur: "Rüku edin, səcdə edin." (Hacc 77)

[157] Dizləri və ayaqları arasında bir qarış məsafə saxlayar. (Xətibi Şirbini: Muğnil Muhtac)

[158] "Təkbirin ardından, öncə dizlərini sonra əllərini yerə qoyar." Bunun dəlili Əbu Davud və başqalarının rəvayət etdiyi hədisdir. Tirmizi bu hədisi həsən qəbul etmişdir. (Əbu Davud, Salə 838. Tirmizi Əbvabus salət, 268. Nəsai ət-Tatbiq, 1088. İbn Macə, İqamətus salət və sünnətu fiha, 882)

Hədisi şərif: "Yeddi sümük üzərinə səcdə etməyim əmr edildi." Hz.Peyğəmbər (s.a.v) bunu söylədikdən sonra əliylə burnu, əlləri, dizləri və ayaq barmaqlarına işarə etdi. (Buxari, Azan 812. Müslim, Salət 1098)

[159] Başın ağırlığının səcdə etdiyi yerə ulaşması fərzdir. (İmam Nəvəvi: Minhacut Talibin)

[160] Barmaqların bitişdirilmiş və qibləyə doğru uzatılmış olmasını Buxari rəvayət edir, digər xüsusları isə, Beyhaqi rəvayət edir (Buxari, Azan 828. Beyhaqi, Salət ll, 127)

[161] Səcdədə əllərin omuz hizasına qoyulmasını Əbu Davud rəvayət edir. (Əbu Davud, Salət 730)

[162] Hədisi şərif: "...sonra biraz duracaq formada səcdə et..." (Buxari 724, Müslim 397)

Hədisi şərif: "...Səcdədə "Sübhanə Rabbiyəl alə" dedi. (Müslim 772)

Mənası: Uca Rəbbimi hər cür nöqsanlıqlardan tənzih edirəm.

[163] Hədisi şərif: "Peyğəmbər (s.a.v) namaz qılarkən qoltuq altlarının ağlığı açığa çıxacaq qədər əlləri və yanları arasında boşluq saxlayardı.." (Buxari 383, Müslim 495)

[164] Hədisi şərif: "Hz.Peyğəmbər (s.a.v) səcdə edərkən budları arasında boşluq saxlayar və qarnını qismən də olsa, budlarına yükləməzdi." (Əbu Davud 735)

[165] (Kişilər) Rüku və səcdədə dizlərini bir-birindən ayırar, qarnını ayaqlarından yüksəkdə saxlayar, qollarını da bədənin yanlarından uzaqlaşdırar. Qadın və iki cinsiyətli adam isə bitişdirər. (İmam Nəvəvi: Minhacut Talibin)

[166] "Hz.Peyğəmbər (s.a.v) namaz qılan iki qadını ziyarət etdi. Bu arada onlara "Səcdə edəcəyiniz zaman yerə doğru yaxınlaşın. Çünki, bu xüsusda qadın kişi kimi deyil" dedi." (Beyhaqi 2/223)

### *İki səcdə arasında oturuş | İftiraş oturuşu*

Sonra əllər qaldırılmadan təkbir alınaraq [167] iftiraş formasında oturular[168].

Namaz içindəki oturuşlar, son oturuş xaric iftiraş formasında gerçəkləşdirilir. Yəni, sol ayağını yatıraraq üzərinə oturulur və sağ ayağını barmaqları qibləyə doğru olacaq şəkildə dik qoyulur[169]. Əllər, barmaqlar bitişik halda, ucları dizlərin önünə yaxın bir şəkildə budların üzərinə qoyulur [170] . İki səcdə arasında "Rabbiğfir li vərhamni vəcburni vərzuqni vəhdini və afini və'fu anni" duası oxunar[171].





*Şəkil 8. İki səcdə arası oturuş/ İftiraş*

[167] Adam, səcdədən başını qaldırmağa başladığı anda əllərini qaldırmadan təkbir alar. Bunun dəlili Buxari və Müslimin rəvayət etdiyi hədislərdir. (Buxari, Azan 738. Müslim, Salət 860)

[168] Hədisi şərif: "Hz.Peyğəmbər (s.a.v) başını səcdədən qaldırdığında dimdik oturacaq hala gəlmədikcə ikinci səcdəyə gedməzdi." (Buxari, Azan 792. Müslim, Azan 1110)

[169] Adam oturarkən sol ayağını yerə yayıb sağ ayağını dik saxlayaraq oturar. Bunun dəlili, Tirmizi hədis rəvayət etmiş və həsən olduğunu söyləmişdir. (Tirmizi, Əbvabüs salat 260)

[170] Hədisi şərif: "Hz.Peyğəmbər namazda oturduqda əllərini dizləri üzərinə qoyardı..." (Müslim, 580)

Adam iki səcdə arası oturuşda əllərini baldırlarının üzərində diz qapaqlarına yaxın bir yerə, barmaq başları diz qapaqları ilə eyni hizaya gələcək şəkildə qoyar. (Xətibi Şirbini: Muğnil Muhtac)

[171] Bu duanı oxumanın səbəbi Əbu Davud və geri qalanını İbn Macənin rəvayət etdiyi hədisdir. (Əbu Davud, Salət 850. İbn Macə, İqamətus salət 898)

## *İkinci səcdə*

Sonra "Allahu Əkbər" deyib ikinci səcdəyə gedilir.[172] Bu səcdə də birinci səcdədə olduğu kimi eyni tərtib üzərinə olur və ən az üç dəfə "Subhanə rabbiyəl ala" deyilir.



*Şəkil 9. İkinci səcdə*



*Şəkil 10. Səcdə edərkən ayaqların qoyuluşu*

---

[172] Hədisi şərif: "...Sonra biraz duracaq şəkildə təkrar səcdə et..." (Buxari 74, Müslim 397)

**Not!** Birinci səcdədə zikr etdiyimiz feillər və dəlillər ikincidə də keçərlidir.

## *İstirahət oturuşu*

Sonra "Allahu Əkbər" deyərək səcdədən qalxıb tumaninə miqdarı oturulur[173]. Tumaninə miqdarı oturduqdan sonra əllərin içini yerə yaslayaraq[174] ikinci rükətə başlamaq üçün qiyama qalxılır[175].



*Şəkil 11. İstirahət oturuşu/ İkinci səcdədən sonra*

[173] Məşhur olan görüşə görə səcdədən ayağa qalxma mövzusunda, bütün rükətlərdə ikinci səcdədən sonra azacıq bir istirahət oturuşu oturmaq sünnətdir. (Xətibi Şirbini: Muğnil Muhtac) Bu görüşün dəlili Buxarinin rəvayət etdiyi hədisdir. (Buxari, Azan 824)

[174] Adam bu hərəkəti, "Ovuc içlərini və barmaqların alt qismini yerə yaslayaraq" edər. (Xətibi Şirbini: Muğnil Muhtac)

[175] Səcdə və qunutdan qalxarkən əllərinə yaslanmaq sünnətdir. Çünki, bu alçaq könüllülüyə da çox uyğun olduğu kimi namaz qılan kimsənin qalxmasına da yardımçı olar. Hz. Peyğəmbərin (s.a.v) belə etdiyi səhih hədislərdə keçir. (Xətibi Şirbini: Muğnil Muhtac, "Buxari, Azan 824")

**Not:** İstirahət oturuşunda həyata keçən qaydalar eyni iki səcdə arasında olan qaydalar kimidir.

### *İkinci rükət*

İkinci rükəti qılmaq üçün qiyama qalxdıqdan sonra "İftitah" duası və "əuzu" xaric digər oxunuşlar və hərəkətlər eyni birinci rükətdəki kimi davam edər. Yəni, ikinci rükətdə əllər birinci rükətdəki kimi bağlanır, "bəsmələ" ilə "Fatihə" surəsi, ən az bir surə və ya bir ayə oxunar. Sonra yenə birinci rükətdə olduğu kimi rüku və səcdə edilir. Bununla ikinci rükətin sonuna yaxınlaşılmış olur.[176]



*Şəkil 13. Qunut oxuma şəkli*



*Şəkil 12. İkinci rükət*

**Not!** Əgər qılanan namaz "Sübh" namazının ikinci rükəti və ya Ramazanın son on beş günündəki vitrin sonuncu rükətidirsə, rükudan qalxıb dualar oxunduqdan sonra[177] səcdəyə getmədən öncə əllər qaldırılaraq ovucların içi səmaya meyilli olduğu halda bir-birinə birləşdirərək[178] "Qunut"[179] duası oxunur.

---

[176] **Not!** Birinci rükətdə zikr etdiyimiz feillər və dəlillər eyniylə ikinci rükətdə də keçərlidir.

[177] Sübh namazının ikinci rükətində rükudan doğrulduqdan sonra, ayaq üstə hərəkətsiz durma əsnasında zikrləri oxuduqdan sonra qunut oxumaq sünnətdir. Bunu Beğavi və digər alimlər zikr etmiş, İsnevi də onaylamışdır.

Maverdi belə demişdir: Qunut, səmiallahu limən hamidəh və rabbənə ləkəl hamd ifadələrini bitirdikdən sonra oxunur.

İbn Rifa da ancaq bu cümlələrin söylənəcəyini bildirmişdir. (Xətini Şirbini: Muğnil Muhtac)

[178] Qunut və bütün dualarda əlləri birləşdirib göyə doğru qaldırmaq. Pis bir şeyin şərrinin qaldırılması üçün edilən dualarda isə, ovuc içini yerə çevirmək sünnətdir. (Əhməd Hilmi əl-Koği əd-Diyarbəkiri: Hədiyyətul Həbib)

Doğru görüşə görə qunutda və digər dualarda əlləri qaldırmaq sünnətdir. (Beyhaqi, Salət ll, 212)

[179] Qunutun sünnət olmasının səbəbi Hakimin əl-Müstədrək adlı əsərində Əbu Hüreyrədən (r.a) rəvayət etdiyi bu hədisdir: "Allah Rasulu (s.a.v) Sübh namazının ikinci rükətində rükudan başını qaldırarkən əllərini qldırar və bu duanı oxuyardı: Allhumməhdini fimən hədəyt..." (Hakim, Marifətus sahabə, lll, 172.)

Beyhaqi bu hədisi Sübh namazı və vitr namazının qunutu mövzusunda rəvayət etmişdir. (Beyhaqi, Salət ll, 209)

---

**Qunut duası**

**Ərəbcə:**

{ اللّٰهُمَّ اهْدِنِي فِيمَنْ هَدَيْتَ وَعَافِنِي فِيمَنْ عَافَيْتَ وَتَوَلَّنِي فِيمَنْ تَوَلَّيْتَ وَبَارِكْ لِي فِيمَا أَعْطَيْتَ وَقِنِي شَرَّ مَا قَضَيْتَ إِنَّكَ تَقْضِي وَلَا يُقْضَى عَلَيْكَ وَإِنَّهُ لَا يَذِلُّ مَنْ وَالَيْتَ تَبَارَكْتَ رَبَّنَا وَتَعَالَيْتَ فَلَكَ الْحَمْدُ عَلَى مَا قَضَيْتَ اَسْتَغْفِرُكَ اللّٰهُمَّ وَاَتُوبُ اِلَيْكَ وَصَلَّى اللهُ عَلَى سَيِّدِنَا مُحَمَّدٍ وَعَلَى آلِهِ وَصَحْبِهِ وَسَلَّمَ}

**Latıncası:** {Allahumməhdini fimən hədəyt. Və afini fimən afəyt. Və təvəlləni fimən təvəlləyt. Və bərik li fimə adayt. Və qini şərrə mə qadəyt. Fə innəkə təqdi və lə yuqda aləykə və innəhu lə yəizillu mən vələyt. Və lə yəizzu mən adəyt. Təbəraktə rabbənə və təaləytə fə ləkəl hamdu alə mə qadayt. Əstəğfirukəllahummə və ətubu iləyk. Və sallallahu alə səyyidinə Muhammədin və alə alihi və sahbihi və səllim.}

**Mənası:** {Ey Allahım hidayətə çatdırdığın adamlardan mənə də hidayət ver. Verdiyin afiyətlərdən məni afiyətdə qıl. Qoruduğun şeyin şərrindən məni də qoru. Sən hökm edənsən. Kimsə sənə hökm edə bilməz. Sənin dost etdiyin kimsə zəlil olmaz. Sənin düşmən olduğun əziz olmaz. Sən ucasan. Ey rəbbimiz sən böyüksən. Hökm etdiyinə qarşılıq həmd sənə məxsusdur. Ey Allahım səndən məğfirət istəyir sənə yönələrik. Əfəndim Muhamməd sallahu aleyhi və səlləmə, əhlinə və əshabına salat və salam eylə.}

**Not:** Qunutdan sora əllər üzə sürtülməz. O şəkildə səcdəyə gedilər. (İmam Nəvəvi: Minhacut Talibin)

**Not:** Məşhur olan görüşə görə mütləq olaraq olmasada ancaq meydana gələn bir fəlakət səbəbiylə digər fərz namazlarda qunut oxunması məşhurdur. (İmam Nəvəvi)

## *İlk təşəhhüd*

Əgər qılınan namaz üç və ya dörd rükətlidirsə, ikinci rükətin son səcdəsindən sonra iftiraş formasında oturar[180]. Bu oturuş zamanı sol əl açıq,[181] sağ əl şəhadət barmağı xaric digər barmaqlar yumulu halda dizlərin üzərinə qoyular[182]. Baş barmaq işarət barmağına birləşdirilər[183].



*Şəkil 15. İlləllah kəliməsinə çatdıqda işarət barmağının şəkli*



*Şəkil 16. Təşəhhüddə əllərin qoyulma şəkli*



*Şəkil 14. Birinci təşəhhüd*

---

[180] İftiraşın ediliş şəkli və dəlilini yuxarıda zikr etdiyimiz üçün bir daha təkrar zikr etmədik. Öncəki iftiraş şəklinə baxa bilərsiniz.

[181] Adam hər iki oturuşda sol əlini sol diz qapağının ucuna, barmaq ucları diz qapağına yaxın bir formada qoyar. Bu əsnada barmaqları yayar. (Xətibi Şirnini: Muğnil Muhtac) Bunun dəlili Müslimdəki hədisdir. (Müslim, Məsacid 1309)

[182] Adam sağ əlini sağ dizinə qoyduqdan sonra sağ əlindən sərçə barmağını və üzük barmağını bükər. Daha qüvvətli görüşə görə orta barmaq da belədir. Bu mövzuda dəlil Müslimin rəvayət etdiyi hədisdir. (Müslim, Məsacid 1311)

[183] Daha qüvvətli görüşə görə (barmaqlarla 53 rəqəmini göstərən adamın etdiyi kimi) baş barmaq işarət barmağına birləşdirilir. Adam baş barmağını işarət barmağının ələ birləşdiyi yerə qoyar. Bunun dəlili Müslimin rəvayət etdiyi hədisdir: "Hz.Peyğəmbər (s.a.v) namazda oturduğu zaman sol əlini sol dizinə, sağ əlini sağ dizinə qoyar və sağ əli ilə 53 rəqəmini göstərəcək formada işarət edib, işarət barmağı ilə işarət edər." (Müslim, Məsacid 1310)



Ardından "Əttəhiyyat" [184] və Peyğəmbərə (s.a.v) "Salavat" [185] oxunur. Əttəhiyyat oxunduğu zaman illəllah kəliməsinə çatdıqda şəhadət barmağı qaldırılar [186] və digər

---

[184] Hədisi şərif: "Allaha salam olsun" deməyin. Çünki, Allah salamın özüdür. Ancaq belə deyin: ət-Təhiyyətu lilləhi... (Darəqutni, Salət l, 350)

**Əttəhiyyat**

**Ərəbcəsi:**

أَتَّحِيَّاتُ الْمُبَارَكَاتُ الصَّلَوَاتُ الطَّيِّبَاتُ لِلّٰهِ السَّلَامُ عَلَيْكَ اَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللهِ وَبَرَكَاتُهُ اَلسَّلَامُ عَلَيْنَا وَعَلَى عِبَادِ اللهِ الصَّالِحِينَ
اَشْهَدُ اَنْ لَا اِلَهَ اِلَّااللهُ وَاَشْهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ اللهِ

**Latıncası:** {Əttəhiyyatu əlmubərakətu əssaləvətu ətdayyibətu lilləhi. Əssələmu aləykə əyyuhənnəbiyyu və rahmətullahi və bərakətuh. Əssələmu aləynə və alə ibədilləhissalihin. Əşhədu ənlə iləhə illəllah və əşhədu ənnə muhammədər-rasulullah.}

**Mənası:** {Təhiyyatlar, bərəkətlər, salavatlar və gözəl şeylər Allahındır. Ey nəbi! Allahın salamı, rəhməti və bərəkəti sənin üzərinə olsun. Bizə saleh qulların üzərinə də salam olsun. Mən şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur və yenə şəhadət edirəm ki, Muhamməd Allahın rasuludur.}

Əttəhiyyatın yuxarıda zikr etdiyimiz forması İbn Abbasdan rəvayət edilmişdir: (İmam Şafii, əl-Umm l, 117)

[185] Daha qüvvətli olan görüşə görə ilk oturuşda təşəhhüddən sonra ona bağlı olaraq salavat oxumaq sünnətdir. Çünki bu təşəhhüd kimi son oturuşda edilməsi fərz olan bir zikrdir. Bu səbəblə ilk oturuşda edilməsi sünnətdir. (İmam Şafiinin görüşü. Qiyas)

**Not** İlk təşəhhüddə salavat Peyğəmbərə (s.a.v) oxunur. Ailəsinə oxunmaz. Çünki, "Doğru olan görüşə görə ilk təşəhhüddə Hz.Peyğəmbərin (s.a.v) ailə xalqına salavat oxumaq sünnət deyil. Çünki, namazdakı ilk oturuş ikinciyə görə daha xəfif qılınmışdır. (Xətibi Şirbini: Muğnil Muhtac)

**Hz. Muhammədə "Salavat"**

**Ərəbcəsi:**

{أَللّٰهُمَّ صَلِّى عَلَى مُحَمَّد.}

**Latıncası:** {Allahummə salli alə Muhamməd.}

**Mənası:** Allahım Muhammədə salat et.

[186] Adam illəllah dediyi sırada işarət barmağını qaldırar. Bunun dəlili Müslimin "barmağı əyməyi zikr etmədən" nəql etdiyi hədisdir. (Xətibi Şirbini: Muğnil Muhtac)

Nəvəvi isə, daha doğru olanın və "ənnə Muhammədən rasulullah" ifadəsi olduğunu söyləmişdir. Çünki, Müslimin səhihində ifadə bu şəkildədir. (Xətini Şirbini: Muğnil Muhtac)

hərəkətə qədər şəhadət barmağı hərəkət etdirilməz[187]. Bu zaman baş barmağ şəhadət barmağının altında və ovucun kənarında yumulmuş bir formada qalar. Yəni, orta barmaq ilə baş barmaq halqa formasında saxlanılır[188]

[187] Məzhəbimizdə qəbul edilən görüşə görə "Adam işarət barmağını qaldırdığı zaman onu hərəkət etdirməz. Çünki, Hz.Peyğəmbər (s.a.v) bunu etmirdi. Bunu Əbu Davud, Abdullah b. Zübeyrdən rəvayət etmişdir.

[188] Adam orta barmaq ilə baş barmağı halqa formasında tutar. Bunun dəlili Əbu Davudun Hz.Peyğəmbərin (s.a.v) feilinin belə olduğu rəvayətidir. (Əbu Davud, Salət 991)

**Not** (Üç və dörd rükətli namazlarda) Birinci təhiyyatdan ayağa qalxarkən, qiyama yaxınlaşdıqda açıqladığımız formada (Biz əllərin qulaq səviyyəsinə qaldırılmasını izah etmişdik.) əllər qaldırılar. (Əhməd Hilmi əl-Koği əd-Diyarbəkiri: Hədiyyətul Həbib)

## *Son təşəhhüd | Təvərrük*



*Şəkil 17. Son təşəhhüd/ Təvərrük*

İki və ya dörd rükətli namazların son səcdəsindən sonra təvərrük formasında oturulur. Yəni, sağ ayağın barmaqları qibləyə yönələcək formada dik saxlayar. Sol ayağını sağ ayağının altından çıxarar və sol yanını yerə oturtar[189]. Əllərin forması isə, eyni birinci təşəhhüdə oturulduqda qoyulduğu kimi qoyular. Birinci təşəhhüddə olduğu kimi yenədə "Əttəhiyyat" oxunur. Əttəhiyyatdan sonra Hz.Peyğəmbərə salavatın yerinə Hz.Peyğəmbərə və ailəsinə oxunur[190]. "Salli, Bərik" in oxunmasıda sünnətdir[191]. Bunun ardından sünnət olan başqa dualar oxuna bilər[192].

---

[189] Burada adam sol ayağını bədəninin sağ tərəfindən bayıra çıxarar. Ombasını da yerə bitişdirər. Bunun sünnət olduğunun dəlili Buxarinin rəvayət etdiyi hədisdir. (Buxari, Azan 828)

[190] Son oturuşda Hz.Peyğəmbərin (s.a.v) ev xalqına salavat oxumaq sünnətdir. (Xətibi Şirbini: Muğnil Muhtac)

[191] Son oturuşda salavatı "Hamidun Məcid" ifadəsinə qədər oxumaq sünnətdir. (Xətibi Şirbini: Muğnil Muhtac)

**"Salli, Bərik"**
**Ərəbcə:**
أللّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ، كَمَا صَلَّيْتَ عَلَى إِبْرَاهِيمَ وَعَلَى آلِ إِبْرَاهِيمَ، وَبَارِكْ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ، كَمَا بَارَكْتَ عَلَى إِبْرَاهِيمَ وَعَلَى آلِ إِبْرَاهِيمَ، إِنَّكَ حَمِيدٌ مَجِيدٌ

**Latınca:** {Allahummə salli alə Muhammədin və alə ali Muhamməd, kəmə salləytə alə İbrahimə və alə ali İbrahim, və bərik alə Muhammədin və alə ali Muhamməd, kəmə bəraktə alə İbrahimə və alə ali İbrahim, İnnəkə Hamidun Məcid.}

**Mənası:** {Allahım! İbrahimə və İbrahimin ailəsinə salət etdiyin kimi Muhamməda və Muhammədin ailəsinə də salət eylə. İbrahimi və İbrahimin ailəsini bərəkətli qıldığın kimi Muhammədi və Muhammədin ailəsini də bərəkətli qıl. Şübhəsiz ki, sən tərifə layiq və şanı ucasan.

[192] Son oturuşda təşəhhüd və onun ardından salavat oxuduqdan sonra imamın və digər şəxslərin dua oxuması sünnətdir. Bunun dəlili:

Müslimin rəvayət etdiyi hədis: "Biriniz namazda oturduğunda əttəhiyyatunu sonuna qədər oxusun, sonra duadan istədiyini seçsin." (Müslim, Salət 897)

Tirmizinin rəvayət etdiyi hədis: "Sonra istədiyi formada dua etsin." (Tirmizi, Deavat 3477)

Buxaridəki hədis: "Sonra duadan ən çox sevdiyini seçərək bununla dua etsin." (Buxari, Azan 835)

**Təhiyyatdan sonra oxunması sünnət olan dualar:**

Müslimin rəvayət etdiyi dua: (Müslim, Salət müsafirin 1809)

**Ərəbcəsi:**



*Şəkil 18. Təvərrük oturuşu*

---

اَللّٰهُمَّ اغْفِرْ لِي مَا قَدَّمْتُ وَمَا أَخَّرْتُ، وَمَا أَسْرَرْتُ وَمَا أَعْلَنْتُ، وَمَا أَسْرَفْتُ وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي، أَنْتَ المُقَدِّمُ وَأَنْتَ المُؤَخِّرُ لَا إِلٰهَ إِلَّا أَنْت

**Latıncası:** {Allahumməğfirli mə qaddəmtu və mə axxərtu və mə əsrartu və mə əaləntu və mə əsraftu və mə əntə əaləmu bihi minni əntəl muqaddimu və əntəl muaxxiru lə iləhə illə əntə.}

**Mənası:** {Allahım! Mənim öncəki və sonrakı günahlarımı gizlətdiklərimi və açıq olaraq etdiklərimi, həddi aşmamı, sənin məndən daha yaxşı bildiyin günahlarımı bağışla. Önə alan da sona buraxan da sənsən. Səndən başqa ilah yoxdur.

Buxarinin rəvayət etdiyi dua: (Buxari, Azan 834)

**Ərəbcəsi:**

{ اَللّٰهُمَّ إِنِّي ظَلَمْتُ نَفْسِي ظُلْمًا كَثِيرًا وَ لَا يَغْفِرُ الذُّنُوبَ إِلَّا أَنْتَ، فَاغْفِرْ لِي مَغْفِرَةً مِنْ عِنْدِكَ وَ ارْحَمْنِي إِنَّكَ أَنْتَ الغَفُورُ الرَّحِيم}

**Latınca:** {Allahummə inni zaləmtu nəfsi zulmən kəsiran və lə yəğfiruz zunubə illə əntə fəğfirli məğfiratən min indikə vərhamni innəkə əntəl ğafurur-rahim.}

**Mənası:** {Allahım! Mən özümə çox haqsızlıq etdim, günahları səndən başqa bağışlayacaq olan yoxdur. Elə isə, məni bağışla və mənə acı, sən həqiqətən çox bağışlayan çox mərhəmət edənsən.}

Müslim Əbu Hurəyrədən bunu rəvayət edir: "Sizdən biri son təşəhhüdü oxuduqdan sonra bu dörd şeydən Allaha sığınsın: Cəhənnəm əzabından, qəbir əzabından, yaşam və ölümün fitnəsindən, Məsih Dəccalın fitnəsindən." (Müslim, Məsacid 1326)

**Hədisi şərifdə qəsd olunan "Dua":**

**Ərəbcəsi:**

{.اَللّٰهُمَّ إِنِّى اَعُوذُ بِكَ مِنْ عَذَابِ الْقَبْرِ وَ مِنْ عَذَابِ النَّارِ وَ مِنْ فِتْنَةِ الْمَحْيَا وَ الْمَمَاتِ وَ مِنْ فِتْنَةِ الْمَسِيحِ الدَّجَّالِ}

**Latıncası:** {Allahummə inni əuzu bikə min azəbil qabri və min azəbinnəri və min fitnətil məhyə vəl məməti və min fitnətil məsihiddəccəl.}

## *Sağa və sola "Salam"*

Son oturuşda təhiyyatdan sonrakı duaları oxuyub bitirdikdən sonra namazdan çıxmağa niyyət edərək[193] üzünü sağ çiyinə çevirərək salam verər[194]. Eyni şəkildə sağa salamdan sonra üzünü sol çiyinə çevirərək salam verər[195].



*Şəkil 20. Sağa salam*



*Şəkil 19. Sola salam*

**Namazda kişi ilə qadının fərqi:**

- Kişilər namazda bir səhv ilə qarşılaşdığı zaman "subhənallah" deyər.[196]
- Qadınlar isə, belə bir şey olduqda sağ əlininin içi sol əlinin üstünə vurar.[197]
- Kişilərin vücudunun diz ilə göbək arası övrətdır.[198]
- Azad olan qadınlarda isə, övrət yeri, üz və əlləri xaricində bütün vücududur.[199]

---

[193] Daha doğru görüşə görə salam verərkən namazdan çıxmağa niyyət etmək fərz deyil... ...Ancaq görüş ayrılığından çıxmaq üçün namazdan çıxmağa niyyət etmək sünnətdir. (Xətibi Şirbini: Muğnil Muhtac)

[194] Sağa salam vermək namazın rükunlarındandır. Bunun dəlili Müslimdə keçən bu hədisdir: "Namaza başlamaq təkbirlə bitirmək salamla olur." (Əbu Davud, Təharət 61. Tirmizi, Əbvavut təharət 3. İbn Macə, Təharət və sünənüha 275)
Adamın ilk salamı sağa digərini sola verməsini, İbn Hibban və digər hədisçilər rəvayət etmişdir. (Əbu Davud, Tirmizi, Nəsai, İbn Macə, İbn Hibban)
Salamın ən kamil forması "Əssələmu aleykum və rahmətullah" ifadəsidir. Çünki, rəvayətlərdə belə yer almışdır. İmam Nəvəvinin əl-Məcmuda səhih görüş olaraq nəql edərək təsdiqlədiyinə görə "buna və bərakətuh ifadəsini əlavə etmək sünnət deyil." (Xətibi Şirbini: Muğnil Muhtac)

[195] Hədisi şərif: "Peyğəmbər (s.a.v) namazda sağına və soluna salam verərkən başıyla dönərdi, taki onun yanaqlarının ağlığını görürdüm." (Müslim 582, Sad (r.a) dan)

[196] Hədisi şərif: "Hər kim namazda xəbərdarlıq ehtiyacını hiss etdiyi bir şeylə qarşılaşarsa "subhanəllah" desin!..." (Buxari 652, Müslim 421)

[197] Hədisi şərif: "...Tasfik (sağ əlin ovucu ilə sol əlin üstünə vurmaq) ilə xəbərdarlıq isə, qadınlar üçündür." (Buxari 652, Müslim 421)

[198] Hədisi şərif: "İki dizin üstü və göbəyin altı övrətdir." (Darəqutni 1/231, Beyhaqi 2/229)

[199] Uca Allah məalən belə buyurur: "Möminə qadınlara da söylə: Gözlərini (harama baxmaqdan) yumsunlar. Namus və iffətlərini qorusunlar. Görünən qisimləri xaric olmaq üzrə zinətlərini açığa çıxarmasınlar. Baş örtüləriylə yaxalarının üzərinə (qədər) örtsünlər." (Nur 31)



### *Namazdan sonra dua*

Qılınan namazdan salam verib çıxdıqdan sonra aşağıdakı dular oxunur.[200]

**Ərəbcə**

أَسْتَغْفِرُ اللهَ، أَسْتَغْفِرُ اللهَ، أَسْتَغْفِرُ اللهَ الْعَظِيمَ الَّذِي لَا إِلهَ إِلَّا هُوَ الْحَيَّ الْقَيُّومَ وَأَتُوبُ إِلَيْهِ. اللّٰهُمَّ أَنْتَ السَّلَامُ وَمِنْكَ السَّلَامُ تَبَارَكْتَ يَا ذَا الْجَلَالِ وَالْإِكْرَامِ. أَللّٰهُمَّ لَا مَانِعَ لِمَا أَعْطَيْتَ وَلَا مُعْطِيَ لِمَا مَنَعْتَ وَلَا يَنْفَعُ ذَا الْجَدِّ. اللّٰهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ وَشُكْرِكَ وَحُسْنِ عِبَادَتِكَ. لَا إِلهَ إِلَّا اللهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللهِ. لَا إِلهَ إِلَّا اللهُ وَلَا نَعْبُدُ إِلَّا إِيَّاهُ لَهُ النِّعْمَةُ وَلَهُ الْفَضْلُ وَلَهُ الثَّنَاءُ الْحَسَنُ. لَا إَلهَ إِلَّا اللهُ مُخْلِصِينَ لَهُ الدِّينَ وَلَوْ كَرِهَ الْكَافِرُونَ

**Latınca:** Əstəğfirullah, əstəğfirullah, əstəğfirullah əl-azim əl-ləzi lə iləhə illə huvəl həyyəl qayyum və ətubu iləyh. Allahummə əntəs-sələmu və minkəs-sələm. Təbəraktə yə zəlcələli vəl ikram.[201] Allahummə lə mənia limə adaytə və lə mudiyə limə mənatə və lə yənfəu zəlcəddi minkəl-cəd.[202] Allahummə əinni alə zikrikə və şukrikə və husni ibədətik.[203] Lə iləhə illəllahu vəhdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şəyin qadir, lə həvlə və lə quvvətə illə billəh. Lə iləhə illəllahu və lə nəbudu illə iyyəhu ləhun-nimətu və ləhul-fədlu və ləhus-sənəul-həsən. Lə iləhə illəllahu muxlisinə ləhud-dinə və-ləv kərihəl-kəfirun.[204]

**Mənası:** Uca olan Allahdan bağışlanmamı istəyirəm. Allahım sən salamsan, salam səndəndir. Ey cəlal və ikram sahibi, Sən ucasan. Allahım verdiyinə heç kim mane ola bilməz, vermədiyinə də heç kimsə, verə bilməz. Sən verməsən, varlıq sahibinə varlığı fayda verməz. Allhım, zikrinə, şükrünə və sənə gözəl ibadətə qarşı mənə yardım et. Allahdan başqa ilah yoxdur, birdir, ortağı yoxdur. Mülk də Onundur, həmd də Onundur. O, hər şeyə qadirdir. Allahdan başqa qüvvət və qüdrət sahibi yoxdur. Allahdan başqa ilah yoxdur. Ancaq Ona ibadət edərik. Nemət də Onundur, lütüf də.

---

[200] Namazdan sonra zikr və dua etmək sünnətdir. (Xətibi Şirbini: Muğnil Muhtac)

Hz. Peyğəmbərə (s.a.v) hansı duanın ən çox dinlənəcəyi (yəni, icabət edilməyə daha yaxın olduğu) soruşulur. Belə cavab verdi: "Gecənin son qismində edilən və fərz namazların ardından edilən dualar." (Tirmizi, Deavat 3499)

[201] Müslim, Məsacid: 591, İmam Nəvəvi, əl-Əzkar

[202] Buxari, Azan: 844, Müslim, Məsacid: 593, İmam Nəvəvi, əl-Əzkar

[203] Əbu Daavud, Salət: 1522, Nəsai, Səhv: 3/53, İmam Nəvəvi, əl-Əzkar

[204] Müslim, Məsacid: 594, İmam Nəvəvi, əl-Əzkar

Gözəl təriflər də Onundur. Allahdan başqa ilah yoxdur. Kafirlərin xoşuna gəlməsə də bunu dində ixlasla ifadə edərik.

Bu duaların ardından bir dəfə "Ayətul Kürsi"[205] oxunaraq 33 dəfə "Subhanəllah", 33 dəfə "Əlhamdulilləh", 33 dəfə "Allahu Əkbər" deyilir. Ardından "Lə iləhə illəllahu vəhdəhu lə şərikə ləh, ləhul mulku və ləhul hamdu və huvə alə kulli şəyin qadir." zikri oxunur.[206] Bundan sonra hərkəs özü analaya biləcəyi dildə istədiyi duaları edə bilər.

## *Namazı Pozan Şeylər*

*Namazı pozan şeylər 11 – dir:*

1. *Qəsdən danışmaq,*[207]
2. *Çox sayılacaq qədər hərəkət etmək (əməli-kəsir),*[208]
3. *Dəstəmazın pozulması,*
4. *(Bədəninə, paltarına və ya namaz qıldığı yerdə) Nəcasətin meydana gəlməsi (bulaşması),*
5. *Övrət yerin açılması,*
6. *Niyyətin dəyişməsi,*[209]
7. *Qibləyə arxasını dönmək,*[210]
8. *Bir şeyi yemək,*
9. *Bir şeyi içmək,*
10. *Qəhqəhə ilə gülmək,*
11. *Dindən çıxmaq.*[211]

---

[205] Hədisi şərif: "Kim hər fərz namazın ardından "Ayətul kürsi"-ni oxusa, ölmək xaricində heç bir şey onun cənnətə girməsini əngəlləyə bilməz. (Nəsai, Əməlul yəvm vəl ləylə 100)

[206] Müslim, Məsacid 1351

[207] Buxari (4260) və Müslim (539), Zeyd bin Ərqam (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: "Biz namazda danışırdıq. Bizdən birimiz, ehtiyac duyduğu anda (müsəlman) qardaşı ilə danışardı." "Namazları və (xüsusən) orta namazı qoruyun və Allaha itaət üçün (mütiliklə) ayağa qalxın (namaza durun), (Bəqərə/238)" ayəsi nazil olunca susmaqla əmr olunduq."
Müslim (537) və başqası Muaviyə bin əl-Həkəm (r.a)-dan, o da Allah Rəsulun (s.a.v)-dən rəvayət etdiyinə görə belə buyurdu; "Şübhəsiz bu namaz, onun içində insanların kəlamından heç bir şey uyğun (caiz) deyildir. Onda yalnız təsbih, təkbir və Quran oxumaq caizdir."

[208] Çünki, bu hal namazın nizamına ziddir.

[209] Məsələn, namazdan çıxmağa niyyət etmək kimi.

[210] Çünki, keçən bu beş xüsusda, namazın şərtlərindən və ya rükunlarından birisinin tərki vardır.

[211] Çünki, qeyd olunan şeylər namazın hey`ət və şərtlərinə ziddir.

## *Namaz qılmağın məkruh olduğu vaxtlar*

*Beş vaxt var ki, bu vaxtlarda heç bir namaz qılınmaz. Ancaq özü üçün bir səbəb olan namazlar bu vaxtlardan istisna edilmişdir.*

1. *Sübh namazını qıldıqdan sonra günəş doğuncaya qədər,*
2. *Günəşin çıxmasından bir mizraq boyu yüksəlib təkamül edincəyə qədər,*
3. *Günəş tam zirvədə ikən (qərbə) meyl edincəyə qədər,*
4. *İkindi namazını qıldıqdan sonra, günəş batıncaya qədər,*
5. *Günəş batmaq üzərə ikən tamamən batıncaya qədər.*[212]

---

[212] Buxari (561) və Müslim (827), Əbu Səid əl-Xudri (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: “Rasulullah (s.a.v)-in belə buyurduğunu eşitdim: “Sübh namazından sonra günəş yüksələnədək namaz yoxdur, əsr namazından sonra günəş batanadək namaz yoxdur.” Yəni, “bu vaxtlarda heç kim namaz qılmasın!”

Müslim (831) Uqba ibn Amir (r.a)-dan rəvayət etdiyinə görə belə dedi: “Üç vaxt vardır ki, Peyğəmbər (s.a.v) bizə o vaxtda namaz qılmağı və ölülərmizi basdırmağı qadağan etmişdir:

1. Günəş doğmağa başlayandan yüksələnədək,
2. Günəş zenitdə (tam ortada) olduqdan zeniti keçənə qədər
3. Günəş batmağa yaxınlaşandan tam batana qədər.”

Hədisdəki qadağan, “Haram” hökmünü ifadə edir.

Amma özü üçün bir səbəb olan namazlar “istər nafilə olsun, istər fərz” hər vaxtda qılına bilər. Buxari və Müslimdə keçən bu hədis ona dəlalət edir. Buxari (572) və Müslim (684) Ənəs (r.a)-dan bunu rəvayət edirlər: Peyğəmbər (s.a.v) buyurdu: “Kim bir namazı unutarsa, xatırladığı an (onu qılsın, həmin namazın kəffarəsi ancaq budur (qəza etməkdir) “... Məni anmaq üçün namaz qıl!” (Ta ha / 14)

Buxari (1176) və Müslim (834), Ummu-Sələmə (r.a)-dan bunu rəvayət edirlər: “Peyğəmbər (s.a.v) ikindi namazından sonra iki rükət namaz qıldı. Məndə bundan soruşduqda belə cavab verdi: “Ey Əbu Ümeyyənin qızı! Əsrdən sonraki iki rükət barədə sual verdin. Əbdülqeys oğullarından bir dəstə adam yanıma gəlmişdi. Onlar (sual və söhbətləri ilə) mənə zöhrdən sonraki iki rükəti qılmağa imkan vermədilər. Bu , (gördüyün) həmin iki rükət idi.”

# *DİQQƏT !*

***Dini mövzularda bundan başqa fəaliyyətlərimizdən faydalanmaq istəyənlər aşağıdaki sosial şəbəkələrdən bizləri izləyə bilər!***

*Üsulid-Din*

*Üsulud Din / Mərifətullah Kitab Evi*

*usulid_din / marifetullah_kitabevi*

*Üsulid-Din / Marifetullah Kitab Evi*

Ramil Əliməmmədov tərəfindən hazırlanan bu kitab Şafii məzhəbinə görə təmizlik və namaz qaydalarını, eləcə də Əhli Sünnə əqidəsini özündə cəmləşdirir. Kitabın əvvəlində imanın və İslamın şərtləri, qiyamət əlamətləri, böyük günahlar və insanı dindən çıxaran əməllər kimi inanc əsasları izah edilir. Daha sonra təmizlik bölməsində dəstəmazın və qüslün fərzləri, sünnətləri, onları pozan hallar və qadınlara məxsus xüsusi vəziyyətlər (heyz, nifas) öyrədilir. Sonda isə namazın vaxtları, şərtləri, fərz və sünnətləri, tam qılınma qaydası, namazı pozan hallar və namazdan sonra oxunması tövsiyə edilən dualar ətraflı şəkildə açıqlanır.